# -قاموس الكبائر -المجموعة الأولى

# (للحرمين والجمعية)

# Böyük günahlar lüğəti

## Böyük günahlar lüğəti

İslami Məzmun Xidmətləri Cəmiyyətinin Müxtəlif Dillər üzrə Elmi Komitəsi

## Böyük günahlar lüğəti

İslami Məzmun Xidmətləri Cəmiyyətinin Müxtəlif Dillər üzrə Elmi Komitəsi

Mərhəmətli və Rəhmli Allahın adı ilə

### Müqəddimə.

Qullarını Özünün doğru yoluna yönəldən və təqvanı Özünün şiddətli əzabından möhkəm bir qala edən Allaha həmd olsun. Allahın salavatı və salamı peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinə olsun.

Daha sonra:

Həqiqətən, qəlbi rahatladan və nəfsi sakitləşdirən ən uca amillərdən biri, İslamın ali təlimləri haqqında düşünmək, və Allahın əmr və qadağaları, xüsusilə də fərdə və cəmiyyətə olan böyük təhlükəsi və təsirinə görə - Allahın Öz aydın Kitabında və peyğəmbərinin, sallallahu aleyhi va səlləm, pak Sünnəsində çəkindirdiyi - böyük günahlar üzərində dayanmaqdır. Uca Allah belə buyurmuşdur:

﴿وَلِلَّهِ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَمَا فِي ٱلۡأَرۡضِ لِيَجۡزِيَ ٱلَّذِينَ أَسَٰٓـُٔواْ بِمَا عَمِلُواْ وَيَجۡزِيَ
ٱلَّذِينَ أَحۡسَنُواْ بِٱلۡحُسۡنَى 31 ٱلَّذِينَ يَجۡتَنِبُونَ كَبَٰٓئِرَ ٱلۡإِثۡمِ وَٱلۡفَوَٰحِشَ إِلَّا ٱللَّمَمَۚ إِنَّ
رَبَّكَ وَٰسِعُ ٱلۡمَغۡفِرَةِ...﴾

"Göylərdə və yerdə nə varsa, (hamısı) Allaha məxsusdur. (Bu, Allahın) pislik edənlərə əməllərinin cəzasını verməsi, yaxşılıq edənləri isə ən gözəli ilə (Cənnətlə) mükafatlandırması üçündür.

Onlar kiçik günahlar müstəsna olmaqla, böyük günahlardan və çirkin əməllərdən (şirkdən və zinadan) çəkinirlər. Həqiqətən, sənin Rəbbin geniş məğfirət sahibidir...". (ən-Nəcm 53 surəsi, ayələr 31-32).

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«اجْتَنِبُوا السَّبْعَ المُوبِقَاتِ».

"Həlak edən yeddi günahdan çəkinin!"[1].

Böyük günahlar, Allahın və ya Onun qullarının haqqına qarşı edilən bütün böyük günahları əhatə edir. Şanlı şəriət bu günahlara yol verməkdən çəkindirmiş və onların dünyada və axirətdəki ağır nəticələrini bəyan etmişdir.

Allahın geniş rəhməti tövbə edib Ona üz tutan - hər kəs üçün tövbə qapısını açmışdır. İzzət və Cəlal sahibi Allah belə buyurmuşdur:

﴿وَإِنِّي لَغَفَّارٌ لِّمَن تَابَ وَءَامَنَ وَعَمِلَ صَٰلِحًا...﴾

"Mən, həqiqətən də, tövbə edib, iman gətirib saleh əməllər edənləri bağışlayıram". (Ta-Ha 20 surəsi, ayə 82).

---

[1] Hədisi Buxari: (2766) və Müslim: (89) rəvayət etmişdir.

Bu səbəbdən də bu kitab, Quran və Sünnə dəlillərinə əsaslanaraq böyük günahın həqiqətini və onun təsirlərini, eləcə də ondan tövbə edib xilas olmağın yolunu bəyan edir.

Bu iş "İslami Məzmun Xidmətləri Cəmiyyətinin Müxtəlif Dillər üzrə Elmi Komitəsi" tərəfindən «Rabva Təbliğ və Maarif Birliyi» (cəmiyyəti) ilə birgə əməkdaşlıqla, bu dəyərli elmin yayılmasına həvəs göstərərək, ərəb dilində danışmayanlar üçün tərcüməyə uyğunluğunu nəzərə alaraq və İslamın risaləsini hər kəsə çatdırmağın əhəmiyyətinə inanaraq hazırlanmışdır.

Uca Allahdan bu səyi həsənətlər tərəzisinə yazmasını və onunla bütün insanlara fayda verməsini diləyirik.

Perğəmbərimizə Allahın salavatı və salamı olsun.

## Ön söz.

Həmd olsun aləmlərin Rəbbi olan Allaha. Allahın salavatı və salamı peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinin üzərinə olsun.

Daha sonra:

Həqiqətən, bütün aləmdə şərin kökü günahlardır. Onlar hər bir rüsvayçılıq, zəlillik, ziyan və həlakətin səbəbidir. Adəm və onun nəsli Cənnətdən yalnız günahları səbəbindən endirildi. Nuh qövmü yalnız Allaha asi olduqları üçün tufanla həlak edildi. Ad qövmünün üzərinə külək, Səmud

qövmünün üzərinə isə dəhşətli səs yalnız onların asilikləri və Rəbblərinin elçilərini təkzib etdikləri üçün göndərildi. Beləliklə, günahlar hər bir bəlanın səbəbi və hər bir müsibətin mənbəyidir. Bu, bütün günahlara aiddir. Lakin bu məsələdə böyük günahların təsiri digərlərindən daha əzəmətlidir.

## Böyük və kiçik günahların tərifi:

Böyük günahlar (əl-kəbira): Allahın Kitabında və ya rəsulunun, sallallahu aleyhi va səlləm, Sünnəsindəki bir nass ilə haqqında təhdid, lənət və ya hədd cəzası olan, yaxud fəsadının, haqqında təhdid, hədd və ya lənət olan bir günahın fəsadı qədər və ya ondan daha çox olduğu bilinən, yaxud da onu edənin dininə qarşı etinasızlığına - dəlalət edən bütün günahlardır.

Buna görə də kiçik günahlar (əs-sağira), böyük günahın tərifinə daxil olmayan, yəni: haqqında əzab vəd edilməyən, hədd, lənət və ya cəza təhdidi ilə müşayiət olunmayan və onu edənin şəriət əmrlərinə etinasızlığını göstərməyən hər bir günahdır.

## Böyük günahla kiçik günah arasındakı fərq:

1- Böyük günahla birlikdə əzab vədi, cəza, lənət və bu kimi hallar zikr olunur, kiçik günahla isə bunlardan heç biri zikr olunmur.

2- Böyük günah, onu edənin şəriətin əmrinə qarşı etinasızlığını göstərir, kiçik günah isə belə deyil.

3- Böyük günahların bağışlanması üçün onları edən şəxsin tövbə etməsi gərəkdir. Kiçik günahlara gəldikdə isə tövbə ilə, böyük günahlardan çəkinməklə, insanın başına gələn müsibətlərlə və ya saleh əməllərlə bağışlanır.

Uca Allah buyurur:

﴿إِن تَجۡتَنِبُواْ كَبَآئِرَ مَا تُنۡهَوۡنَ عَنۡهُ نُكَفِّرۡ عَنكُمۡ سَيِّـَٔاتِكُمۡ وَنُدۡخِلۡكُم مُّدۡخَلٗا كَرِيمٗا 31﴾

"Əgər sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin (kiçik) günahlarını əff edər və sizi şərəfli bir yerə – (Cənnətə) daxil edərik". [Nisa 4 surəsi, ayə 4]. Uca Allah buyurur:

﴿وَأَقِمِ ٱلصَّلَوٰةَ طَرَفَيِ ٱلنَّهَارِ وَزُلَفٗا مِّنَ ٱلَّيۡلِۚ إِنَّ ٱلۡحَسَنَٰتِ يُذۡهِبۡنَ ٱلسَّيِّـَٔاتِۚ ذَٰلِكَ ذِكۡرَىٰ لِلذَّٰكِرِينَ 114﴾

"Gündüzün iki başında (əvvəlində və axırında) və gecənin bəzi saatlarında doğru-düzgün namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri yuyub aparır. Bu, yada salanlar üçün bir xatırlatmadır". (Hud 1 114).

Aişə, Allah ondan razı olsun, Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurduğunu rəvayət edir:

«مَا مِنْ مُصِيبَةٍ تُصِيبُ المُسْلِمَ إِلَّا كَفَّرَ اللهُ بِهَا عَنْهُ، حَتَّى الشَّوْكَةِ يُشَاكُهَا».

“Müsəlmana üz verən elə bir müsibət, hətta bədəninə batan tikan belə yoxdur ki, Allah buna görə onun günahlarını bağışlamasın”.[1]

[1] Hədisi Buxari: (5649) və Müslim: (2572) rəvayət etmişdir.

Əbu Hureyrədən, Allah ondan razı olsun, rəvayət edildiyinə görə Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«الصَّلَوَاتُ الْخَمْسُ، وَالْجُمُعَةُ إِلَى الْجُمُعَةِ، وَرَمَضَانُ إِلَى رَمَضَانَ، مُكَفِّرَاتٌ مَا بَيْنَهُنَّ إِذَا اجْتُنِبَ الْكَبَائِرُ».

«Böyük günahlardan çəkinildiyi təqdirdə, beş vaxt namaz, bir cümə o biri cüməyə qədər və bir Ramazan o biri Ramazana qədər, aralarında edilən kiçik günahlara kəffarədir»[1].

## Böyük günahların dini və dünyəvi təhlükələri və zərərləri:

Böyük günahlar etmək, dünyada və axirətdə bir çox təhlükə və zərərin səbəbidir. Bunlardan bəziləri aşağıdakılardır:

- Böyük günahlar, sahibini Cənnətə daxil olmamaq təhdidinə məruz qoyur. Belə ki, Cubeyr bin Mutimdən, Allah ondan razı olsun, rəvayət edilir ki, peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurdu:

«لَا يَدْخُلُ الجَنَّةَ قَاطِعٌ».

"Qohumluq əlaqələrini kəsən Cənnətə daxil olmaz".[2] Yəni: qohumluq əlaqələrini kəsən.

Huzeyfədən, Allah ondan razı olsun, rəvayət edildiyinə görə o, belə demişdir: mən peyğəmbərin, salləllahu aleyhi va səlləm, belə dediyini eşitdim:

---

[1] Hədisi Müslim: (233) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (5984) və Müslim: (2556) rəvayət etmişdir.

«لَا يَدْخُلُ الجَنَّةَ قَتَّاتٌ».

"İnsanlar arasında söz gəzdirən cənnətə daxil olmaz"[1]. Yəni: Söz gəzdirən (nəmmam; qeybət edən, xəbərçi).

- Onlardan bəziləri qəbir əzabına səbəbdir. İbn Abbasdan, Allah onların hər ikisindən razı olsun, rəvayət edilir ki, o belə demişdir:

مَرَّ النَّبِيُّ ﷺ بِقَبْرَيْنِ، فَقَالَ: «إِنَّهُمَا لَيُعَذَّبَانِ، وَمَا يُعَذَّبَانِ فِي كَبِيرٍ، أَمَّا أَحَدُهُمَا فَكَانَ لَا يَسْتَتِرُ مِنَ البَوْلِ، وَأَمَّا الآخَرُ فَكَانَ يَمْشِي بِالنَّمِيمَةِ».

Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, iki qəbrin yanından keçərkən belə dedi: «Bu iki qəbir sahibi əzab çəkir, onların əzabı böyük (saydıqlarınız) günaha görə deyil (amma əslində bu böyükdür). Qəbirdəkilərdən birinə sidikdən qorunmadığına görə, digərinə isə insanlar arasında söz gəzdirdiyinə görə əzab verilir»[2].

- O, axirətdə şiddətli əzabın səbəblərindəndir. Aişə, Allah ondan razı olsun, rəvayət edir ki, Allahın rəsulu, salləllahu aleyhi va səlləm, belə buyurmuşdur:

«أَشَدُّ النَّاسِ عَذَابًا يَوْمَ القِيَامَةِ الَّذِينَ يُضَاهُونَ بِخَلْقِ اللهِ».

"Qiyamət günü insanların ən şiddətli əzab görənləri Allahın yaratdıqlarına oxşadanlardır".[3] "Yudahunə": yəni bənzədirlər, burada qəsd olunanlar isə surət (rəsm) çəkənlərdir.

---

[1] Hədisi Buxari: (6056) və Müslim: (105) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (218) və Müslim: (292) rəvayət etmişdir.
[3] Hədisi Buxari: (5954) və Müslim: (2107) rəvayət etmişdir.

- Allah və Onun elçisi tərəfindən lənətlənməyə səbəbdir. Belə ki, İbn Abbasdan, Allah onların hər ikisindən razı olsun, belə rəvayət edilir:

«لَعَنَ رَسُولُ اللهِ ﷺ الْمُتَشَبِّهِينَ مِنَ الرِّجَالِ بِالنِّسَاءِ، وَالْمُتَشَبِّهَاتِ مِنَ النِّسَاءِ بِالرِّجَالِ».

«Rasulu-Llah, sallallahu aleyhi va səlləm, qadınlara bənzəyən kişilərə və kişilərə bənzəyən qadınlara lənət etmişdir»[1].

Abdullah bin Məsuddan, Allah ondan razı olsun, belə dediyi rəvayət edilir:

«لَعَنَ رَسُولُ اللهِ ﷺ آكِلَ الرِّبَا وَمُؤْكِلَهُ».

"Peyğəmbər, sallallahu aleyhi və səlləm, - sələm (riba/ fayız) yeyəni və yedirdəni lənətləmişdir"[2].

- O, əməlin puç olmasının və boşa çıxmasının səbəblərindəndir. Belə ki, Bureydə, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə demişdir:

«مَنْ تَرَكَ صَلَاةَ الْعَصْرِ فَقَدْ حَبِطَ عَمَلُهُ».

«Əsr namazını tərk edənin əməli batil olar»[3].

— Böyük günah, şəriətdə hədd cəzası müəyyən edilmiş əməllərdən olarsa, onu edən şəxsə şəri cəzanın tətbiq edilməsinə səbəb olur. Necə ki, Uca Allah buyurur:

﴿وَٱلسَّارِقُ وَٱلسَّارِقَةُ فَٱقۡطَعُوٓاْ أَيۡدِيَهُمَا جَزَآءَۢ بِمَا كَسَبَا نَكَٰلٗا مِّنَ ٱللَّهِۗ وَٱللَّهُ عَزِيزٌ حَكِيمٞ 38﴾

---

[1] Hədisi Buxari: (5885) rəvayət etmişdir.
[2] Hədisi Müslim: (1597) rəvayət etmişdir.
[3] Hədisi Buxari: (553) rəvayət etmişdir.

"Oğru kişinin və oğru qadının, etdikləri əməlin cəzası və Allahdan bir ibrət olaraq (sağ) əllərini kəsin! Allah qüdrətlidir, hikmət sahibidir". [Maidə 5 surəsi, ayə 38]. İzzət və Cəlal sahibi olan Allah buyurur:

﴿ٱلزَّانِيَةُ وَٱلزَّانِي فَٱجۡلِدُواْ كُلَّ وَٰحِدٖ مِّنۡهُمَا مِاْئَةَ جَلۡدَةٖ...﴾

"Zinakar qadının və zinakar kişinin hər birinə yüz çubuq vurun...". (Nur 24 surəsi, ayə 2). Pak və Uca olan Allah buyurur:

﴿وَٱلَّذِينَ يَرۡمُونَ ٱلۡمُحۡصَنَٰتِ ثُمَّ لَمۡ يَأۡتُواْ بِأَرۡبَعَةِ شُهَدَآءَ فَٱجۡلِدُوهُمۡ ثَمَٰنِينَ جَلۡدَةٗ وَلَا تَقۡبَلُواْ لَهُمۡ شَهَٰدَةً أَبَدٗاۚ وَأُوْلَٰٓئِكَ هُمُ ٱلۡفَٰسِقُونَ 4﴾

"İsmətli qadınları (zinada) günahlandırıb, sonra dörd şahid gətirməyən kəslərə səksən çubuq vurun və onların şahidliyini heç vaxt qəbul etməyin. Onlar əsl fasiqlərdir". (Nur 24 surəsi, ayə 4).

- O, nemətlərin zəvalına və dəyişməsinə səbəbdir. Uca Allah buyurur:

﴿ذَٰلِكَ بِأَنَّ ٱللَّهَ لَمۡ يَكُ مُغَيِّرٗا نِّعۡمَةً أَنۡعَمَهَا عَلَىٰ قَوۡمٍ حَتَّىٰ يُغَيِّرُواْ مَا بِأَنفُسِهِمۡ...﴾

"Bu, ona görədir ki, bir qövm nəfslərində olanı dəyişməyincə, Allah da onlara verdiyi neməti dəyişən deyildir...". (Ənfal 8 surəsi, ayə 53).

Səadi, Allah ona rəhmət etsin, demişdir: "Allahın, haqqı yalan sayan ümmətlərə əzab verməsi və onların sahib olduqları müxtəlif nemətləri əllərindən alması, onların günahları və öz hallarını dəyişdirmələri səbəbindəndir. Həqiqətən, Allah bir qövmə bəxş etdiyi din və dünya nemətlərini, onlar özlərində olan itaət halını asiliyə çevirib, Allahın

nemətinə qarşı nankorluq edərək onu küfrlə əvəz etməyincə dəyişməz. Əksinə, əgər onlar şükürlərini artırsalar, Allah da o neməti qoruyub saxlayar və daha da artırar. Onlar özlərində olanı dəyişdirdikdə isə, Allah da o neməti onlardan alar və onların halını dəyişər. Bunda Allahın hikməti, ədaləti və qullarına qarşı lütfkarlığı vardır. Çünki O, onlara yalnız öz zülmlərinə görə cəza verir"[1].

- Yer üzündə fitnə-fəsadın yayılmasına səbəbdir. Çünki fitnə-fəsad günahlar, xüsusilə də böyük günahlar səbəbilə zühur edir. Uca Allah buyurur:

﴿ظَهَرَ ٱلۡفَسَادُ فِي ٱلۡبَرِّ وَٱلۡبَحۡرِ بِمَا كَسَبَتۡ أَيۡدِي ٱلنَّاسِ لِيُذِيقَهُم بَعۡضَ ٱلَّذِي عَمِلُواْ لَعَلَّهُمۡ يَرۡجِعُونَ 41﴾

"İnsanların öz əlləri ilə etdiyi əməllərinin nəticəsi olaraq quruda və dənizdə fəsad törəyir ki, (Allah) onlara, etdiklərinin bir qismini daddırsın. Bəlkə, onlar (haqqa) qayıdalar". (Rum 30 surəsi, ayə 41).

- Günah etmək elmdən məhrum edən səbəblərdəndir. Çünki elm uca Allahın qəlbə saldığı bir nurdur, günah isə o nuru söndürür. İmam Şafi İmam Malikin hüzurunda əyləşib ona oxuduqda, onun dərin fərasəti, parlaq zəkası və kamil qavrayışı İmam Malikin xoşuna gəldi və o, belə dedi: "Görürəm ki, Allah sənin qəlbinə bir nur salmışdır, onu günahın zülməti ilə söndürmə!"[2].

---

1 Təfsir Səadi (səh: 324).
2 Bax: əl-Beyhəqinin "Mənaqib əş-Şafii" kitabına, (1/104).

- Bu, onu edən kimsənin işlərini çətinləşdirən səbəblərdəndir. Belə ki, o, hansı işə yönəlsə, o işi özünə qarşı bağlı və ya çətinləşmiş görər. Necə ki, Allahdan qorxan kimsəyə Allah onun işində bir asanlıq yaradar, eləcə də təqvanı tərk edib böyük günahlar edən kimsəyə də Allah onun işində bir çətinlik yaradar. Uca Allah buyurur:

﴿فَبِظُلۡمٖ مِّنَ ٱلَّذِينَ هَادُواْ حَرَّمۡنَا عَلَيۡهِمۡ طَيِّبَٰتٍ أُحِلَّتۡ لَهُمۡ وَبِصَدِّهِمۡ عَن سَبِيلِ ٱللَّهِ كَثِيرٗا 160 وَأَخۡذِهِمُ ٱلرِّبَوٰاْ وَقَدۡ نُهُواْ عَنۡهُ وَأَكۡلِهِمۡ أَمۡوَٰلَ ٱلنَّاسِ بِٱلۡبَٰطِلِۚ وَأَعۡتَدۡنَا لِلۡكَٰفِرِينَ مِنۡهُمۡ عَذَابًا أَلِيمٗا 161﴾

"Yəhudilər zülm etdiklərinə və bir çoxlarını Allah yolundan azdırdıqlarına görə onlara halal edilmiş pak nemətləri haram etdik.

"(Biz bunu həm də) qadağan olunmasına baxmayaraq sələm (riba) aldıqlarına və haqsız yerə insanların mallarını yediklərinə görə (belə etdik). Biz onlardan olan kafirlər üçün ağrılı-acılı bir əzab hazırlamışıq". (Nisa 4 surəsi, ayələr 160, 161).

- O (günah), onu edənin qəlbində zülmətə səbəb olur ki, insan bunu eynilə gecənin qaranlığını hiss etdiyi kimi hiss edir. Beləliklə, günahın zülməti onun qəlbi üçün, gözünün hiss etdiyi qaranlıq kimi olur. Çünki itaət nur, günah isə zülmətdir. Zülmət gücləndikcə, onun heyrəti də artar, nəhayət o, fərqinə varmadan bidətlərə, zəlalətlərə və həlak edici işlərə düşər.

Huzeyfə, Allah ondan razı olsun, demişdir: "(Bir dəfə) biz Ömərin yanında ikən o soruşdu: "Hansınız

peyğəmbərin, sallallahu aleyhi va səlləm, fitnələr barədə dediyi sözləri eşitmişdir?". Camaat: “Biz onu eşitmişik” – dedi. Ömər dedi: “Yəqin ki, siz kişinin ailəsi və qonşusu üzündən düşdüyü fitnəni nəzərdə tutursunuz”. Onlar: “Bəli!” – deyə cavab verdilər. Ömər dedi: “(Sizin qəsd etdiyiniz) o fitnəni namaz, oruc və sədəqə (kimi ibadətlər) silib aparır. (Mən bunu qəsd etmirəm). Lakin hansınız peyğəmbərin, sallallahu aleyhi va səlləm, təlatümə gəlmiş dəniz kimi (araya) çaxnaşma salacaq fitnə barədə xəbər verdiyini eşitmişdir?”.

Huzeyfə dedi: “Bu zaman camaat susdu”. Mən isə dedim: “Mən (eşitmişəm)”. Ömər buyurdu: “Afərin sənə!”.

Huzeyfə dedi: “Mən peyğəmbərin, sallallahu aleyhi va səlləm, belə dediyini eşitmişəm:

«تُعْرَضُ الفِتَنُ عَلَى القُلُوبِ كَالْحَصِيرِ عُودًا عُودًا، فَأَيُّ قَلْبٍ أُشْرِبَهَا، نُكِتَ فِيهِ نُكْتَةٌ سَوْدَاءُ، وَأَيُّ قَلْبٍ أَنْكَرَهَا، نُكِتَ فِيهِ نُكْتَةٌ بَيْضَاءُ، حَتَّى تَصِيرَ عَلَى قَلْبَيْنِ، عَلَى أَبْيَضَ مِثْلِ الصَّفَا فَلَا تَضُرُّهُ فِتْنَةٌ مَا دَامَتِ السَّمَاوَاتُ وَالْأَرْضُ، وَالآخَرُ أَسْوَدُ مُرْبَادًّا كَالْكُوزِ، مُجَخِّيًا لَا يَعْرِفُ مَعْرُوفًا، وَلَا يُنْكِرُ مُنْكَرًا، إِلَّا مَا أُشْرِبَ مِنْ هَوَاهُ».

"Həsir tədriclə (adamın böyründə) iz buraxdığı kimi, fitnələr də qəlblərdə iz buraxır. Hansı qəlbə bu fitnələr daxil edilərsə, o qəlbə qara nöqtə vurular. Hansı qəlb də bunları rədd edərsə, o qəlbə ağ nöqtə vurular. Hətta iki qəlb kimi olar: (biri) ağappaq hamar qayaya bənzər. Göylər və yer durduqca, belə qəlbə heç bir fitnə zərər verə bilməz. Digəri isə qara, tozlu (kül rəngdə) və tərs

çevrilmiş kuzəyə bənzər. Bu qəlb özünə sevdirilmiş arzulardan (hava) başqa heç bir yaxşılığa əhəmiyyət verməz və heç bir günahı inkar etməz"[1].

- Araya düşmənçilik və kin-küdurət düşməsinə, eləcə də düşmənin hakim kəsilməsinə səbəbdir. Necə ki, Uca Allah buyurmuşdur:

﴿وَمِنَ ٱلَّذِينَ قَالُوٓاْ إِنَّا نَصَٰرَىٰٓ أَخَذۡنَا مِيثَٰقَهُمۡ فَنَسُواْ حَظّٗا مِّمَّا ذُكِّرُواْ بِهِۦ فَأَغۡرَيۡنَا بَيۡنَهُمُ ٱلۡعَدَاوَةَ وَٱلۡبَغۡضَآءَ إِلَىٰ يَوۡمِ ٱلۡقِيَٰمَةِۚ وَسَوۡفَ يُنَبِّئُهُمُ ٱللَّهُ بِمَا كَانُواْ يَصۡنَعُونَ 14﴾

"Biz nəsraniyik!"– deyənlərdən də əhd almışdıq. Onlar da (özlərinə) öyrədilmiş şeylərin bir hissəsini unutdular. Buna görə də onların arasına Qiyamət gününə qədər ədavət və kin saldıq. Allah onlara nə etdikləri barədə xəbər verəcəkdir". [Maidə 5 surəsi, ayə 14]. İnsanlar Allahın onlara əmr etdiklərinin bir qismini tərk edib, Onun qadağan etdiklərini işlədikdə, aralarına ədavət və kin düşər, düşmənlər də onlara hakim kəsilər[2].

- Bu günahlar cəmiyyətin pozulmasına səbəbdir. Belə ki, onların vasitəsilə: yalan, böhtan, qeybət, sözgəzdirmə, aldatma, hiyləgərlik, təkəbbür və lovğalıq kimi pislənən əxlaqlar yayılır. Həmçinin, insanlar bir-birinin malını haqsız yerə yeyir, həyat pozulur, sehr və bu kimi əməllərlə insanlar arasında əziyyət yayılır, eləcə də zina, livat, kişilərin

---

[1] Səhih Müslim: (144).

[2] Bax: "Məcmu Əl-Fətavə": (3/421).

qadınlara (müxənnəs) və qadınların kişilərə bənzəməsi kimi iyrəncliklər geniş vüsət alır[1].

## Əhli-Sünnənin böyük günah sahibi və "müjdə və təhdid" hədisləri barəsində mövqeyi:

Əhli-Sünnəyə görə, böyük şirk və küfür dərəcəsinə çatmayan böyük günah edən kimsə, imanı naqis olan mömindir. Etdiyi günahın miqdarı qədər imanı azalmışdır. Ondan iman adı tamamilə alınmaz və ona mütləq iman adı da verilməz. O, imanı naqis olan mömindir və ya imanına görə mömin, etdiyi böyük günaha görə isə fasiqdir. Onun axirətdəki hökmü isə belədir ki, o, Allahın istəyi altındadır. Allah diləsə, onu bağışlayar və əvvəlcə heç bir əzab vermədən Cənnətə daxil edər. Diləsə də, günahı miqdarında ona əzab verər, sonra isə onu oradan çıxarıb möminlərlə birlikdə Cənnətə daxil edər. Bəzən insan böyük günahdan axirətdən öncə, elə dünyada ikən təmizlənə bilər. Bu da səmimi tövbə etməklə ya ona hədd cəzasının tətbiq edilməsi ilə ya da başına gələn müsibətlərlə yaxud da çoxlu yaxşı əməllər görməklə mümkündür. Nəticədə o, Qiyamət gününə üzərində heç bir əzab olmadan gələr.

Böyük günah sahibləri barəsindəki təhdidlə bağlı varid olan hədislərə gəlincə, məsələn Əbu

[1] Bax: İbn əl-Qeyyimin, əd-Də va əd-Dəva: (1/132).

Hureyrə, Allah ondan razı olsun, rəvayət edir ki, Allah rəsulu, sallallahu aleyhi və səlləm, belə demişdir:

«لَا يَزْنِي الزَّانِي حِينَ يَزْنِي وَهُوَ مُؤْمِنٌ، وَلَا يَشْرَبُ الخَمْرَ حِينَ يَشْرَبُ وَهُوَ مُؤْمِنٌ، وَلَا يَسْرِقُ حِينَ يَسْرِقُ وَهُوَ مُؤْمِنٌ».

«Zina edən kimsə zina etdiyi vaxt mömin olmaz. Şərab içən kimsə şərab içdiyi vaxt mömin olmaz. Oğurluq edən kimsə oğurluq etdiyi vaxt mömin olmaz»[1]. Məqsəd budur ki, ondan "kamil iman" sifəti aradan qalxır və İslam qalır. O, bu günahı tərk edib tövbə etdikdə isə iman ona yenidən qayıdır. Belə ki, kamil iman ondan yalnız bu böyük günahları etdiyi halda götürülür, lakin imanın əsli onda qalır. Çünki başqa hədislərdə də, zina və oğurluq etsə belə, Allaha heç bir şeyi şərik qoşmadan ölən kimsəyə Cənnətə daxil olmaq vəd edilmişdir. Məsələn Əbu Zərr, radiyallahu anhu, rəvayət edir ki, Allahın elçisi, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«أَتَانِي آتٍ مِنْ رَبِّي، فَبَشَّرَنِي أَنَّهُ مَنْ مَاتَ مِنْ أُمَّتِي لَا يُشْرِكُ بِاللَّهِ شَيْئًا دَخَلَ الجَنَّةَ»، قُلْتُ: وَإِنْ زَنَى وَإِنْ سَرَقَ؟ قَالَ: «وَإِنْ زَنَى وَإِنْ سَرَقَ».

"Rəbbimdən mənə bir elçi gəldi və müjdə verdi ki, ümmətimdən kim Allaha şərik qoşmadan ölərsə, Cənnətə daxil olar". Dedim: "Zina etsə və oğurluq etsə beləmi?". O isə dedi: "Zina etsə və oğurluq etsə belə"[2].

---

[1] Hədisi Buxari: (2475) və Müslim: (57) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (1237) və Müslim: (94) rəvayət etmişdir.

## Böyük günahların qarşısının alınması və müalicəsi:

- Cəmiyyət fərdlərini günahların, xüsusilə də böyük günahların təhlükəsindən xəbərdar etmək. Çünki onlar bütün cəmiyyətə əzabların və bəlaların nazil olmasına səbəbdir. Necə ki, Uca Allah buyurur:

﴿وَٱتَّقُواْ فِتۡنَةٗ لَّا تُصِيبَنَّ ٱلَّذِينَ ظَلَمُواْ مِنكُمۡ خَآصَّةٗۖ وَٱعۡلَمُوٓاْ أَنَّ ٱللَّهَ شَدِيدُ ٱلۡعِقَابِ 25﴾

"Sizdən yalnız zalımlara toxunmayacaq (əksinə, hamınızı bürüyəcək) bir bəladan qorxun. Bilin ki, Allah şiddətli əzab verəndir". (Ənfal 8 surəsi, ayə 25).

- Şəri elmi öyrənmək, nəfsi günahlardan çəkindirir. Çünki bu günahlara görə tətbiq edilən cəzalardan xəbərdar olan kimsənin nəfsi, onlara düşməkdən çəkinər.

- Münkərdən çəkindirmək vəzifəsi, fasiqləri böyük günahlardan çəkindirmək və onları danlamaq yolu ilə yerinə yetirilir. Belə ki, Numan bin Bəşirdən, Allah ondan razı olsun, rəvayət olunur ki, peyğəmbər, Allahın salamı və salavatı onun üzərinə olsun, belə buyurmuşdur:

«مَثَلُ القَائِمِ عَلَى حُدُودِ اللَّهِ وَالوَاقِعِ فِيهَا، كَمَثَلِ قَوْمٍ اسْتَهَمُوا عَلَى سَفِينَةٍ، فَأَصَابَ بَعْضُهُمْ أَعْلَاهَا وَبَعْضُهُمْ أَسْفَلَهَا، فَكَانَ الَّذِينَ فِي أَسْفَلِهَا إِذَا اسْتَقَوْا مِنَ المَاءِ مَرُّوا عَلَى مَنْ فَوْقَهُمْ، فَقَالُوا: لَوْ أَنَّا خَرَقْنَا فِي نَصِيبِنَا خَرْقًا وَلَمْ نُؤْذِ مَنْ فَوْقَنَا، فَإِنْ يَتْرُكُوهُمْ وَمَا أَرَادُوا هَلَكُوا جَمِيعًا، وَإِنْ أَخَذُوا عَلَى أَيْدِيهِمْ نَجَوْا، وَنَجَوْا جَمِيعًا».

«Allahın qayda-qanunlarına riayət edən və onları tərk edən toplumun məsəli gəmidə püşk atıb, onların bir qisminə gəminin yuxarısı, digər bir qisminə isə aşağı hissəsi nəsib olan bir camaatın misalı kimidir. Aşağıda olanlar su əldə etmək üçün yuxarıdakıların yanına gedib dedilər: “Nə yaxşı olardı biz öz hissəmizdə bir deşik açardıq və bizdən üstəkilərə zərər verməzdik”. Əgər yuxarıdakılar onların istədiklərinə mane olmasalar, hamısı bütövlükdə həlak olarlar, yox əgər onlara mane olsalar, birlikdə xilas olarlar»[1].

Onun: «Allahın hüdudlarına riayət edən» sözü, yəni: Allah Təalanın əmrlərini yerinə yetirən, Onun qadağan etdiklərindən uzaq duran, yaxşı işlər görməyi əmr edən və pislikdən çəkindirən deməkdir. «Və onları tərk edən» sözü, yəni: yaxşılığı tərk edən, pisliyi isə edən. «Püşk atdılar» sözü, yəni: hər biri bir pay, yəni nəsib götürmək üçün püşk atdılar. «Onların əllərindən tutdular» sözü, yəni: gəmini deşmələrinə mane oldular.

- Ailədə verilən sağlam iman tərbiyəsi, eləcə də valideynlərin, xüsusilə yeniyetməlik dövründə övladlarına nəzarəti, imanla zənginləşmiş və gözəl əxlaqa sahib saleh bir gənc nəslin formalaşmasına zəmin yaradır.

- Günahların halal əvəzini tapmaq. Çünki uca Allah bir şeyi haram edibsə, mütləq halal etdiyi

[1] Hədisi Buxari: (2493) rəvayət etmişdir.

şeylərdə o harama ehtiyac qoymayacaq bir əvəz də qoymuşdur. Məsələn: zinanın çarəsi gənclərin erkən evlənməsidir. Oğurluq, insanlar üçün iş imkanları yaradılması ilə aradan qaldırılır. Qeybət və insanların namusuna dil uzatma isə boş vaxtın itaətlə və ya Allahın halal gördüyü mübah işlərlə doldurulması ilə müalicə olunur. Eləcə də hər bir günah və ya böyük günah bu şəkildə aradan qaldırılır.

- Gənclərin enerjisindən istifadə edərək onları ümmətə din və dünya işlərində faydalı olan şeylərə, məsələn: şəriət elmini öyrənməyə, İslam dəvətini yaymağa, tibb, mühəndislik, ticarət və bu kimi dünya işlərində faydalı olan nəzəri və tətbiqi elmləri, eləcə də dülgərlik, dəmircilik və digər faydalı sənət və peşələri öyrənməyə yönəltmək. Çünki nəfs, əgər itaətlə məşğul olmasa, mə'asıyətlə məşğul olar.

- Müsəlman davamlı olaraq imanına nəzər yetirməlidir. Çünki geyim köhnəldiyi kimi, iman da qəlbdə köhnəlir. Bu səbəbdən qəlbdə imanı artıran itaət əməllərini çoxaltmaqla onu yeniləmək lazımdır.

- Müsəlman onu günaha sövq edən hər şeydən uzaq durmalıdır. Xüsusilə də əxlaqsızlığı, ilhadı və Allahı qəzəbləndirən hər şeyi yayan sosial şəbəkələrin və saytların geniş yayıldığı bir zamanda müsəlman özünə şər qapılarından birini açmamalıdır. Çünki kim onu açsa, ora daxil olar.

Nəvvas bin Səmandan, radiyallahu anhu, rəvayət olunur ki, Allahın rəsulu, sallallahu əleyhi va səlləm, belə demişdir:

«ضَرَبَ اللَّهُ مَثَلًا صِرَاطًا مُسْتَقِيمًا، وَعَلَى جَنَبَتَيِ الصِّرَاطِ سُورَانِ، فِيهِمَا أَبْوَابٌ مُفَتَّحَةٌ، وَعَلَى الأَبْوَابِ سُتُورٌ مُرْخَاةٌ، وَعَلَى بَابِ الصِّرَاطِ دَاعٍ يَقُولُ: أَيُّهَا النَّاسُ، ادْخُلُوا الصِّرَاطَ جَمِيعًا، وَلَا تَتَعَرَّجُوا، وَدَاعٍ يَدْعُو مِنْ فَوْقِ الصِّرَاطِ، فَإِذَا أَرَادَ أَنْ يَفْتَحَ شَيْئًا مِنْ تِلْكَ الأَبْوَابِ، قَالَ: وَيْحَكَ لَا تَفْتَحْهُ، فَإِنَّكَ إِنْ تَفْتَحْهُ تَلِجْهُ (أَيْ: تَدْخُلْهُ)، وَالصِّرَاطُ: الإِسْلَامُ، وَالسُّورَانِ: حُدُودُ اللَّهِ، وَالأَبْوَابُ المُفَتَّحَةُ: مَحَارِمُ اللَّهِ، وَذَلِكَ الدَّاعِي عَلَى رَأْسِ الصِّرَاطِ: كِتَابُ اللَّهِ، وَالدَّاعِي مِنْ فَوْقِ الصِّرَاطِ: وَاعِظُ اللَّهِ فِي قَلْبِ كُلِّ مُسْلِمٍ».

"Allah doğru yola misal çəkir. Yolun iki tərəfində iki divar, divarlarda açılmış qapılar, qapıların üzərinə isə endirilmiş pərdələr vardır. Yolun qapısında bir bələdçi çağırış edir: Ey insanlar, hamınız doğru yola yönəlin, ondan dönməyin! Kimsə bu qapılardan birini açmaq istədikdə, yolun yuxarısından başqa bir bələdçi səslənir: Vay olsun sənə, qəti o qapını açma, çünki açsan ora girəcəksən. Yol İslamdır, divarlar Allahın hüdudlarıdır, açılmış qapılar Allahın haramlarıdır. Yolun başındakı o bələdçi Allahın kitabıdır, yolun yuxarısındakı bələdçi isə hər bir müsəlmanın qəlbindəki Allahın nəsihətçisidir"[1].

- Rəhbərlərin və müsəlmanların işlərinə məsul olan şəxslərin yaxşılığı əmr edib pislikdən çəkindirmək və onu aradan qaldırmaq, İslamın müəyyən etdiyi cəzaları tətbiq etmək və bu kimi

[1] Hədisi İmam Əhməd "Müsnəd" (17634) əsərində rəvayət etmişdir.

digər işlərlə dini qorumaq vəzifəsini yerinə yetirməsi. Belə ki, Məqil bin Yəsar, Allah ondan razı olsun, peyğəmbərdən, sallallahu aleyhi və səlləm, rəvayət edir ki:

«مَا مِنْ عَبْدٍ يَسْتَرْعِيهِ اللَّهُ رَعِيَّةً، يَمُوتُ يَوْمَ يَمُوتُ، وَهُوَ غَاشٌّ لِرَعِيَّتِهِ؛ إِلَّا حَرَّمَ اللَّهُ عَلَيْهِ الجَنَّةَ».

"Allah kimə rəhbərlik etməyi nəsib edərsə, rəhbərliyi altında olan insanları aldadaraq ölərsə, Allah Cənnəti ona haram edər"[1]. Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«مَنْ رَأَى مِنْكُمْ مُنْكَرًا فَلْيُغَيِّرْهُ بِيَدِهِ، فَإِنْ لَمْ يَسْتَطِعْ فَبِلِسَانِهِ، فَإِنْ لَمْ يَسْتَطِعْ فَبِقَلْبِهِ، وَذَلِكَ أَضْعَفُ الإِيمَانِ».

"Sizlərdən biriniz bir münkər gördükdə, onu əli ilə dəyişsin, əgər bacarmasa, dili ilə dəyişsin, əgər onu da bacarmasa, qəlbi ilə dəyişsin, bu isə imanın ən zəif dərəcəsidir"[2]. Bu mərtəbə qüvvət, səlahiyyət və ya vilayət sahiblərinə aiddir.

Sonda Allahdan qəlblərimizi və əzalarımızı Özünə itaətdə qorumasını, həmçinin bizi günahların aşkarından və gizlisindən, böyüyündən və kiçiyindən uzaq etməsini diləyirik.

## Allaha şərik qoşmaq.

Allaha şərik qoşmaq Uca Allaha qarşı edilən ən böyük günahdır və bu, Allaha imana və Onun tövhidinə ziddir. Uca Allah buyurur:

---

[1] Hədisi Buxari: (7150) və Müslim: (142) rəvayət etmişdir. Hədisin ləfzi Müslimə aiddir.

[2] Hədisi Müslim: (49) rəvayət etmişdir.

﴿...إِنَّ ٱلشِّرۡكَ لَظُلۡمٌ عَظِيمٞ 13﴾

"Həqiqətən, (Allaha) şərik qoşmaq böyük zülmdür!". [Loğman 31 surəsi, ayə 13]. Abdullah bin Məsud, Allah ondan razı olsun, belə demişdir:

سَأَلْتُ النَّبِيَّ ﷺ: أَيُّ الذَّنْبِ أَعْظَمُ عِندَ اللَّهِ؟ قَالَ: «أَنْ تَجْعَلَ لِلهِ نِدًّا وَ هُوَ خَلَقَكَ».

Mən peyğəmbərdən, sallallahu aleyhi və səlləm, soruşdum: "Allah qatında ən böyük günah hansıdır?". O dedi: "Allah səni xəlq etdiyi halda, Ona şərik qoşmağındır"[1]. "Nidd" yəni: şərik qoşmaq.

Şirkin həqiqəti: Uca Allaha rübubiyyətdə, ibadətdə, ad və sifətlərdə şərik və ya tay tutmaq və qulun, Allahın haqlarından hər hansı birini yaxud ibadətin hər hansı bir növünü Allahdan başqasına sərf etməsidir. Deməli, şəriət tərəfindən əmr olunduğu sabit olan hər hansı bir etiqadın, sözün və ya əməlin yalnız Allaha sərf edilməsi tövhid, iman və ixlas, Allahdan qeyrisinə sərf edilməsi isə şirk və küfrdür.

Beləliklə, şirkə daxildir: ölülərə dua etmək, onlardan ehtiyacları istəmək, onlara nəzir demək, onlardan yardım istəmək, həmçinin Allahdan qeyrisinə səcdə etmək, Allahdan başqasına qurban kəsmək və bu kimi şeylər.

[1] Hədisi Buxari: (4477) və Müslim: (86) rəvayət etmişdir.

## Şirkin haram olmasını, onun çirkinliyini və günahının böyüklüyünü bəyan edən bir çox dəlillər vardır:

Uca Allah buyurur:

﴿إِنَّ ٱللَّهَ لَا يَغۡفِرُ أَن يُشۡرَكَ بِهِۦ وَيَغۡفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَن يَشَآءُۚ وَمَن يُشۡرِكۡ بِٱللَّهِ فَقَدِ ٱفۡتَرَىٰٓ إِثۡمًا عَظِيمًا 48﴾

"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, (amma) bundan başqa olan günahları isə istədiyi şəxsə bağışlayar. Allaha şərik qoşan şəxs böyük bir günah edərək iftira atmış olur". [Nisa 4 surəsi, ayə 48]. Pak və Uca olan Allah buyurur:

﴿...إِنَّهُۥ مَن يُشۡرِكۡ بِٱللَّهِ فَقَدۡ حَرَّمَ ٱللَّهُ عَلَيۡهِ ٱلۡجَنَّةَ وَمَأۡوَىٰهُ ٱلنَّارُۖ وَمَا لِلظَّٰلِمِينَ مِنۡ أَنصَارٖ 72﴾

"Kim Allaha şərik qoşarsa, heç şübhəsiz, Allah Cənnəti ona haram edər. Onun gedəcəyi yer Cəhənnəmdir. Zalımların heç bir yardımçısı yoxdur". [Maidə 5 surəsi, ayə 72]. Uca Allah buyurur:

﴿وَلَقَدۡ أُوحِيَ إِلَيۡكَ وَإِلَى ٱلَّذِينَ مِن قَبۡلِكَ لَئِنۡ أَشۡرَكۡتَ لَيَحۡبَطَنَّ عَمَلُكَ وَلَتَكُونَنَّ مِنَ ٱلۡخَٰسِرِينَ 65 بَلِ ٱللَّهَ فَٱعۡبُدۡ وَكُن مِّنَ ٱلشَّٰكِرِينَ 66﴾

"Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər (Allaha) şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan.

Xeyir, sən yalnız Allaha ibadət et və şükür edənlərdən ol!". [Zümər 39 surəsi, ayələr 65-66].

Əbu Bəkratə, Allah ondan razı olsun, rəvayət edir ki, Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«أَلَا أُنَبِّئُكُمْ بِأَكْبَرِ الكَبَائِرِ؟» ثَلَاثًا، قَالُوا: بَلَى يَا رَسُولَ اللَّهِ، قَالَ: «الإِشْرَاكُ بِاللَّهِ، وَعُقُوقُ الوَالِدَيْنِ، وَقَتْلُ النَّفْسِ، وَشَهَادَةُ الزُّورِ».

"Sizə günahların ən böyüyü barədə xəbər verimmi?" – deyə bunu üç dəfə soruşdu. Səhabələr: "Bəli, ey Allahın rəsulu!" – deyə cavab verdilər. Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun: "Allaha şərik qoşmaq, valideynlərin üzünə ağ olmaq, adam öldürmək və yalandan şahidlik etmək" – dedi[1].

## Şirkin bir çox zərərləri vardır. Bunlardan bəziləri aşağıdakılardır:

- Allaha şərik qoşmaq, bütün əməlləri batil edir. Çünki Uca Allah buyurur:

﴿...وَلَوۡ أَشۡرَكُواْ لَحَبِطَ عَنۡهُم مَّا كَانُواْ يَعۡمَلُونَ 88﴾

"Əgər onlar (Allaha) şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər batil olardı". [Ənam 6 surəsi, ayə 88].

- Kim bu günahdan tövbə etmədən ölərsə, o, Cəhənnəmdə əbədi olaraq qalacaqdır. Cabir, Allah ondan razı olsun, belə demişdir:

أَتَى النَّبِيَّ ﷺ رَجُلٌ فَقَالَ: يَا رَسُولَ اللهِ، مَا المُوجِبَتَانِ؟ فَقَالَ: «مَنْ مَاتَ لَا يُشْرِكُ بِاللَّهِ شَيْئًا دَخَلَ الجَنَّةَ، وَمَنْ مَاتَ يُشْرِكُ بِاللَّهِ شَيْئًا دَخَلَ النَّارَ».

[1] Hədisi Buxari: (4477) və Müslim: (86) rəvayət etmişdir.

Peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, yanına bir kişi gəlib belə dedi: "Ey Allahın rəsulu, (insanı cənnətə və cəhənnəmə salan) iki vacib edən səbəb nədir?". Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, dedi: «Kim Allaha şərik qoşmadan ölərsə Cənnətə daxil olar, kim Allaha şərik qoşaraq ölərsə Cəhənnəmə daxil olar»[1].

- Müşrikin qanı və malı toxunulmaz deyildir. İbn Ömər, Allah onların hər ikisindən razı olsun, peyğəmbərin, sallallahu aleyhi və səlləm, belə dediyini rəvayət etmişdir:

«أُمِرْتُ أَنْ أُقَاتِلَ النَّاسَ حَتَّى يَشْهَدُوا أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ، وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، وَيُقِيمُوا الصَّلَاةَ، وَيُؤْتُوا الزَّكَاةَ، فَإِذَا فَعَلُوا ذَلِكَ عَصَمُوا مِنِّي دِمَاءَهُمْ وَأَمْوَالَهُمْ إِلَّا بِحَقِّ الإِسْلَامِ، وَحِسَابُهُمْ عَلَى اللَّهِ».

"İnsanlar Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığına və Muhammədin Allahın rəsulu olduğuna şahidlik edənə, namaz qılana və zəkat verənə qədər onlarla vuruşmaq mənə əmr olundu. Əgər bunları edərlərsə, İslamın haqqı (cinayətə görə veriləcək cəza) istisna olmaqla, qanlarını və mallarını məndən qorumuş olarlar, hesabları isə Allaha aiddir[2].

- Müşrik, dünyada qarşılaşdığı müsibətlər zamanı Allahdan heç bir kömək və yardım görməz. Şeytanlar hər tərəfdən ona hakim kəsilər və o,

[1] Hədisi Müslim: (93) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (25) və Müslim: (22) rəvayət etmişdir.

daimi narahatlıq, iztirab, qorxu və qaçılmaz kədər içində yaşayar. Uca Allah buyurmuşdur:

﴿...وَمَن يُشْرِكْ بِٱللَّهِ فَكَأَنَّمَا خَرَّ مِنَ ٱلسَّمَآءِ فَتَخْطَفُهُ ٱلطَّيْرُ أَوْ تَهْوِي بِهِ ٱلرِّيحُ فِي مَكَانٍ سَحِيقٍ﴾

"Allaha şərik qoşan kimsə, göydən düşüb, quşların da onu alıb apardığı yaxud küləyin onu sovurub uzaq bir yerə atdığı şeyə bənzər". [Həcc 22 surəsi, ayə 31].

Səadi, Allah ona rəhmət etsin, bu ayənin təfsirində belə demişdir: "...Müşrikin vəziyyəti də belədir: İman qorunan və uca olan göy kimidir. İmanı tərk edən kimsə isə göydən düşənə bənzər ki, o, hər cür afət və bəlaya məruz qalar. Onu quşlar qamarlayıb tikə-tikə edər. Eynilə, müşrik də imana sığınmağı tərk etdikdə, şeytanlar onu hər tərəfdən qamarlayar, onu parçalayar, dinini də, dünyasını da əlindən alarlar"[1].

- Müşrik öldükdə qüsl edilməz, kəfənlənməz, ona cənazə namazı qılınmaz və müsəlman məzarlıqlarında dəfn edilməz.

## Şirkdən qorunmağın yolları:

Aşağıdakı amillərilə müsəlman özünü şirkə düşməkdən qoruyur:

- Tövhid və səhih əqidəni öyrənmək və öyrəndiklərinə müvafiq əməl etmək. Uca Allah belə buyurmuşdur:

---

[1] Təfsir əs-Səadi (səh: 538).

﴿فَٱعۡلَمۡ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّا ٱللَّهُ...﴾

"(Ey Peyğəmbər!) Bil ki, Allahdan başqa (ibadətə layiq olan heç bir) ilah yoxdur..." (Muhamməd 47 surəsi, ayə 19). İmam ibn əl-Qayyim, Allah ona rəhmət etsin, demişdir: "Uca Allah buyurur: "...Bil ki, Allahdan başqa haqq məbud yoxdur...". Uca Allahın vəhdaniyyətini və Ondan başqa haqq İlah olmadığını bilmək özlüyündə tələb olunan bir əməldir. Lakin təkcə bunu bilmək kifayət deyil, bununla yanaşı Ona heç bir şərik qoşmadan yalnız tək Ona ibadət etmək də vacibdir. Beləliklə, bu iki əmrin hər biri özlüyündə tələb olunur: Uca Rəbbi adları, sifətləri, felləri və hökmləri ilə tanımaq və bunların tələblərinə uyğun olaraq Ona ibadət etmək. Necə ki, Ona ibadət etmək özlüyündə tələb olunan bir əməldirsə, eləcə də Onu tanımaq və Onun haqqında elmə sahib olmaq da həmçinin tələb olunur. Eynilə elm, ibadətlərin ən fəzilətli növlərindən biridir[1].

- Kiçik şirkdən çəkinmək. Məsələn: az miqdarda riyakarlıq etmək, Allahdan başqasına and içmək və kişinin: “Allah və sən istəsən”, “Bu, Allahdan və səndəndir”, “Mən Allaha və sənə arxalanıram”, “Allaha və sənə təvəkkül etdim” və bu s. kimi sözlər deməsi. Çünki kiçik şirk böyük şirkə aparan bir vasitədir.

[1] "Miftəh Dər əl-Səadəh": (1/178).

- Şirkə düşməmək və ondan çəkinmək üçün insanlar arasında yayılmış şirkin surətlərini və növlərini bilmək.

- İzzət və Cəlal sahibi olan Allaha dua edib Ondan tövhid üzərində sabit etməsini və şirkdən uzaqlaşdırmasını istəmək. Uca Allah İbrahim, aleyhi-ssəlam, haqqında xəbər verərək belə buyurur:

﴿وَإِذۡ قَالَ إِبۡرَٰهِيمُ رَبِّ ٱجۡعَلۡ هَٰذَا ٱلۡبَلَدَ ءَامِنٗا وَٱجۡنُبۡنِي وَبَنِيَّ أَن نَّعۡبُدَ ٱلۡأَصۡنَامَ 35﴾

"Bir zaman İbrahim demişdi: “Ey Rəbbim! Bu diyarı (Məkkəni) əmin-amanlıq (yurdu) et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaq et!". (İbrahim 14 surəsi, ayə 35). Allahın elçisi, Allahın salavatı və salamı onun üzərinə olsun, tez-tez belə buyurardı: «يَا مُقَلِّبَ الْقُلُوبِ ثَبِّتْ قَلْبِي عَلَى دِينِكَ».

- «يَا مُقَلِّبَ الْقُلُوبِ ثَبِّتْ قَلْبِي عَلَى دِينِكَ»

[Yə muqallibə-l-qulub, sabbit qalbi alə diynikə]: "Ey qəlbləri çevirən! Qəlbimi dinində sabit et!"[1].

## Allah və Onun rəsulu adından yalan danışmaq.

Yalan ümumiyyətlə böyük günahlardandır. Yalanın ən iyrənc və ən çirkin növü isə Uca Allah və Onun rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, adından yalan danışmaqdır. Səadi belə demişdir: "Uca Allahın ondan uzaq olduğu bir sözü və ya hökmü Ona nisbət etməklə Allaha qarşı

[1] Hədisi Tirmizi: (2140) rəvayət etmişdir.

yalan uyduran kimsədən daha zalım və daha böyük günah sahibi heç kəs yoxdur. Belə bir şəxs məxluqatın ən zalımıdır. Çünki onun bu əməlində yalan, dinlərin əsaslarını və şaxələrini dəyişdirmək vardır və bunu Allaha nisbət etmək ən böyük fəsadlardan biridir[1].

Yalanın növlərindən biri də Allahın kəlamını Onun murad etdiyindən fərqli şəkildə izah etməkdir. Çünki kəlamdan məqsəd onun mənasıdır. Belə ki, əgər bir kimsə: “Allah bununla filan şeyi murad etmişdir” deyərsə, o, Allah adından yalan danışmış, İzzət və Cəlal sahibi olan Allahın murad etmədiyi bir şeyə Onun adından şahidlik etmişdir. Rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, kəlamını onun murad etdiyindən fərqli şəkildə izah etmək də eynilə bu cürdür.

## Allah və Onun rəsulunun adından yalan danışmağın haram olduğunu, bu əməlin çirkinliyini və günahının böyüklüyünü bəyan edən dəlillər çoxdur. Onlardan bəziləri aşağıdakılardır:

Uca Allah buyurur:

﴿قَالُواْ ٱتَّخَذَ ٱللَّهُ وَلَدٗاۗ سُبۡحَٰنَهُۥۖ هُوَ ٱلۡغَنِيُّۖ لَهُۥ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَمَا فِي ٱلۡأَرۡضِۚ إِنۡ
عِندَكُم مِّن سُلۡطَٰنِۭ بِهَٰذَآۚ أَتَقُولُونَ عَلَى ٱللَّهِ مَا لَا تَعۡلَمُونَ 68 قُلۡ إِنَّ ٱلَّذِينَ يَفۡتَرُونَ
عَلَى ٱللَّهِ ٱلۡكَذِبَ لَا يُفۡلِحُونَ 69 مَتَٰعٞ فِي ٱلدُّنۡيَا ثُمَّ إِلَيۡنَا مَرۡجِعُهُمۡ ثُمَّ نُذِيقُهُمُ ٱلۡعَذَابَ
ٱلشَّدِيدَ بِمَا كَانُواْ يَكۡفُرُونَ70﴾

---

[1] «Təfsir əs-Səadi» (səh: 265).

"Onlar: “Allah (Özünə) övlad götürmüşdü!”– dedilər. O, pakdır, müqəddəsdir! O, (heç nəyə) möhtac deyildir. Göylərdə və yerdə nə varsa, hamısı Ona məxsusdur. Buna aid sizdə bir dəlil varmı? Yoxsa Allah barədə bilmədiyiniz şeyimi söyləyirsiniz?

De: “Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar”.

"(Onlar bir müddət) dünyada faydalanar, sonra onların dönüşü Bizə olar. Sonra da küfr etdiklərinə görə onlara şiddətli əzab daddırarıq". (Yunus 10 surəsi, ayələr 68-70).

Kim Allaha qarşı yalan danışıb, Onun zövcəsinin, övladının və ya şərikinin olduğunu iddia edərsə, o, Uca Allaha küfür etmişdir.

Uca Allah buyurur:

﴿وَيَوۡمَ ٱلۡقِيَٰمَةِ تَرَى ٱلَّذِينَ كَذَبُواْ عَلَى ٱللَّهِ وُجُوهُهُم مُّسۡوَدَّةٌۚ أَلَيۡسَ فِي جَهَنَّمَ مَثۡوٗى لِّلۡمُتَكَبِّرِينَ60﴾

"Sən Qiyamət günü Allaha qarşı yalan uyduranların üzlərini qapqara görəcəksən. Məgər təkəbbürlülər üçün Cəhənnəmdə yer yoxdur?!". [Zümər 39 surəsi, ayə 60].

Əs-Səm'ani, Allah ona rəhmət etsin, demişdir: “Allaha qarşı yalan danışdılar" - ifadəsinin mənası, onların Allahın övlad və ya şərik sahibi olduğunu iddia etmələridir. Həmçinin deyilir ki, bu ifadə Allaha qarşı deyilən bütün yalanlara aiddir"[1].

---

1 Təfsir əs-Səmani: (4/478).

Uca Allah buyurur:

﴿وَمَنۡ أَظۡلَمُ مِمَّنِ ٱفۡتَرَىٰ عَلَى ٱللَّهِ كَذِبًاۚ أُوْلَٰٓئِكَ يُعۡرَضُونَ عَلَىٰ رَبِّهِمۡ وَيَقُولُ ٱلۡأَشۡهَٰدُ هَٰٓؤُلَآءِ ٱلَّذِينَ كَذَبُواْ عَلَىٰ رَبِّهِمۡۚ أَلَا لَعۡنَةُ ٱللَّهِ عَلَى ٱلظَّٰلِمِينَ18﴾

"Allaha qarşı yalan uyduran kəsdən daha zalım kim ola bilər? Onlar Rəbbinin hüzuruna gətiriləcək və şahidlər (mələklər və peyğəmbərlər): "Bunlar Rəbbinə iftira yaxanlardır"– deyəcəklər. Bilin ki, Allahın lənəti zalımların üzərindədir!". (Hud 11 surəsi, ayə 18).

Uca Allah buyurur:

﴿وَلَا تَقُولُواْ لِمَا تَصِفُ أَلۡسِنَتُكُمُ ٱلۡكَذِبَ هَٰذَا حَلَٰلٞ وَهَٰذَا حَرَامٞ لِّتَفۡتَرُواْ عَلَى ٱللَّهِ ٱلۡكَذِبَۚ إِنَّ ٱلَّذِينَ يَفۡتَرُونَ عَلَى ٱللَّهِ ٱلۡكَذِبَ لَا يُفۡلِحُونَ 116 مَتَٰعٞ قَلِيلٞ وَلَهُمۡ عَذَابٌ أَلِيمٞ117﴾

"Dilinizin yalana alışdığından dolayı, Allaha qarşı yalan uydurmaq üçün: "Bu halaldır, o haramdır!"– deməyin. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar.

"(Dünyada onlar üçün) az bir mənfəət (vardır, axirətdə isə) onları ağrılı-acılı bir əzab gözləyir". (Nəhl 16 surəsi, ayələr 116-117).

İbn Həcər əl-Heytəmi, Allah ona rəhmət etsin, demişdir: "Şübhəsiz ki, haramı halal yaxud halalı haram etmək üçün Uca Allah və Onun rəsulu adından qəsdən yalan danışmaq xalis küfrdür"[1].

Rəvayət edilir ki, Muğiyra bin Şubə - Allah ondan razı olsun - belə demişdir: "Mən peyğəmbərin - salləllahu aleyhi va səlləm - belə dediyini eşitdim:

---

[1] əz-Zəvacir an iqtiraf əl-kəbair: (1/162).

«إِنَّ كَذِبًا عَلَيَّ لَيْسَ كَكَذِبٍ عَلَى أَحَدٍ، مَنْ كَذَبَ عَلَيَّ مُتَعَمِّدًا، فَلْيَتَبَوَّأْ مَقْعَدَهُ مِنَ النَّارِ».

«Həqiqətən, mənim adımdan yalan danışmaq, başqasının adından yalan danışmaq kimi deyil. Kim mənim adımdan qəsdən yalan danışarsa, Cəhənnəmdə öz yerini hazırladığını bilsin»[1].

İmam Nəvavi belə demişdir: "Bu, peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, adından yalan danışmağın haramlığının əzəmətini, bunun böyük bir çirkin əməl və böyük bir həlak edici günah olduğunu göstərir. Lakin bu yalanı halal saymadıqca insan kafir olmaz. Bu, alimlərin məzhəbləri arasında məşhur olan rəydir"[2].

İbn əl-Qayyim demişdir: "Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, adından yalan danışmaq Cəhənnəmə daxil olmağı və orada özünə, heç vaxt tərk etməyəcəyi daimi bir məskən hazırlamağı gərəkdirir"[3].

## Uca Allah və Onun rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, adından yalan danışmağın bir çox zərərləri vardır:

- Allaha qarşı yalan danışmaq müşriklərin yoludur. Uca Allah buyurur:

---

1 Hədisi Buxari: (1291) və Müslim: (933) rəvayət etmişdir.
2 Şərhu Müslim: (1/69).
3 Mədaric əs-Salikin: (1/379).

﴿وَلَا تَقُولُواْ لِمَا تَصِفُ أَلۡسِنَتُكُمُ ٱلۡكَذِبَ هَٰذَا حَلَٰلٞ وَهَٰذَا حَرَامٞ لِّتَفۡتَرُواْ عَلَى ٱللَّهِ ٱلۡكَذِبَۚ إِنَّ ٱلَّذِينَ يَفۡتَرُونَ عَلَى ٱللَّهِ ٱلۡكَذِبَ لَا يُفۡلِحُونَ 116 مَتَٰعٞ قَلِيلٞ وَلَهُمۡ عَذَابٌ أَلِيمٞ 117﴾

"Dilinizin yalana alışdığından dolayı, Allaha qarşı yalan uydurmaq üçün: “Bu halaldır, o haramdır!”– deməyin. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar.

"(Dünyada onlar üçün) az bir mənfəət (vardır, axirətdə isə) onları ağrılı-acılı bir əzab gözləyir". (Nəhl 16 surəsi, ayələr 116-117).

İbn Kəsir demişdir: "Uca Allah, sırf öz rəylərinə əsasən qoyduqları və istifadə etdikləri adlara görə: "bəhirə, saibə, vəsilə, ham" və sair cahiliyyə dövründə ixtira edərək özlərinə qanun etdikləri digər şeyləri, halal və haram edən müşriklərin yoluna tabe olmağı qadağan etmişdir"[1].

- Allahın və rəsulunun adından yalan danışmaq, Allahın halal buyurduğunu haram, haram buyurduğunu isə halal etməklə İlahi şəriətin dəyişdirilməsinin səbəbidir.

- Bidətlərə və sonradan ortaya çıxan işlərə gətirib çıxarır. İbn Kəsir demişdir: "Bu hökmə – yəni Uca Allahın: "Dillərinizin yalana vərdiş etməsi ilə “bu halaldır, o haramdır” deməyin" ayəsinə – şəriətdə heç bir dəlili olmayan bir bidət uyduran yaxud sadəcə öz rəyinə və nəfsinin istəyinə əsaslanaraq Allahın haram etdiyi bir şeyi halal edən

[1] Təfsir İbn Kəsir (4/609).

və ya Allahın mübah etdiyi bir şeyi haram sayan hər kəs daxildir"[1].

## Allahın və Onun Rəsulunun adından yalan danışmaq günahına düşməkdən qorunma yolları:

- Elm, söz və əməldən qabaqdır.

- Peyğəmbərin, sallallahu aleyhi və səlləm, sünnəsinə sarılmaq və bidətlərdən çəkinmək. İrbad bin Səriyə - Allah ondan razı olsun - rəvayət edir ki, Allah rəsulu, sallallahu aleyhi və səlləm, belə demişdir:

«عَلَيْكُمْ بِسُنَّتِي وَسُنَّةِ الْخُلَفَاءِ المَهْدِيِّينَ الرَّاشِدِينَ، تَمَسَّكُوا بِهَا وَعَضُّوا عَلَيْهَا بِالنَّوَاجِذِ (أَيْ: الأَضْرَاسِ)، وَإِيَّاكُمْ وَمُحْدَثَاتِ الأُمُورِ، فَإِنَّ كُلَّ مُحْدَثَةٍ بِدْعَةٌ، وَكُلَّ بِدْعَةٍ ضَلَالَةٌ».

«Sizə mənim sünnəmi və doğru yolda olan raşidi xəlifələrin sünnəsini tövsiyə edirəm. Ona möhkəm sarılın və ondan azı dişlərinizlə yapışın. Dinə əlavə edilmiş yeniliklərdən çəkinin. Çünki hər bir yenilik bidətdir və hər bir bidət isə zəlalətdir»[2].

- Sadiq olmağa çalışmaq. Abdullah bin Məsud - Allah ondan razı olsun - rəvayət edir ki, Allah rəsulu - salləllahu aleyhi va səlləm - belə buyurmuşdur:

«عَلَيْكُمْ بِالصِّدْقِ، فَإِنَّ الصِّدْقَ يَهْدِي إِلَى البِرِّ، وَإِنَّ البِرَّ يَهْدِي إِلَى الجَنَّةِ، وَمَا يَزَالُ الرَّجُلُ يَصْدُقُ وَيَتَحَرَّى الصِّدْقَ حَتَّى يُكْتَبَ عِنْدَ اللَّهِ صِدِّيقًا، وَإِيَّاكُمْ وَالكَذِبَ،

---

[1] Təfsir İbn Kəsir (4/609).
[2] Hədisi Əbu Davud: (4607) rəvayət etmişdir.

فَإِنَّ الكَذِبَ يَهْدِي إِلَى الفُجُورِ، وَإِنَّ الفُجُورَ يَهْدِي إِلَى النَّارِ، وَمَا يَزَالُ الرَّجُلُ يَكْذِبُ وَيَتَحَرَّى الكَذِبَ حَتَّى يُكْتَبَ عِنْدَ اللَّهِ كَذَّابًا».

«Doğruluqdan ayrılmayın. Çünki doğruluq yaxşı işlərə yönəldir, yaxşı işlər isə Cənnətə aparır. İnsan o qədər doğru danışar və doğruluğa can atar ki, nəhayət, Allah yanında doğruçu kimi yazılar. Yalandan çəkinin. Çünki yalan günah işlərə yönəldir, günah işlər isə Cəhənnəmə aparır. İnsan o qədər yalan danışar və yalana can atar ki, nəhayət, Allah yanında yalançı kimi yazılar»[1].

Allaha və Onun elçisinə qarşı yalan danışmağın dünya və axirətdəki aqibətinə baxmaq.

— Allah və Onun rəsulu, sallallahu aleyhi və səlləm, barəsində deyilən yalanları müdafiə edib dəf edən alimlərin mövcud olması.

## Bidət.

Dinə yenilik gətirmək böyük günahlardandır. Uca Allaha şirkdən sonra asi olunan günahlar içində İblisə bidətdən daha sevimlisi yoxdur. İbn Qeyyim, Allah ona rəhmət etsin, demişdir: "Şeytan bəndəyə, biri digərindən daha çətin olan yeddi maneədən birində qalib gəlmək istəyir. O, çətin maneədə bəndəyə qalib gəlməkdən aciz qalmadıqca, ondan daha asanına keçməz: Birinci maneə: Allaha, Onun dininə, Onunla qarşılaşmağa, kamillik sifətlərinə və elçilərinin Onun barədə xəbər verdiklərinə küfr etməkdir. Çünki o, bu maneədə ona qalib gəlsə,

[1] Hədisi Buxari: (6094) və Müslim: (2607) rəvayət etmişdir.

düşmənçilik atəşi soyuyar və rahatlayar. Yox, əgər insan hidayət bəsirəti ilə bu maneəni keçib ondan xilas olsa və iman nuru onda salamat qalsa, onu ikinci maneədə yaxalamağa çalışar: Bu, bidət maneəsidir. Ya Allahın Öz peyğəmbərini göndərdiyi və Kitabını nazil etdiyi haqqa zidd olan bir şeyə etiqad etmək. Ya da Allahın icazə vermədiyi və onlardan heç birini qəbul etmədiyi, dində sonradan uydurulmuş qayda və adətlərlə ibadət etməkdir".[1]

Bidətin həqiqəti: Uca Allaha ibadətdə ifrata varmaq məqsədilə dində uydurulmuş və şəriətə bənzəyən bir yoldur[2].

Qadağan olunan bidət dini məsələlərdə olan bidətdir. Amma insanların ixtira etdiyi avtomobillər, təyyarələr, kompyuterlər, telefon və s. bu kimi digər dünyəvi işlər, lüğəvi mənada bidət adlandırılsa belə, bidət sayılmaz.

Peyğəmbər, sallallahu əleyhi va səlləm, bizi, gecəsi gündüzü kimi olan, açıq-aydın bir yol üzərində tərk edib getdi. Bu yoldan yalnız həlak olan kimsə azar. O, bizi bütün xeyirlərə təşviq etmiş və bütün şərlərdən çəkindirmişdir. Beləliklə, peyğəmbər, sallallahu əleyhi va səlləm, heç kimə deyəcək bir söz yeri qoymamışdır. Buna görə də, kim Uca Allahın dininə, Allahın izin vermədiyi və rəsulunun şəriət buyurmadığı bir yenilik gətirərsə,

---

1 Mədaric əs-Salikin: (1/237).
2 Əş-Şatibinin "əl-İ'tisam" əsəri (1/50).

bu əməldə heç bir xeyir yoxdur. Əksinə, o, rədd edilərək sahibinə qaytarılar. Peyğəmbərin, səllallahu əleyhi va səlləm, onun Raşidi xəlifələrinin və Allahın onlardan razı qaldığı səhabələrinin üzərində olmadığı hər hansı bir əməllə Uca Allaha ibadət etmək səhih deyildir. Onlar özləri üçün nəyə razı qalıblarsa, biz də özümüz üçün ona razı qalmalıyıq. Çünki onlar elmə əsaslanaraq dayandılar və dərin bəsirətlə çəkindilər.

**Bil ki, dindəki hər bir bidət haram və zəlalətdir. Zəlalət isə və onun əhli Cəhənnəmdədir. Onun haram olmasına dair dəlillər çoxdur və onlardan bəzilərini qeyd edirik:**

Uca Allah Öz Kitabından və peyğəmbərinin sünnəsindən başqasına tabe olmaqdan çəkindirərək belə buyurur:

﴿ٱتَّبِعُواْ مَآ أُنزِلَ إِلَيۡكُم مِّن رَّبِّكُمۡ وَلَا تَتَّبِعُواْ مِن دُونِهِۦٓ أَوۡلِيَآءَۗ قَلِيلٗا مَّا تَذَكَّرُونَ 3﴾

"Rəbbinizdən sizə nazil edilənə (Qurana) tabe olun. Allahı qoyub başqa dostların ardınca getməyin. Siz necə də az öyüd-nəsihət dinləyirsiniz". (Əraf 7 surəsi, ayə 3).

Pak və Uca olan Allah buyurur:

﴿أَمۡ لَهُمۡ شُرَكَٰٓؤُاْ شَرَعُواْ لَهُم مِّنَ ٱلدِّينِ مَا لَمۡ يَأۡذَنۢ بِهِ ٱللَّهُ...﴾

"Yoxsa onların Allahın dində izin vermədiyi şeyləri onlar üçün qanuni edən şəriklərimi vardır?!". [Şura 42 surəsi, ayə 21].

Aişə, Allah ondan razı olsun, Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurduğunu rəvayət edir:

«مَنْ أَحْدَثَ فِي أَمْرِنَا هَذَا مَا لَيْسَ مِنْهُ فَهُوَ رَدٌّ».

«Kim bizim bu işimizdə (dinimizdə) onda olmayan bir yenilik edərsə o, rədd olunar»[1].

- Cabir bin Abdullah, Allah onların hər ikisindən razı olsun, rəvayət edir ki, Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurardı:

«أَمَّا بَعْدُ فَإِنَّ خَيْرَ الحَدِيثِ كِتَابُ اللهِ، وَخَيْرُ الهُدَى هُدَى مُحَمَّدٍ، وَشَرُّ الأُمُورِ مُحْدَثَاتُهَا وَكُلُّ بِدْعَةٍ ضَلَالَةٌ».

"Daha sonra: Şübhəsiz ki, sözlərin ən xeyirlisi Allahın Kitabıdır, yolların ən xeyirlisi isə Muhammədin (sallallahu əleyhi va səlləm) yoludur. Əməllərin ən şərlisi isə dinə sonradan daxil edilən yeniliklərdir (bidətlərdir), hər bir bidətdə zəlalətdir"[2].

Huzeyfə bin əl-Yəmən, Allah onlardan razı olsun, belə demişdir: "Rəsulu-Llahın, sallallahu aleyhi va səlləm, səhabələrinin etmədiyi heç bir ibadəti etməyin. Həqiqətən, əvvəlkilər sonrakılar üçün deyiləcək bir söz qoymamışlar. Allahdan qorxun, ey qarilər camaatı və sizdən əvvəlkilərin yolunu tutun"[3].

---

[1] Hədisi Buxari: (2697) və Müslim: (1718) rəvayət etmişdir.
[2] Hədisi Müslim: (867) rəvayət etmişdir.
[3] Əl-Ba'is 'alə inkaril-bidə' vəl-həvadis, (səh: 16).

Süfyan əs-Səuridən - rahiməhullah - belə dediyi rəvayət edilir: "Bidət İblis üçün asilikdən daha sevimlidir. Çünki asilikdən tövbə edilir, bidətdən isə tövbə edilmir"[1].

## Bidətin bir neçə təhlükəsi və zərəri vardır. Onlardan bəziləri bunlardır:

- Dünyanın yaranışından bu günə qədər olan təcrübə və biliklərdən məlum olmuşdur ki, ağıl öz mənfəətini müstəqil şəkildə dərk edə bilməz. Buna görə də Rəbbinin yaratdığı insanın tabe olacağı bir şəriətin olması zəruridir. Rəbbi onun mənfəətini və zərərini daha yaxşı bilir. Əgər insan Rəbbinin iradəsinə uyğun hərəkət etməzsə, öz nəfsinə zərər yetirmiş və onu həlaka məruz qoymuş olar.

- Bidətçi nəfsinin istəyinə tabe olandır. Çünki ağıl şəriətə tabe olmadıqda, ona hava (nəfsi istək) və şəhvətdən başqa bir şey qalmır. Uca Allah qulu Davuda, aleyhi-ssalam, belə buyurur:

﴿...وَلَا تَتَّبِعِ الْهَوَى فَيُضِلَّكَ عَنْ سَبِيلِ اللَّهِ إِنَّ الَّذِينَ يَضِلُّونَ عَنْ سَبِيلِ اللَّهِ لَهُمْ عَذَابٌ شَدِيدٌ بِمَا نَسُوا يَوْمَ الْحِسَابِ﴾

"Nəfsin istəyinə uyma, yoxsa o səni Allahın yolundan azdırar. Həqiqətən, Allahın yolundan azanları hesab gününü unutduqları üçün şiddətli bir əzab gözləyir". [Sad 38 surəsi, ayə 26].

---

[1] Bu rəvayəti, əl-Ləlakai "Şərh Usul əl-İtiqad" (səh. 238) kitabında rəvayət etmişdir.

- Şəriət kamil bir şəkildə gəlmişdir. Nə bir ziyadə, nə də bir nöqsan qəbul etməz. Uca Allah buyurur:

﴿...ٱلۡيَوۡمَ أَكۡمَلۡتُ لَكُمۡ دِينَكُمۡ وَأَتۡمَمۡتُ عَلَيۡكُمۡ نِعۡمَتِي وَرَضِيتُ لَكُمُ ٱلۡإِسۡلَٰمَ دِينٗا...﴾

"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyəndim". [Maidə 5 surəsi, ayə 3]. Kim dinə yenilik gətirərsə, artıq o, şəriətin naqis olduğunu və peyğəmbərin, sallallahu aleyhi va səlləm, vəhydən bir şeyi gizlətdiyini iddia etmişdir.

- Bidətçi şəriətə qarşı inadkarlıq edir və ona müxalif çıxır. Çünki şəriətin Sahibi ibadət üçün xüsusi yollar və üsullar müəyyən etmiş, məxluqları əmr və qadağalarla, mükafat və cəza xəbərdarlıqları ilə məhdudlaşdırmışdır. Həmçinin, O, xeyrin bu yollarda, şərin isə bu hədləri aşmaqda olduğunu xəbər vermişdir və s. Çünki Allah bilir, biz isə bilmirik və O, peyğəmbəri, sallallahu əleyhi va səlləm, aləmlərə ancaq bir rəhmət olaraq göndərmişdir. Bidətçi bütün bunları rədd edir. Çünki o, başqa yolların da olduğunu, şəriətin məhdudlaşdırdığı şeyin məhdud olmadığını və təyin etdiyi şeyin də mütləq (müəyyən; vacib) olmadığını iddia edir. Sanki, şəriət Sahibi bilir, biz də bilirik. Hətta onun Şəriət qoyana - bu yolları çıxartmaqla, düzəliş etməsindən belə başa düşülə bilər ki, o, sanki şəriət Qoyanın bilmədiyini bilmişdir. Əgər bidətçinin məqsədi budursa, bu,

şəriətə və şəriət qoyana qarşı küfrdür. Yox əgər bu qəsd edilməyibsə, bu, açıq-aşkar bir zəlalətdir.

## Qorunma:

Bu böyük günaha düşməkdən qorunmağın yollarından bəziləri:

- Kitab və sünnədən yapışmaq, bununla yanaşı onu mümkün olan ən geniş şəkildə insanlar arasında yaymaq və onlara çatdırmaq. Uca Allah buyurur:

﴿وَٱعۡتَصِمُواْ بِحَبۡلِ ٱللَّهِ جَمِيعٗا وَلَا تَفَرَّقُواْ...﴾

"Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın...". [Əli İmran 3 surəsi, ayə 103]. Allahın ipi: İslam, Quran və Sünnədir.

- İctihad, istihsan və qiyasın yeri olmadığı əqidə məsələlərində yalnız Quran və Sünnəyə əsaslanmaq və mütəşabih məsələlərə girməyi tərk etmək. Çünki bu məsələlərə girmək azğınlıq və bidət əhlinin əlaməti və müsəlmanların başına gələn hər bir bəla və müsibətin səbəbidir.

- Sünnəni fərdin və cəmiyyətin davranışında tətbiq etmək. Yəni: insanın sünnədən öyrəndiklərini həyatın bütün sahələrində öz davranışına tətbiq etməsidir. Sünnənin tətbiqi, bidəti cəmiyyətdə pislənilən bir əməl halına gətirir, onun çirkin cizgiləri və pis görünüşü üzə çıxır və öz-özlüyündə daşıdığı çirkinliyi, İslam və müsəlmanlara olan təhdidi göstərir.

- Yaxşılığı əmr edib pislikdən çəkindirmək. Belə ki, bidətlər başlanğıcda kiçik olur, sonra isə böyüyür. Onu bir fərd icad edir və tez bir zamanda hava əhli onun ətrafına toplaşır. Əgər yaxşılığı əmr edənlər və pislikdən çəkindirənlər cəmiyyətdə öz vəzifələrini yerinə yetirsələr, bidətləri öldürər və sünnələri dirçəldərlər.

- Dinə yönələn açıq və ya gizli həmlələrə rədd etmək, bidət təzahürlərini ifşa etmək, onların nüfuz edib yayılmasının qarşısını almaq üçün Quran və Sünnə ilə onlara işıq salmaq və təsiri nə qədər az, əmri nə qədər kiçik olsa da, Sünnənin hüdudlarından kənara çıxmaqdan çəkinmək.

Avamın din haqqında elmsiz danışmasının qadağan edilməsi və mənsəbləri nə olursa olsun, şəriətə müxalif olan rəylərinə etibar edilməməsi.

## Riyakarlıq.

Riyakarlıq, əməli puç edən böyük günahlardandır. Çünki o, şəriətin çəkindirdiyi şirk növlərindən biridir. Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«إِنَّ أَخْوَفَ مَا أَخَافُ عَلَيْكُمُ الشِّرْكُ الْأَصْغَرُ» قَالُوا: وَمَا الشِّرْكُ الأَصْغَرُ يَا رَسُولَ اللهِ؟ قَالَ: «الرِّيَاءُ...».

"Sizin üçün ən çox qorxduğum kiçik şirkdir". İnsanlar dedilər: "Kiçik şirk nədir, ey Allahın rəsulu?". O isə, belə buyurdu: “Riyadır”[1].

[1] Hədisi İmam Əhməd "Müsnəd" (23630) əsərində rəvayət etmişdir.

Riyanın həqiqəti, qulun etdiyi əməllə təkcə Allahın Vəchini (razılığını) istəməməsidir. İstər əməlini yalnız insanlar üçün etsin, istərsə də Allah üçün etməklə yanaşı, insanların da görməsini istəsin, hər ikisi də riyadır.

Riya bəzən imanın əsasında ola bilər və bu, küfr və nifaqdır. Bəzən də imanın əsasına aid olmayan bəzi əməllərdə ola bilər ki, bu da kiçik şirkdir.

## Dəlillər:

Riyanın haram olduğuna dair dəlillər gəlmişdir, bunlardan bəziləri aşağıdakılardır:

Uca Allah buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تُبۡطِلُواْ صَدَقَٰتِكُم بِٱلۡمَنِّ وَٱلۡأَذَىٰ كَٱلَّذِي يُنفِقُ مَالَهُۥ رِئَآءَ ٱلنَّاسِ وَلَا يُؤۡمِنُ بِٱللَّهِ وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِ...﴾

"Ey iman gətirənlər! Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə malını xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin...". (Bəqərə 2 surəsi, ayə 264).

Pak və Uca olan Allah buyurur:

﴿إِنَّ ٱلۡمُنَٰفِقِينَ يُخَٰدِعُونَ ٱللَّهَ وَهُوَ خَٰدِعُهُمۡ وَإِذَا قَامُوٓاْ إِلَى ٱلصَّلَوٰةِ قَامُواْ كُسَالَىٰ يُرَآءُونَ ٱلنَّاسَ...﴾

"Münafiqlər Allahı aldatmağa çalışırlar. Əslində isə Allah onları aldadır. Onlar namaza durarkən tənbəl qalxar, özlərini camaata göstərərlər...". (Nisa 4 surəsi, ayə 142).

Allah Təbarəkə va Təalə buyurur:

﴿...فَمَن كَانَ يَرۡجُواْ لِقَآءَ رَبِّهِۦ فَلۡيَعۡمَلۡ عَمَلٗا صَٰلِحٗا وَلَا يُشۡرِكۡ بِعِبَادَةِ رَبِّهِۦٓ أَحَدَۢا 110﴾

"Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, qoy yaxşı işlər görsün və Rəbbinə etdiyi ibadətlərində heç kəsi Ona şərik qoşmasın!". (Kəhf 18 surəsi, ayə 110). Yəni: əməlində Allaha şərik qoşmasın və riyakarlıq etməsin.

Pak və Uca olan Allah buyurur:

﴿فَوَيۡلٞ لِّلۡمُصَلِّينَ 4 ٱلَّذِينَ هُمۡ عَن صَلَاتِهِمۡ سَاهُونَ 5 ٱلَّذِينَ هُمۡ يُرَآءُونَ 6﴾

"Vay halına namaz qılanların –

O kəslərin ki, onlar namazlara qarşı səhlənkardırlar.

Onlar (namazlarında) riyakarlıq edərlər". (Maun 107 surəsi, ayə 4-6).

## Zərərləri:

Riyanın zərərləri:

- Riya, əgər imanın əslində olarsa, Cəhənnəmdə əbədi qalmağa səbəbdir. Çünki bu halda o, küfr və nifaqdır. Uca Allah buyurmuşdur:

﴿وَإِذَا لَقُواْ ٱلَّذِينَ ءَامَنُواْ قَالُوٓاْ ءَامَنَّا وَإِذَا خَلَوۡاْ إِلَىٰ شَيَٰطِينِهِمۡ قَالُوٓاْ إِنَّا مَعَكُمۡ إِنَّمَا نَحۡنُ مُسۡتَهۡزِءُونَ 14﴾

"Onlar möminlərlə rastlaşdıqda: “Biz iman gətirdik!”– deyirlər, öz şeytanları (azmış dostları) ilə xəlvətə çəkildikdə isə: “Şübhəsiz ki, biz sizinləyik. Biz (möminlərə) ancaq istehza edirik!”– deyirlər". [Bəqərə 2 surəsi, ayə 14]. Pak və Uca olan Allah buyurur:

﴿إِنَّ ٱلۡمُنَٰفِقِينَ فِي ٱلدَّرۡكِ ٱلۡأَسۡفَلِ مِنَ ٱلنَّارِ وَلَن تَجِدَ لَهُمۡ نَصِيرًا 145﴾

"Şübhəsiz ki, münafiqlər Cəhənnəmin ən alt təbəqəsində olacaqlar. Sən onlar üçün heç bir yardımçı tapa bilməzsən". (Nisa 4 surəsi, ayə 145).

-Riya sahibinin əməlinin puç olmasına səbəbdir. Belə ki, Əbu Hureyrə, Allah ondan razı olsun, demişdir ki, Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«قَالَ اللَّهُ تَبَارَكَ وَتَعَالَى: أَنَا أَغْنَى الشُّرَكَاءِ عَنِ الشِّرْكِ، مَنْ عَمِلَ عَمَلًا أَشْرَكَ فِيهِ مَعِي غَيْرِي، تَرَكْتُهُ وَشِرْكَهُ».

"Allah - Təbarakə va Təalə - buyurmuşdur: Mən, şərik olmağa əsla möhtac deyiləm. Kim bir əməl edərsə və etdiyi əməldə bir başqasını Mənə şərik qoşarsa, Mən onu və şərik qoşduğunu tərk edərəm"[1].

Riyakarın, insanlar üçün etdiyi əməllərinə görə axirətdə heç bir mükafatı yoxdur. Mahmud bin Ləbid, Allah ondan razı olsun, rəvayət edir ki, Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«إِنَّ أَخْوَفَ مَا أَخَافُ عَلَيْكُمُ الشِّرْكُ الأَصْغَرُ»، قَالُوا: وَمَا الشِّرْكُ الأَصْغَرُ يَا رَسُولَ اللهِ؟ قال: «الرِّيَاءُ، يَقُولُ اللَّهُ عَزَّ وَجَلَّ لَهُمْ يَوْمَ القِيَامَةِ إِذَا جُزِيَ النَّاسُ بِأَعْمَالِهِمْ: اذْهَبُوا إِلَى الَّذِينَ كُنْتُمْ تُرَاءُونَ فِي الدُّنْيَا فَانْظُرُوا هَلْ تَجِدُونَ عِنْدَهُمْ جَزَاءً».

"Sizin üçün ən çox qorxduğum kiçik şirkdir". Dedilər: "Kiçik şirk nədir, ey Allahın rəsulu?" O, belə buyurdu: “Riyadır. İzzət və Cəlal sahibi olan Allah Qiyamət günü, insanların əməllərinin qarşılığı

---

[1] Hədisi Müslim: (2985) rəvayət etmişdir.

veriləcəyi zaman onlara deyəcəkdir: “Dünya həyatında özünüzü göstərdiyiniz insanların yanına gedin və baxın görün özünüz üçün onlarda bir mükafat tapırsınızmı?"[1].

- Riya Cəhənnəmə varid edən səbəbdir. Əbu Hureyrə, Allah ondan razı olsun, demişdir ki, peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«إِنَّ أَوَّلَ النَّاسِ يُقْضَى عَلَيْهِ يَوْمَ الْقِيَامَةِ رَجُلٌ اسْتُشْهِدَ، فَأُتِيَ بِهِ فَعَرَّفَهُ نِعَمَهُ فَعَرَفَهَا، قَالَ: فَمَا عَمِلْتَ فِيهَا؟ قَالَ: قَاتَلْتُ فِيكَ حَتَّى اسْتُشْهِدْتُ، قَالَ: كَذَبْتَ، وَلَكِنَّكَ قَاتَلْتَ لِأَنْ يُقَالَ: جَرِيءٌ، فَقَدْ قِيلَ، ثُمَّ أُمِرَ بِهِ فَسُحِبَ عَلَى وَجْهِهِ حَتَّى أُلْقِيَ فِي النَّارِ، وَرَجُلٌ تَعَلَّمَ الْعِلْمَ وَعَلَّمَهُ وَقَرَأَ الْقُرْآنَ، فَأُتِيَ بِهِ فَعَرَّفَهُ نِعَمَهُ فَعَرَفَهَا، قَالَ: فَمَا عَمِلْتَ فِيهَا؟ قَالَ: تَعَلَّمْتُ الْعِلْمَ وَعَلَّمْتُهُ وَقَرَأْتُ فِيكَ الْقُرْآنَ، قَالَ: كَذَبْتَ، وَلَكِنَّكَ تَعَلَّمْتَ الْعِلْمَ لِيُقَالَ: عَالِمٌ، وَقَرَأْتَ الْقُرْآنَ لِيُقَالَ: هُوَ قَارِئٌ، فَقَدْ قِيلَ، ثُمَّ أُمِرَ بِهِ فَسُحِبَ عَلَى وَجْهِهِ حَتَّى أُلْقِيَ فِي النَّارِ، وَرَجُلٌ وَسَّعَ اللَّهُ عَلَيْهِ، وَأَعْطَاهُ مِنْ أَصْنَافِ الْمَالِ كُلِّهِ، فَأُتِيَ بِهِ فَعَرَّفَهُ نِعَمَهُ فَعَرَفَهَا، قَالَ: فَمَا عَمِلْتَ فِيهَا؟ قَالَ: مَا تَرَكْتُ مِنْ سَبِيلٍ تُحِبُّ أَنْ يُنْفَقَ فِيهَا إِلَّا أَنْفَقْتُ فِيهَا لَكَ، قَالَ: كَذَبْتَ، وَلَكِنَّكَ فَعَلْتَ لِيُقَالَ: هُوَ جَوَادٌ، فَقَدْ قِيلَ، ثُمَّ أُمِرَ بِهِ فَسُحِبَ عَلَى وَجْهِهِ، ثُمَّ أُلْقِيَ فِي النَّارِ».

«Qiyamət günü haqqında ilk hökm veriləcək kimsə şəhid olmuş kimsədir. O, gətiriləcək və Allah ona verdiyi nemətləri xatırladacaq, o da ona verilən nemətləri etiraf edəcək. Allah buyuracaq: “Bəs sən bu nemətlər qarşılığında nə etdin?”. O deyəcək: “Sənin yolunda şəhid olana qədər vuruşdum”. Allah buyuracaq: “Yalan dedin! Sən sadəcə, sənə “cəsurdur” deyilsin deyə vuruşdun və artıq elə də deyildi”. Sonra onun barəsində əmr veriləcək və o,

[1] Hədisi İmam Əhməd "Müsnəd" (23630) əsərində rəvayət etmişdir.

üzü üstə sürüklənərək Oda atılacaqdır. Elm öyrənib onu başqalarına öyrədən və Quran oxuyan bir kimsə gətiriləcək. Allah ona verdiyi nemətləri xatırladacaq, o da ona verilən nemətləri etiraf edəcək. Allah buyuracaq: "Bəs sən bu nemətlər qarşılığında nə etdin?". O deyəcək: "Elm öyrəndim, onu başqalarına öyrətdim və Sənin üçün Quran oxudum". Allah buyuracaq: "Yalan dedin! Sən sadəcə, sənə "alimdir" deyilsin deyə elm öyrəndin və sənə "qaridir" deyilsin deyə Quran oxudun və artıq elə də deyildi". Sonra onun barəsində əmr veriləcək və o, üzü üstə sürüklənərək oda atılacaqdır. Allahın bol ruzi verdiyi və hər cür mal-dövlət bəxş etdiyi bir kimsə gətiriləcək. Allah ona verdiyi nemətləri xatırladacaq, o da ona verilən nemətləri etiraf edəcək. Allah buyuracaq: "Bəs sən bu nemətlər qarşılığında nə etdin?". O deyəcək: "Sənin razılığın üçün xərclənməsini sevdiyin bütün yollarda malımı sərf etdim". Allah buyuracaq: "Yalan dedin! Sən sadəcə, sənə "səxavətlidir" deyilsin deyə belə etdin və artıq elə də deyildi". Sonra onun barəsində əmr veriləcək, o, üzü üstə sürüklənərək oda atılacaq»[1].

- Riya Qiyamət günü bütün məxluqatın gözü qarşısında rüsvay olmağa səbəbdir. Belə ki, Cündəb, Allah ondan razı olsun, peyğəmbərin,

[1] Hədisi Müslim: (1905) rəvayət etmişdir.

Allahın salavatı və salamı onun üzərinə olsun, belə dediyini rəvayət edir:

«مَنْ سَمَّعَ سَمَّعَ اللَّهُ بِهِ يَوْمَ القِيَامَةِ، وَمَنْ يُرَائِي يُرَائِي اللَّهُ بِهِ».

"Kim şöhrət üçün (etdiyi əməli) bəyan edərsə, Allah da Qiyamət günü onun (əsl niyyətini) hamıya bəyan edər. Kim də riyakarlıq edərsə, Allah da onun (riyakarlığını) hamıya göstərər"[1]. "Allah da onun (riyakarlığını) hamıya göstərər" sözünün mənası, yəni: Qiyamət günü onun haqqında elan ediləcək ki, o, əməllərini (insanlara) eşitdirən bir riyakar olmuşdur.

## Qorunma:

Riyadan qorunma yolları:

-Qul bilməlidir ki, Allah onun qəlbində olanlardan xəbərdardır və köksünün nələr gizlətdiyini bilir. Uca Allah buyurmuşdur:

﴿أَلَمۡ يَعۡلَمُوٓاْ أَنَّ ٱللَّهَ يَعۡلَمُ سِرَّهُمۡ وَنَجۡوَىٰهُمۡ وَأَنَّ ٱللَّهَ عَلَّٰمُ ٱلۡغُيُوبِ 78﴾

"Məgər anlamırdılar ki, Allah onların sirlərindən də, xəlvəti danışıqlarından da agahdır və Allah qeybləri biləndir?". (Tövbə 9 surəsi, ayə 78).

- Uca Allahın quluna olan nəzarətini daima xatırlamaq. Bu, peyğəmbərin, sallallahu aleyhi va səlləm, Cəbrail hədisində qeyd etdiyi "Ehsan" məqamıdır və o,

«أَنْ تَعْبُدَ اللهَ كَأَنَّكَ تَرَاهُ، فَإِنْ لَمْ تَكُنْ تَرَاهُ، فَإِنَّهُ يَرَاكَ».

[1] Hədisi Buxari: (6499) rəvayət etmişdir.

«Sənin Allaha, Onu görürmüş kimi ibadət etməyindir. Sən Onu görməsən də, O, səni görür»[1].

- Bütün söz və əməllərində ixlaslı olmalı, onları yalnız Uca Allahın Vəchi (razılığını qazanmaq) üçün etməlidir.

- O bilməlidir ki, insanlar ona heç bir fayda və ya zərər verməyə qadir deyillər. Əgər o, əməli ixlasla Allah üçün etsə, Allah ondan razı qalar və onu sevər, nəticədə onlara riyakarlıq etməyə ehtiyac duymadan - insanlar arasında qəbul olunar və sevilər. Əbu Hureyrə, radıyallahu anhu, rəvayət edir ki, peyğəmbər, sallallahu əleyhi va səlləm, buyurmuşdur:

«إِنَّ اللَّهَ إِذَا أَحَبَّ عَبْدًا دَعَا جِبْرِيلَ فَقَالَ: إِنِّي أُحِبُّ فُلَانًا فَأَحِبَّهُ، قَالَ: فَيُحِبُّهُ جِبْرِيلُ، ثُمَّ يُنَادِي فِي السَّمَاءِ فَيَقُولُ: إِنَّ اللَّهَ يُحِبُّ فُلَانًا فَأَحِبُّوهُ، فَيُحِبُّهُ أَهْلُ السَّمَاءِ، قَالَ ثُمَّ يُوضَعُ لَهُ الْقَبُولُ فِي الْأَرْضِ، وَإِذَا أَبْغَضَ عَبْدًا دَعَا جِبْرِيلَ فَيَقُولُ: إِنِّي أُبْغِضُ فُلَانًا فَأَبْغِضْهُ، فَيُبْغِضُهُ جِبْرِيلُ، ثُمَّ يُنَادِي فِي أَهْلِ السَّمَاءِ: إِنَّ اللَّهَ يُبْغِضُ فُلَانًا فَأَبْغِضُوهُ، قَالَ: فَيُبْغِضُونَهُ، ثُمَّ تُوضَعُ لَهُ الْبَغْضَاءُ فِي الْأَرْضِ».

"Allah bir qulu sevərsə, Cəbraili çağırar və ona: «Mən filankəsi sevirəm, sən də onu sev» – deyər. Cəbrail də onu sevər. Sonra o, səma əhlinə səslənib deyər: "Allah filan qulunu sevir, sizdə onu sevin". Səma əhli də onu sevər. Sonra yer üzündə onun üçün bir qəbul qoyular. Əgər Allah bir quluna nifrət edərsə, Cəbraili çağırar və ona: «Mən filankəsə nifrət edirəm, sən də ona nifrət et» – deyər. Cəbrail də ona nifrət edər. Sonra o, səma əhlinə səslənib

[1] Hədisi Müslim (97) rəvayət etmişdir.

deyər: "Allah filan quluna nifrət edir, sizdə ona nifrət edin". Səma əhli də ona nifrət edər. Sonra yer üzündə ona qarşı nifrət qoyular»[1].

- Qulun riyadan Uca Allaha sığınması. Peyğəmbər, sallallahu aleyhi va sələm, bir hədisdə belə buyurur:

«أَيُّهَا النَّاسُ، اتَّقُوا هَذَا الشِّرْكَ؛ فَإِنَّهُ أَخْفَى مِنْ دَبِيبِ النَّمْلِ»، فَقَالَ لَهُ: مَنْ شَاءَ اللهُ أَنْ يَقُولَ وَكَيْفَ نَتَّقِيهِ، وَهُوَ أَخْفَى مِنْ دَبِيبِ النَّمْلِ يَا رَسُولَ اللهِ؟ قَالَ: «قُولُوا: اللَّهُمَّ إِنَّا نَعُوذُ بِكَ مِنْ أَنْ نُشْرِكَ بِكَ شَيْئًا نَعْلَمُهُ، وَنَسْتَغْفِرُكَ لِمَا لَا نَعْلَمُ».

"Ey insanlar, bu şirkdən çəkinin. Çünki o, qarışqanın yerişindən daha gizlidir". Bir nəfər soruşdu: "Ey Allahın rəsulu, o, qarışqanın yerişindən daha gizli olduğu halda, elə isə biz, ondan necə çəkinək?". Peyğəmbər, sallallahu aleyhi va sələm, belə buyurdu: "Deyin: Allahım! Bilə-bilə Sənə nəyisə şərik qoşmaqdan Sənə sığınırıq və bilmədiklərimizə görə Səndən bağışlanma diləyirik"[2].

Ömər bin Xattab, Allah ondan razı olsun, duasında belə deyərdi: «اللَّهُمَّ اجْعَلْ عَمَلِي كُلَّهُ صَالِحًا، وَاجْعَلْهُ لِوَجْهِكَ خَالِصًا، وَلَا تَجْعَلْ لِأَحَدٍ فِيهِ شَيْئًا»

[Allahummə-cal aməli kulləhu salihən, vəcalhu li vəchikə xalisən, və lə təcal li əhədin fihi şeyən].

"Allahım! Bütün əməlimi saleh et, onu xalis Öz Üzün üçün et və onda heç kəs üçün bir pay etmə"[3].

---

1 Hədisi Buxari: (3209) və Müslim: (2637) rəvayət etmişdir.
2 Hədisi İmam Əhməd "Müsnəd" (19606) əsərində rəvayət etmişdir.
3 Əsəri İbn Əbi Şeybə "əl-Musənnəf" (2951) kitabında rəvayət etmişdir.

Əli ibn Əbu Talibdən, Allah ondan razı olsun, rəvayət edilir ki, o, Allaha dua edərək belə deyərdi: "Allahım! Qəlbimi nifaqdan, sinəmi kindən və əməllərimi riyadan təmizlə!"[1].

- Riyadan xilas olmaq üçün Uca Allahdan kömək diləmək. Uca Allah möminlər haqqında buyurur:

﴿إِيَّاكَ نَعۡبُدُ وَإِيَّاكَ نَسۡتَعِينُ 5﴾

"Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik". (Fatihə 1 surəsi, ayə 5).

- Azan, camaat namazı və s. bu kimi gizlədilməsi mümkün olmayan və şəri baxımdan edilməsi açıq şəkildə tövsiyə olunan ibadətlər istisna olmaqla, digər ibadətləri gizli etmək və aşkar etməmək.

## Namazı tərk etmək.

Namazın İslamda məqamı ucadır, o, dinin dirəyidir və şəhadət kəlməsindən sonra ilk ibadətdir. Abdullah bin Ömərdən, radiyallahu anhumə, rəvayət olunur ki, Allahın rəsulu, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«بُنِيَ الإِسْلَامُ عَلَى خَمْسٍ: شَهَادَةِ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ، وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، وَإِقَامِ الصَّلَاةِ، وَإِيتَاءِ الزَّكَاةِ، وَحَجِّ الْبَيْتِ، وَصَوْمِ رَمَضَانَ».

"İslam beş (əsas) üzərində qurulmuşdur: Allahdan başqa (ibadətə haqqı olan) məbud olmadığına və Muhəmmədin (sallallahu aleyhi və səlləm) Allahın elçisi olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək, həcc etmək və Ramazan orucunu tutmaq"[2].

---

[1] "Məcmu Fətəvə" İbn Teymiyyə: (1/99).
[2] Hədisi Buxari: (8) və Müslim: (21) rəvayət etmişdir.

Namazı tərk etmək ən böyük günahlardandır və bunu edən şəxsin küfrə düşməsindən qorxulur. Cabir, Allah ondan razı olsun, belə demişdir: Mən Allahın elçisinin, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurduğunu eşitdim:

«إِنَّ بَيْنَ الرَّجُلِ وَبَيْنَ الشِّرْكِ وَالْكُفْرِ، تَرْكَ الصَّلَاةِ».

"Kişi ilə şirk və küfür arasında, namazı tərk etməsi vardır"[1].

## Dəlillər:

Namazı tərk etməyin haram olmasına, bu əməlin çirkinliyinə və günahının böyüklüyünə dair çoxlu dəlillər mövcuddur. Bu dəlillərdən bəziləri bunlardır:

Uca Allah buyurur:

﴿فَخَلَفَ مِنۢ بَعۡدِهِمۡ خَلۡفٌ أَضَاعُواْ ٱلصَّلَوٰةَ وَٱتَّبَعُواْ ٱلشَّهَوَٰتِۖ فَسَوۡفَ يَلۡقَوۡنَ غَيًّا 59﴾

"Onların arxasınca namazı buraxıb şəhvətə uyan bir nəsil gəldi. Onlar ziyana uğrayacaqlar". (Məryəm 19 surəsi, ayə 59). Yəni: onları şiddətli, iki qat əzab gözləyir. Təfsirçilər qeyd edirlər ki, namaza səhlənkar yanaşmaq ya onu tamamilə tərk etməklə ya da vaxtından sonraya saxlamaqla olur[2].

Uca Allah buyurur:

﴿مَا سَلَكَكُمۡ فِي سَقَرَ 42 قَالُواْ لَمۡ نَكُ مِنَ ٱلۡمُصَلِّينَ 43﴾

"Sizi "Səqərə" (atəşə) salan nədir?

---

[1] Hədisi Müslim: (134) rəvayət etmişdir.
[2] Bax: Təfsir İbn Kəsir: (5/243).

Onlar deyəcəklər: “Biz namaz qılanlardan deyildik". (Muddəssir 74 surəsi, ayələr 42-43). Namazı tərk etmək Cəhənnəmə daxil olmağın səbəblərindəndir. Allah bizi ondan qorusun.

İzzət və Cəlal sahibi olan Allah buyurur:

﴿فَوَيۡلٞ لِّلۡمُصَلِّينَ 4 ٱلَّذِينَ هُمۡ عَن صَلَاتِهِمۡ سَاهُونَ 5﴾

"Vay halına namaz qılanların –

O kəslərin ki, onlar namazlarında səhlənkardırlar". (Maun 107 surəsi, ayələr 4-5).

Əs-Sədi, Allah ona rəhmət etsin, demişdir: "Vay halına namaz qılanların" yəni: o kəslərin ki, namaz qılmağı öhdələrinə götürür, lakin "onlar namazlarında səhlənkardırlar" yəni: namazı zay edir, vaxtını ötürür, ərkanlarını naqis yerinə yetirirlər. Bu, onların Allahın əmrinə əhəmiyyət vermədikləri üçündür. Çünki onlar, itaətlərin ən mühümü və Allaha yaxınlaşdıran əməllərin ən fəzilətlisi olan namazı zay etmişlər"[1].

Bureydə, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbərin, sallallahu aleyhi va səlləm, belə demişdir:

«العَهْدُ الَّذِي بَيْنَنَا وَبَيْنَهُمُ الصَّلَاةُ، فَمَنْ تَرَكَهَا فَقَدْ كَفَرَ».

"Bizimlə onlar arasındakı əhd namazdır. Kim namazı tərk etsə, artıq küfr etmişdir"[2].

Tabiinlərdən olan Şəqiq bin Abdullah belə demişdir: "Muhəmmədin, sallallahu aleyhi va

---

1 «Təfsir əs-Səadi» (səh: 935).

2 Hədisi Tirmizi: (261) rəvayət etmişdir.

səlləm, səhabələri namazdan başqa əməllərdən heç birinin tərk edilməsini küfür görmürdülər"[1].

## Zərərləri:

Namazı tərk etməyin böyük zərərləri vardır. Bunlardan bəziləri aşağıdakılardır:

- İslam dininin aşkar şüarlarından olan əzəmətli bir şüarın aradan getməsi.

- Namazı tərk edən, Allaha sığınırıq, küfrə düşməyə məruz qalır. Fəqihlər ixtilaf etmişlər: namazı tərk edən, kafirdir və ona kafirlərə aid hökmlər tətbiq edilirmi? Yoxsa o, böyük günahlardan birini etmiş bir kimsədir?

- Namazı tərk edənin İslamda payı yoxdur. Misvər bin Məxrəmədən rəvayət edilir ki, o, Ömər bin Xattabın, Allah ondan razı olsun, xəncərlə vurulduğu gecə onun yanına daxil olub onu sübh namazına oyatdı. Ömər dedi: "Bəli, namazı tərk edənin İslamda payı yoxdur". Beləliklə, Ömər yarasından qan axdığı halda namazını qıldı[2]. "Yaradan qan axması" yəni: yaradan qan gəlməsi və fışqırması deməkdir.

Əl-Baci, Allah ona rəhmət etsin, demişdir: "Ömər demişdir: "namazı tərk edənin İslamda heç bir payı yoxdur" yəni: onun İslamda heç bir nəsibi yoxdur və əməlləri qəbul olunmaz. Çünki namaz, qəbul olunma baxımından İslam əməllərinin birincisi və

---

[1] Hədisi Tirmizi: (2622) rəvayət etmişdir.
[2] Hədisi İmam Malik: (51) rəvayət etmişdir.

ən əzəmətlisidir. Kim namazı tərk etsə, onun digər İslam əməllərindən olan nəsibi batil olar, onlardan faydalana bilməz və onlardan heç bir payı olmaz"[1].

- Namazı tərk etmək Qiyamət günü məyusluq və ziyandır. Əbu Hureyradən, Allah ondan razı olsun, rəvayət edildiyinə görə o, belə demişdir: Mən Allah rəsulunun, salləllahu aleyhi va səlləm, belə dediyini eşitdim:

«إِنَّ أَوَّلَ مَا يُحَاسَبُ بِهِ العَبْدُ يَوْمَ القِيَامَةِ مِنْ عَمَلِهِ صَلَاتُهُ، فَإِنْ صَلَحَتْ فَقَدْ أَفْلَحَ وَأَنْجَحَ، وَإِنْ فَسَدَتْ فَقَدْ خَابَ وَخَسِرَ».

«Qiyamət günü qulun əməllərindən ilk haqq-hesab olunacağı şey onun namazıdır. Əgər namazı düzgün olarsa, o, nicat tapar və uğur qazanar. Yox əgər naqis olarsa, o, hüsrana və ziyana uğrayar»[2].

Aun bin Abdullah, rahiməhullah, demişdir: «Həqiqətən, qul qəbrinə qoyulduqda ondan soruşulan ilk şey namazdır. Əgər (namazı) qəbul olunarsa, onun digər əməllərinə baxılar. Yox, əgər qəbul olunmazsa, ondan sonra əməllərindən heç birinə baxılmaz»[3].

- Kim bir namazı tərk edərsə, Allah ona qəzəblənər. İbn Abbas, Allah onlardan razı olsun, demişdir: "Kim bir namazı qəsdən tərk edərsə, Uca Allah ona qəzəbli olduğu halda Onunla qarşılaşar"[4].

---

1 əl-Müntəqa Şərh əl-Muvətta: (1/86).
2 Hədisi Tirmizi: (413) rəvayət etmişdir.
3 Zəhəbinin "əl-Kəbəir" kitabı, (səh: 20).
4 Zəhəbinin "əl-Kəbəir" kitabı, (səh: 20).

- Peyğəmbərə, Allahın salavatı və salamı onun üzərinə olsun, namazı tərk edənlərlə döyüşmək əmr olunmuşdur. Abdullah bin Ömər, Allah onlardan razı olsun, rəvayət edir ki, Allahın rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«أُمِرْتُ أَنْ أُقَاتِلَ النَّاسَ حَتَّى يَشْهَدُوا أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ، وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، وَيُقِيمُوا الصَّلَاةَ، وَيُؤْتُوا الزَّكَاةَ، فَإِذَا فَعَلُوا ذَلِكَ عَصَمُوا مِنِّي دِمَاءَهُمْ وَأَمْوَالَهُمْ إِلَّا بِحَقِّ الإِسْلَامِ، وَحِسَابُهُمْ عَلَى اللَّهِ».

"İnsanlar Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığına və Muhammədin Allahın rəsulu olduğuna şahidlik edənə, namaz qılana və zəkat verənə qədər - onlarla vuruşmaq mənə əmr olundu. Əgər bunları edərlərsə, İslamın haqqı (cinayətə görə veriləcək cəza) istisna olmaqla, qanlarını və mallarını məndən qorumuş olarlar, hesabları isə Allaha aiddir"[1].

– Peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, xəbər verdiyi nurdan məhrum qalmaq. Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«الصَّلَاةُ نُورٌ».

«Namaz nurdur»[2].

- Namazın tərk edilməsi müsəlman cəmiyyətində çirkin əməlləri və yaramaz işləri yayır. Çünki müsəlmanların namazı qoruması

---

[1] Hədisi Buxari: (25) və Müslim: (22) rəvayət etmişdir.
[2] Hədisi Müslim: (223) rəvayət etmişdir.

onları və cəmiyyəti çirkin əməldən və yaramaz işdən qoruyur. Necə ki, Uca Allah buyurmuşdur:

﴿...وَأَقِمِ الصَّلَاةَ إِنَّ الصَّلَاةَ تَنْهَى عَنِ الْفَحْشَاءِ وَالْمُنْكَرِ...﴾

"...və namaz qıl. Həqiqətən, namaz (insanı) çirkin və pis işlərdən çəkindirir...". [Ənkəbut 29 surəsi, ayə 45].

## Qorunma:

Namazı tərk etmək böyük günahına düşməkdən qorunma yolları:

– Namazın İslamdakı böyük dəyərini bilmək və bunu Qurani-Kərimdən və Pak Sünnədən öyrənmək.

- Peyğəmbərin, sallallahu aleyhi va səlləm, namaz qılma qaydasını öyrənmək. Belə ki, Malik bin Huveyris, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«صَلُّوا كَمَا رَأَيْتُمُونِي أُصَلِّي».

«Mənim necə namaz qıldığımı görürsünüzsə, siz də elə namaz qılın!»[1].

- Fərz namazlarını məsciddə camaatla qılmaq və heç bir şeyin müsəlmanı vaxtında namazdan yayındırmasına imkan verməmək. Allah Təala buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تُلۡهِكُمۡ أَمۡوَٰلُكُمۡ وَلَآ أَوۡلَٰدُكُمۡ عَن ذِكۡرِ ٱللَّهِۚ وَمَن يَفۡعَلۡ ذَٰلِكَ فَأُوْلَٰٓئِكَ هُمُ ٱلۡخَٰسِرُونَ 9﴾

---

[1] Hədisi Buxari: (631) və Müslim: (674) rəvayət etmişdir.

"Ey iman gətirənlər! Mallarınız və övladlarınız sizi Allahın zikrindən yayındırmasın! Kim bunu etsə (bilsin ki,) onlar ziyana uğrayanlardır". (Munafiqun 63 surəsi, ayə 9). İbn Həcər əl-Heytəmi, Allah ona rəhmət etsin, demişdir: "Təfsirçilərdən bir qrup demişdir: “Burada Allahın zikrindən məqsəd beş vaxt namazdır. Kim malı – alveri və ya sənəti – və ya övladı səbəbilə namazı vaxtında qılmaqdan yayınarsa, ziyana uğrayanlardan olar”[1].

- Namazları zay edən pis dostlardan və günah əhlindən uzaq durmaq.

- Uşaqları kiçik yaşlarından namaza vərdiş etdirmək. Belə ki, Abdullah bin Amr bin Asdan, Allah onların hər ikisindən razı olsun, rəvayət olunur ki, Allahın rəsulu, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«مُرُوا أَوْلَادَكُمْ بِالصَّلَاةِ وَهُمْ أَبْنَاءُ سَبْعِ سِنِينَ، وَاضْرِبُوهُمْ عَلَيْهَا وَهُمْ أَبْنَاءُ عَشْرٍ».

“Övladlarınıza yeddi yaşında ikən namaz qılmağı əmr edin, on yaşında ikən onları namaza görə (əgər qılmasalar) vurun”[2].

- Çoxlu nafilə namazlar qılmaq. Çünki nafilə namazları fərzlərdəki qüsurları tamamlayır. Əbu Hureyra - Allah ondan razı olsun - rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, buyurmuşdur:

---

[1] əz-Zəvacir an iqtiraf əl-Kəbəir: (1/220).
[2] Hədisi Əbu Davud: (495) rəvayət etmişdir.

«إِنَّ أَوَّلَ مَا يُحَاسَبُ بِهِ العَبْدُ يَوْمَ القِيَامَةِ مِنْ عَمَلِهِ صَلَاتُهُ؛ فَإِنْ صَلَحَتْ فَقَدْ أَفْلَحَ وَأَنْجَحَ، وَإِنْ فَسَدَتْ فَقَدْ خَابَ وَخَسِرَ، فَإِنِ انْتَقَصَ مِنْ فَرِيضَتِهِ شَيْءٌ، قَالَ الرَّبُّ عَزَّ وَجَلَّ: انْظُرُوا هَلْ لِعَبْدِي مِنْ تَطَوُّعٍ، فَيُكْمَلُ بِهَا مَا انْتَقَصَ مِنَ الفَرِيضَةِ، ثُمَّ يَكُونُ سَائِرُ عَمَلِهِ عَلَى ذَلِكَ».

"Həqiqətən, Qiyamət günü qulun əməllərindən ən birinci hesab olunacağı əməl onun namazıdır. Əgər namazı düzgün olarsa, o, nicat tapar və uğur qazanar. Əgər naqis olarsa, o, ziyana uğrayar və uduzar. Əgər fərz namazlarından bir şey əskik olarsa, Uca Rəbb buyurar: "Baxın, qulumun nafilə namazları varmı?". Fərz namazlarındakı əskikliklər onunla tamamlanacaqdır. Sonra onun digər əməlləri də bu qayda ilə hesablanacaqdır"[1].

- Namazı əda etdikdə qazanılan böyük mükafatı bilmək. Çünki o, müsəlmanın Allaha itaət olaraq yerinə yetirdiyi ən sevimli əməldir. Həmçinin o, qulun öz Xaliqi ilə əlaqə quraraq Ona dua etdiyi və Ondan yardım dilədiyi bir vasitədir.

- Namazı ilk vaxtında qılmağa tələsməyə və bu işə diqqətli olmağa səy göstərmək. Bunun üçün zəngli saatı qurmaq, bir dostdan xatırlatmasını istəmək, namaz vaxtlarını dəqiq göstərən bir vasitəni təqib etmək və digər bu kimi vasitələrdən istifadə etmək olar.

## Zəkat verməmək.

Zəkat İslamın rükunlarından biridir və zənginlərdən alınıb, yoxsullara verilən vacib bir

---

[1] Hədisi Tirmizi: (413) rəvayət etmişdir.

sədəqədir. Onu verməmək böyük günahlardandır. Uca Allah bu günahı edənlərin imanını rədd etmiş, onlara müxtəlif əzablar vəd etmiş və onları həm bu həyatda, həm də ölümdən sonra — dünyada həlak olmaq, axirətdə isə bədbəxtliyə və ziyana uğramaq kimi şiddətli əzablarla hədələmişdir. Zəkatdan boyun qaçırmaq həm ona paxıllıq edən şəxs, həm də onun bu pis əməlinə razı olan cəmiyyət üçün bədbəxtlikdir.

Kim zəkatın vacibliyini inkar edərək onu verməzsə, onun kafir olmasında və İslam dinindən çıxmasında heç bir şübhə yoxdur. Paxıllıq və xəsislik ucbatından onu verməyənin isə günahı çox böyükdür. Çünki ayə və hədislərdə zəkat verməməyin, Uca Allahın dünya və axirət cəzaları təyin etdiyi böyük günahlardan olduğu bildirilmişdir.

## Dəlillər:

Kitab və sünnədə zəkatdan boyun qaçırmağa dair təhdid edən bir çox dəlil varid olmuşdur. Onlardan bəziləri aşağıdakılardır:

Uca Allah buyurur:

﴿...وَٱلَّذِينَ يَكۡنِزُونَ ٱلذَّهَبَ وَٱلۡفِضَّةَ وَلَا يُنفِقُونَهَا فِي سَبِيلِ ٱللَّهِ فَبَشِّرۡهُم بِعَذَابٍ أَلِيمٍ 34 يَوۡمَ يُحۡمَىٰ عَلَيۡهَا فِي نَارِ جَهَنَّمَ فَتُكۡوَىٰ بِهَا جِبَاهُهُمۡ وَجُنُوبُهُمۡ وَظُهُورُهُمۡۖ هَٰذَا مَا كَنَزۡتُمۡ لِأَنفُسِكُمۡ فَذُوقُواْ مَا كُنتُمۡ تَكۡنِزُونَ 35﴾

"Qızıl-gümüş yığıb onları Allah yolunda xərcləməyənləri ağrılı-acılı bir əzabla müjdələ.

O gün (Qiyamət günü) yığdıqları qızıl-gümüş Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və onlara: “Bu, özünüz üçün yığıb saxladığınız sərvətinizdir. Elə isə dadın yığıb saxladığınız sərvətin əzabını!”– (deyiləcəkdir.)". [Tövbə 9 surəsi, ayələr 34-35].

Əbu Hureyra, Allah ondan razı olsun, rəvayət ki, peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«مَنْ آتَاهُ اللَّهُ مَالًا، فَلَمْ يُؤَدِّ زَكَاتَهُ، مُثِّلَ لَهُ مَالُهُ شُجَاعًا أَقْرَعَ، لَهُ زَبِيبَتَانِ، يُطَوِّقُهُ يَوْمَ القِيَامَةِ، يَأْخُذُ بِلِهْزِمَتَيْهِ -يَعْنِي شِدْقَيْهِ- ثُمَّ يَقُولُ: أَنَا مَالُكَ، أَنَا كَنْزُكَ» ثم تلا: ﴿وَلَا يَحْسَبَنَّ الَّذِينَ يَبْخَلُونَ بِمَا آتَاهُمُ اللَّهُ مِنْ فَضْلِهِ هُوَ خَيْرًا لَهُمْ بَلْ هُوَ شَرٌّ لَهُمْ سَيُطَوَّقُونَ مَا بَخِلُوا بِهِ يَوْمَ الْقِيَامَةِ وَلِلَّهِ مِيرَاثُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ 180﴾.

"Kim Allahın ona bəxş etdiyi var-dövlətin zəkatını vermirsə, Qiyamət günü o var-dövlət başının tükü tökülmüş, gözlərinin də üstündə iki qara xalı olan ilana çevri-lib onun boy-nuna sarıla-caq və ağzının hər iki tərəfindən yapışıb deyəcək: “Mən sənin var-döv-lə-tinəm! Mən sənin xəzinənəm!”. Sonra peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, bu ayəni oxudu: "Allahın Öz lütfündən bəxş etdi-yini xərcləməyə xəsis-lik edən- kimsə-lər elə gü-man etməsin-lər ki, bu, on-ların xeyrinə-dir. Ək-sinə, bu, onların zərərinədir. On-ların xə-sis-lik et-dikləri şey qiya-mət gü-nü bo-yun-larına do-la-nacaqdır. Göy-lə-rin və yerin mi-rası Allaha

məx-sus-dur. Allah nə etdiklərinizdən xəbər-dar-dır".[1] (Əli İmran 3 surəsi, ayə 180).

Əbu Hureyrə, Allah ondan razı olsun, demişdir ki, Allah rəsulun, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«مَا مِنْ صَاحِبِ ذَهَبٍ وَلَا فِضَّةٍ لَا يُؤَدِّي مِنْهَا حَقَّهَا إِلَّا إِذَا كَانَ يَوْمُ الْقِيَامَةِ، صُفِّحَتْ لَهُ صَفَائِحُ مِنْ نَارٍ، فَأُحْمِيَ عَلَيْهَا فِي نَارِ جَهَنَّمَ، فَيُكْوَى بِهَا جَنْبُهُ وَجَبِينُهُ وَظَهْرُهُ، كُلَّمَا بَرَدَتْ أُعِيدَتْ لَهُ، فِي يَوْمٍ كَانَ مِقْدَارُهُ خَمْسِينَ أَلْفَ سَنَةٍ، حَتَّى يُقْضَى بَيْنَ الْعِبَادِ، فَيَرَى سَبِيلَهُ، إِمَّا إِلَى الْجَنَّةِ وَإِمَّا إِلَى النَّارِ».

«Qiyamət günü zəkatını verməmiş hər bir qızıl və gümüş sahibi üçün (onun malı) oddan piltələrə çevriləcək, Cəhənnəm atəşində qızdırılaraq onun böyürünə, alnına və kürəyinə dağ basılacaqdır. Hər dəfə soyuduqda, miqdarı əlli min il olan bir gündə insanlar arasında hökm verilənə qədər (bu əzab) onun üçün təkrarlanacaqdır. Sonda o, yolunun ya Cənnətə, ya da Cəhənnəmə olduğunu görəcəkdir»[2].

Ən böyük Siddiq olan Əbu Bəkrin, Allah ondan razı olsun, peyğəmbərin, səlləllahu aleyhi va səlləm, vəfatından sonra zəkat verməkdən imtina edənlərə qarşı davranışı da belə idi. O, həmin şəxslər tövbə edib mallarının zəkatını verənə qədər onlarla döyüşdü. Əbu Hureyrə, Allah ondan razı olsun, belə rəvayət edir:

لَمَّا تُوُفِّيَ النَّبِيُّ ﷺ واستخْلَفَ أَبُو بَكْرٍ، وَكَفَرَ مَن كَفَرَ مِنْ العَرَبِ، قَالَ عُمَرُ: يَا أَبَا بَكْرٍ، كَيْفَ تُقَاتِلُ النَّاسَ وَقَدْ قَالَ رَسُولُ اللَّهِ ﷺ: «أُمِرْتُ أَنْ أُقَاتِلَ النَّاسَ حَتَّى

[1] Hədisi Buxari: (1403) rəvayət etmişdir.
[2] Hədisi Müslim: (987) rəvayət etmişdir.

يَقُولُوا: لَا إِلَهَ إِلَّا اللَّهُ، فَمَنْ قَالَ: لَا إِلَهَ إِلَّا اللَّهُ، عَصَمَ مِنِّي مَالَهُ وَنَفْسَهُ إِلَّا بِحَقِّهِ، وَحِسَابُهُ عَلَى اللَّهِ؟» قال أبو بكر: وَاللَّهِ لَأُقَاتِلَنَّ مَنْ فَرَّقَ بَيْنَ الصَّلاَةِ وَالزَّكَاةِ، فَإِنَّ الزَّكَاةَ حَقُّ المَالِ، وَاللَّهِ لَوْ مَنَعُونِي عَنَاقًا (هي الأنثى من ولد المعز التي لم تبلغ سنة) كَانُوا يُؤَدُّونَهَا إِلَى رَسُولِ اللَّهِ ﷺ لَقَاتَلْتُهُمْ عَلَى مَنْعِهَا. قَالَ عُمَرُ: فَوَاللَّهِ مَا هُوَ إِلَّا أَنْ رَأَيْتُ أَنْ قَدْ شَرَحَ اللَّهُ صَدْرَ أَبِي بَكْرٍ لِلْقِتَالِ، فَعَرَفْتُ أَنَّهُ الحَقُّ.

"Peyğəmbər, sallallahu aleyhi və səlləm, vəfat etdikdə, Əbu Bəkr xəlifə olduqda və ərəblərdən bir qismi dindən döndükdə, Ömər dedi: “Ey Əbu Bəkr, insanlarla necə vuruşa bilərsən? Halbuki, Allah rəsulu, sallallahu aleyhi və səlləm, belə demişdir: “İnsanlar Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığını deyənə qədər onlarla vuruşmaq mənə əmr olundu. Kim Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığını desə, (İslam) haqqı istisna olmaqla, malını və canını məndən qorumuş olar. Onun hesabı isə Allaha aiddir”. Əbu Bəkr dedi: “Allaha and olsun ki, namazla zəkatın arasını ayıranlarla mütləq vuruşacağam. Çünki zəkat malın haqqıdır. Allaha and olsun ki, əgər onlar Allah rəsuluna, sallallahu aleyhi və səlləm, verdikləri bir çəpişi (bir yaşına çatmamış dişi keçi balası) belə məndən əsirgəsələr, buna görə onlarla vuruşaram”. Ömər dedi: “Allaha and olsun ki, mən Allahın Əbu Bəkrin köksünü vuruşmaq üçün açdığını (ona bu işi asanlaşdırdığını) gördüm və bildim ki, haqq olan da budur”[1].

---

[1] Hədisi Buxari: (1399) və Müslim: (20) rəvayət etmişdir.

## Zərərləri:

Zəkatı verməməyin zərərləri:

- Zəkat verməmək müşriklərin sifətlərindəndir. Zəkatı verməyən kəs də onlara bənzəmiş olur. Kim bir qövmə bənzəyərsə, o da onlardandır. Uca Allah buyurur:

﴿...وَوَيۡلٞ لِّلۡمُشۡرِكِينَ 6 ٱلَّذِينَ لَا يُؤۡتُونَ ٱلزَّكَوٰةَ...﴾

"...Vay olsun müşriklərə ki, zəkat vermirlər...". (Fussilət 41surəsi, ayələr 6-7).

- Zəkatda xəsislik etmək nifaqın əlamətlərindən və səbəblərindəndir. Uca Allah münafiqlərin vəsfi barədə buyurur:

﴿...وَلَا يُنْفِقُونَ إِلَّا وَهُمْ كَارِهُونَ 54﴾

"onlar mallarını istəmədikləri halda xərcləyərlər". (Tövbə 9 surəsi, ayə 54).

- Yağışın kəsilməsi ilə imtahan olunmaq. İbn Ömər, Allah onların hər ikisindən razı olsun, rəvayət edir ki, Allah rəsulu, sallallahu aleyhi və səlləm) belə demişdir:

«...وَلَمْ يَمْنَعُوا زَكَاةَ أَمْوَالِهِمْ، إِلَّا مُنِعُوا الْقَطْرَ مِنَ السَّمَاءِ، وَلَوْلَا الْبَهَائِمُ لَمْ يُمْطَرُوا».

«...mallarının zəkatını vermədikdə, göydən yağan yağışdan məhrum edilərlər. Əgər heyvanlar olmasaydı, onlara heç yağış yağmazdı»[1].

[1] Hədisi İbn Macə: (4019) rəvayət etmişdir.

- Mal-dövlətin bərəkətinin getməsinə və müxtəlif həlak və tələf səbəbləri ilə məhv olmasına səbəb olur.

- Zəkatı verməmək cəmiyyətdə fəqirlərlə zənginlər arasında kin-küdurətin yayılmasına səbəb olur.

## Qorunma:

Bu böyük günaha düşməkdən qorunmağın yolları:

- Müsəlman bilməlidir ki, mal-dövlət Allaha məxsusdur və lütf Uca Allahın əlindədir, onu istədiyinə bəxş edər. Belə ki, bəxş edən Uca Allahdır və verdiyi də Ona məxsusdur. Bu fərzi ehtiyac sahiblərinə ödəməyi əmr edən də Odur. Sənə isə o mal-dövlətdən sadəcə xərcləməyə izn verilmişdir. Uca Allah istəsə sənə verər, istəsə də səndən alar.

- Onu yerinə yetirən şəxsin, Allahın verdiyinin əvəzini verəcəyini, Onun ruzi verənlərin ən xeyirlisi olduğunu və sədəqəsini Uhud dağı boyda savaba çevrilənə qədər artırıb çoxaldacağını bilməsi səbəbi ilə, onu yerinə yetirməyin fəzilətini və verməməyin cəzasını düşünməsi. Allah onu yerinə yetirən şəxsə müjdə vermişdir ki, o, nə dünyada qorxar, nə də axirətdə kədərlənər. O, bu əmələ tələsər və xeyir işlərdə yarışar. Onu tərk edənin cəzasını bildikdə isə Allahın dünya və axirət əzabından qorxar və savabına ümid edib,

əzabından qorxaraq Uca Allahın əmrini yerinə yetirər.

- Paxıllıqdan Uca Allaha sığınmaq. Belə ki, Allahın rəsulu, salləllahu aleyhi və səlləm, ondan Allaha sığınmağı əmr edərdi. Musab bin Səad rəvayət edir ki, Səad bin Əbu Vəqqas, Allah ondan razı olsun, beş şeyi əmr edər və bunları peyğəmbərdən, salləllahu aleyhi və səlləm, rəvayət edərdi ki, o, bunları əmr edərdi:

«اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ البُخْلِ، وَأَعُوذُ بِكَ مِنَ الجُبْنِ، وَأَعُوذُ بِكَ أَنْ أُرَدَّ إِلَى أَرْذَلِ العُمُرِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ الدُّنْيَا، وَأَعُوذُ بِكَ مِنْ عَذَابِ القَبْرِ».

"Allahım! Xəsislikdən, qorxaqlıqdan, ömrün ən rəzil çağına qaytarılmaqdan, dünyanın fitnəsindən və qəbir əzabından Sənə sığınıram"[1].

## Zina.

Zina, dinin və əxlaqın fəsadına dəlalət edən böyük bir günahdır və onun zərəri xalqları və cəmiyyətləri zəifliyə, fəsada və məhvə sürükləyir. Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, zinanın çoxalmasının və yayılmasının Qiyamət saatının əlamətlərindən biri olduğunu xəbər vermişdir. Ənəs bin Məlik, Allah ondan razı olsun, rəvayət edir ki, Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«مِنْ أَشْرَاطِ السَّاعَةِ أَنْ يُرْفَعَ العِلْمُ، وَيَثْبُتَ الجَهْلُ، وَيُشْرَبَ الخَمْرُ، وَيَظْهَرَ الزِّنَا».

[1] Hədisi Buxari: (6365) rəvayət etmişdir.

"Qiyamətin əlamətlərindən, elmin aradan qalxması, cəhalətin yayılması, haram içkilərin içilməsi və zinanın artmasıdır"[1].

## Dəlillər:

Zinanın haram olmasını, onun çirkinliyini və günahının böyüklüyünü bəyan edən dəlillər çoxdur. Onlardan bəziləri aşağıdakılardır:

Uca Allah buyurur:

﴿وَلَا تَقۡرَبُواْ ٱلزِّنَىٰٓۖ إِنَّهُۥ كَانَ فَٰحِشَةٗ وَسَآءَ سَبِيلٗا 32﴾

"Zinaya yaxınlaşmayın. Çünki o, iyrənc bir əməl və murdar bir yoldur!". (İsra 17 surəsi, ayə 32).

Pak və Uca olan Allah buyurur:

﴿ٱلزَّانِيَةُ وَٱلزَّانِي فَٱجۡلِدُواْ كُلَّ وَٰحِدٖ مِّنۡهُمَا مِاْئَةَ جَلۡدَةٖۖ وَلَا تَأۡخُذۡكُم بِهِمَا رَأۡفَةٞ فِي دِينِ ٱللَّهِ إِن كُنتُمۡ تُؤۡمِنُونَ بِٱللَّهِ وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِۖ وَلۡيَشۡهَدۡ عَذَابَهُمَا طَآئِفَةٞ مِّنَ ٱلۡمُؤۡمِنِينَ 2﴾

"Zinakar qadının və zinakar kişinin hər birinə yüz çubuq vurun. Əgər Allaha və axirət gününə inanırsınızsa, Allahın dinində (hökmlərini tətbiq edərkən) onlara yazığınız gəlməsin. Qoy möminlərdən bir dəstə onların əzabına şahid olsun". (Nur 24 surəsi, ayə 2).

Allah Təbarəkə və Təalə buyurur:

﴿وَٱلَّذِينَ لَا يَدۡعُونَ مَعَ ٱللَّهِ إِلَٰهًا ءَاخَرَ وَلَا يَقۡتُلُونَ ٱلنَّفۡسَ ٱلَّتِي حَرَّمَ ٱللَّهُ إِلَّا بِٱلۡحَقِّ وَلَا يَزۡنُونَۚ وَمَن يَفۡعَلۡ ذَٰلِكَ يَلۡقَ أَثَامٗا 68 يُضَٰعَفۡ لَهُ ٱلۡعَذَابُ يَوۡمَ ٱلۡقِيَٰمَةِ وَيَخۡلُدۡ فِيهِۦ مُهَانًا 69 إِلَّا مَن تَابَ وَءَامَنَ وَعَمِلَ عَمَلٗا صَٰلِحٗا فَأُوْلَٰٓئِكَ يُبَدِّلُ ٱللَّهُ سَيِّـَٔاتِهِمۡ حَسَنَٰتٖۗ وَكَانَ ٱللَّهُ غَفُورٗا رَّحِيمٗا 70﴾

---

[1] Hədisi Buxari: (80) və Müslim: (2671) rəvayət etmişdir.

"Onlar Allahla yanaşı başqa məbuda dua etməz, Allahın haram etdiyi canı haqsız yerə qətlə yetirməz və zina etməzlər. Kim bunu (və ya bunlardan birini) edərsə cəzaya məruz qalar.

Qiyamət günü onun əzabı qat-qat artırılar və onun (əzabın) içində zəlil olaraq əbədi qalar.

Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir!". (Furqan 25 surəsi, ayə 68-70).

Əbu Hureyrə, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«لَا يَزْنِي الزَّانِي حِينَ يَزْنِي وَهُوَ مُؤْمِنٌ».

"Zina edən kimsə zina etdiyi vaxt mömin olmaz"[1].

Abdullah bin Məsud, Allah ondan razı olsun, belə demişdir:

سَأَلْتُ النَّبِيَّ ﷺ: أَيُّ الذَّنْبِ أَعْظَمُ عِنْدَ اللَّهِ؟ قَالَ: «أَنْ تَجْعَلَ لِلَّهِ نِدًّا وَهُوَ خَلَقَكَ»، قُلْتُ: إِنَّ ذَلِكَ لَعَظِيمٌ، قُلْتُ: ثُمَّ أَيُّ؟ قَالَ: «وَأَنْ تَقْتُلَ وَلَدَكَ تَخَافُ أَنْ يَطْعَمَ مَعَكَ»، قُلْتُ: ثُمَّ أَيُّ؟ قَالَ: «أَنْ تُزَانِيَ حَلِيلَةَ جَارِكَ».

Peyğəmbərdən, sallallahu aleyhi va səlləm, soruşdum: "Allah qatında ən böyük günah hansıdır?". O dedi: «Səni yaratmış olduğu halda Allaha şərik qoşmağındır». Dedim: "Həqiqətən də bu, böyük bir məsələdir". Dedim: "Bəs sonra hansı?". O dedi: «Səninlə birlikdə yeyəcəyindən

[1] Hədisi Buxari: (2475) və Müslim: (100) rəvayət etmişdir.

qorxub övladını öldürməyin». Dedim: “Sonra hansı?”. O dedi: «Qonşunun zövcəsi ilə zina etməyin»[1].

Ubadə bin Samit, Allah ondan razı olsun, rəvayət edir ki, Allahın rəsulu, sallallahu aleyhi və sələm, belə demişdir:

«خُذُوا عَنِّي، خُذُوا عَنِّي، الْبِكْرُ بِالْبِكْرِ جَلْدُ مِائَةٍ وَنَفْيُ سَنَةٍ، وَالثَّيِّبُ بِالثَّيِّبِ جَلْدُ مِائَةٍ وَالرَّجْمُ».

«Məndən götürün, məndən götürün. Zina edən bakirə qadın və subay kişinin cəzası yüz çubuq və bir il müddətinə sürgün edilməsidir, zina edən evli kişi və qadının cəzası isə yüz çubuq və daşqalaq edilməsidir»[2].

Zinanın bütün növləri haramdır və böyük günahlardan biridir. Lakin zinanın bəzi növlərinin günahı Uca Allah qatında digərlərindən daha böyükdür. Zinanın ən şiddətli və Uca Allahın ən çox nifrət etdiyi növləri isə aşağıdakılardır:

- Məhrəmlərlə zina etmək. Bəra bin Azib, Allah ondan razı olsun, demişdir:

«لَقِيتُ عَمِّي وَمَعَهُ رَايَةٌ، فَقُلْتُ لَهُ: أَيْنَ تُرِيدُ؟ قَالَ: بَعَثَنِي رَسُولُ اللَّهِ ﷺ إِلَى رَجُلٍ نَكَحَ امْرَأَةَ أَبِيهِ، فَأَمَرَنِي أَنْ أَضْرِبَ عُنُقَهُ، وَآخُذَ مَالَهُ».

«Əmimə rast gəldim, əlində bir bayraq var idi. Ona dedim: “Hara gedirsən?” Dedi: “Allah rəsulu, sallallahu aleyhi va sələm, məni atasının arvadı ilə

[1] Hədisi Buxari: (4477) və Müslim: (86) rəvayət etmişdir.
[2] Hədisi Müslim: (1690) rəvayət etmişdir.

evlənən bir kişinin yanına göndərib və onun boynunu vurub malını götürməyimi əmr etdi»[1].

- Qonşunun zövcəsi ilə zina etmək. Miqdad bin Əsvəd, Allah ondan razı olsun, belə demişdir:

سَأَلَ رَسُولُ اللَّهِ ﷺ أَصْحَابَهُ عَنِ الزِّنَا؟ قَالُوا: حَرَامٌ، حَرَّمَهُ اللَّهُ وَرَسُولُهُ، فَقَالَ: «لَأَنْ يَزْنِيَ الرَّجُلُ بِعَشْرِ نِسْوَةٍ، أَيْسَرُ عَلَيْهِ مِنْ أَنْ يَزْنِيَ بِامْرَأَةِ جَارِهِ».

Allahın rəsulu, salləllahu aleyhi va səlləm, səhabələrindən zina haqqında soruşdu. (Səhabələr) dedilər: "Haramdır, Allah və Onun rəsulu onu haram etmişdir". O buyurdu: "Kişinin on qadınla zina etməsi, onun üçün qonşusunun zövcəsi ilə zina etməsindən daha yüngüldür"[2].

- Mücahidlərin xanımları ilə zina etmək. Süleyman bin Bureydə atasından, Allah ondan razı olsun, rəvayət edir ki, Allah rəsulu, sallallahu aleyhi və səlləm, belə demişdir:

«حُرْمَةُ نِسَاءِ الْمُجَاهِدِينَ عَلَى الْقَاعِدِينَ كَحُرْمَةِ أُمَّهَاتِهِمْ، وَمَا مِنْ رَجُلٍ مِنَ الْقَاعِدِينَ يَخْلُفُ رَجُلًا مِنَ الْمُجَاهِدِينَ فِي أَهْلِهِ فَيَخُونُهُ فِيهِمْ، إِلَّا وَقَفَ لَهُ يَوْمَ الْقِيَامَةِ، فَيَأْخُذُ مِنْ عَمَلِهِ مَا شَاءَ، فَمَا ظَنُّكُمْ؟».

«Mücahidlərin qadınlarının haramlığı cihadda iştirak etməyənlərə öz analarının haramlığı kimidir. Cihadda iştirak etməyənlərdən bir kişi mücahidlərdən birinin ailəsinə baxmaq üçün onun yerində qalıb onlara xəyanət edərsə, Qiyamət günü (həmin mücahid) onun qarşısında durdurular və o,

---

[1] Hədisi Əbu Davud: (4457) rəvayət etmişdir.
[2] Hədisi Buxari "əl-Ədəbul-Mufrad" kitabında: (103) rəvayət etmişdir.

(xəyanət edənin) əməlindən istədiyini götürər. Bəs siz nə zənn edirsiniz?»[1].

- Yaşlı kişilərin zina etməsi. Əbu Hureyrə, Allah ondan razı olsun, rəvayət edir ki, Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«ثَلَاثَةٌ لَا يُكَلِّمُهُمُ اللَّهُ يَوْمَ الْقِيَامَةِ وَلَا يُزَكِّيهِمْ، وَلَا يَنْظُرُ إِلَيْهِمْ، وَلَهُمْ عَذَابٌ أَلِيمٌ: شَيْخٌ زَانٍ، وَمَلِكٌ كَذَّابٌ، وَعَائِلٌ مُسْتَكْبِرٌ».

«Üç kimsə var ki, Allah Qiyamət günü onlarla danışmayacaq, onları (günahlardan) təmizə çıxarmayacaq, onlara nəzər salmayacaq və onlar üçün ağrılı bir əzab vardır: zina edən qoca, yalançı hökmdar və təkəbbürlü kasıb»[2].

## Zərərləri:

Zinanın bir çox zərərləri vardır. Onlardan bəziləri aşağıdakılardır:

- Qul zina etdiyi zaman iman ondan uzaqlaşar, tövbə etdikdə isə iman ona geri qayıdar. Əbu Hureyrə, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«إِذَا زَنَى الرَّجُلُ خَرَجَ مِنْهُ الإِيمَانُ كَانَ عَلَيْهِ كَالظُّلَّةِ، فَإِذَا انْقَطَعَ رَجَعَ إِلَيْهِ الإِيمَانُ».

---

[1] Hədisi Müslim: (1897) rəvayət etmişdir.
[2] Hədisi Müslim: (172) rəvayət etmişdir.

«Kişi zina etdiyi vaxt iman ondan çıxar və bir kölgə kimi başının üzərində dayanar. Zina edib qutardıqda isə iman ona geri qayıdar»[1].

- Zina, Allahın qəzəbinə, nifrətinə və əzabına səbəbdir.

- Dünyada şəri cəzanı gərəkdirir. Bu cəza, evli olduğu təqdirdə ölənə qədər daşqalaq edilməsi (rəcm), bakirə olduğu təqdirdə isə yüz çubuq vurulmasıdır.

- Zina nəsillərin bir-birinə qarışmasına, ailələrin dağılmasına, onların arasında yadlıq yaranmasına və cəmiyyətin məhv etməsinə səbəb olur.

- Əvvəlki dövrlərdə mövcud olmayan xəstəliklərin, məsələn: QİÇS xəstəliyinin ortaya çıxması.

- Zina, həyanı və əmanəti aradan aparır.

## Qorunma:

Zina günahına düşməkdən qorunmağın yolları:

- Evlənmək zinadan qorunmağın ən güclü səbəblərindən biridir. Kim evlənə bilmirsə, oruc tutsun. Abdullah bin Məsud, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, buyurmuşdur:

«مَنِ اسْتَطَاعَ البَاءَةَ فَلْيَتَزَوَّجْ، فَإِنَّهُ أَغَضُّ لِلْبَصَرِ، وَأَحْصَنُ لِلْفَرْجِ، وَمَنْ لَمْ يَسْتَطِعْ فَعَلَيْهِ بِالصَّوْمِ، فَإِنَّهُ لَهُ وِجَاءٌ».

[1] Hədisi Əbu Davud: (4690) rəvayət etmişdir.

"Kim evlənə bilirsə, evlənsin. Çünki evlənmək, gözü harama baxmaqdan, ayıb yerlərini isə zinadan qoruyur. Kim evlənə bilmirsə, oruc tutsun. Həqiqətən oruc şəhvəti qırır"[1].

- Əzaları qorumaq, baxışları aşağı salmaq. Necə ki, Uca Allah buyurur:

﴿قُل لِّلْمُؤْمِنِينَ يَغُضُّوا۟ مِنْ أَبْصَٰرِهِمْ وَيَحْفَظُوا۟ فُرُوجَهُمْ ۚ ذَٰلِكَ أَزْكَىٰ لَهُمْ ۗ إِنَّ ٱللَّهَ خَبِيرٌۢ بِمَا يَصْنَعُونَ 30 وَقُلْ لِلْمُؤْمِنَاتِ يَغْضُضْنَ مِنْ أَبْصَارِهِنَّ وَيَحْفَظْنَ فُرُوجَهُنَّ...﴾

"Mömin kişilərə de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər və ayıb yerlərini (zinadan) qorusunlar. Bu onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır.

Mömin qadınlara da de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər və ayıb yerlərini (zinadan) qorusunlar...". (Nur 24 surəsi, ayələr 30-31). Əbu Hureyra, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«إِنَّ اللَّهَ كَتَبَ عَلَى ابْنِ آدَمَ حَظَّهُ مِنَ الزِّنَا، أَدْرَكَ ذَلِكَ لَا مَحَالَةَ، فَزِنَا العَيْنِ النَّظَرُ، وَزِنَا اللِّسَانِ المَنْطِقُ، وَالنَّفْسُ تَمَنَّى وَتَشْتَهِي، وَالفَرْجُ يُصَدِّقُ ذَلِكَ أَوْ يُكَذِّبُهُ».

«Allah Adəm övladına zinadan olan payını yazmışdır. O, bununla mütləq qarşılaşacaqdır. Gözün zinası baxmaq, dilin zinası danışmaqdır.

[1] Hədisi Buxari: (1905) və Müslim: (1400) rəvayət etmişdir.

Nəfs arzulayar və istəyər, övrət yeri isə bunu ya təsdiq ya da təkzib edər»[1].

- Naməhrəm qadınla tək qalmamaq. İbn Abbas, Allah onlardan razı olsun, demişdir: mən peyğəmbərin, sallallahu aleyhi və səlləm, belə buyurduğunu eşitdim:

«لَا يَخْلُوَنَّ رَجُلٌ بِامْرَأَةٍ إِلَّا وَمَعَهَا ذُو مَحْرَمٍ».

"Bir kişi bir qadınla yanında məhrəmi olmadan təklikdə qalmasın"[2].

- Müsəlman qadının, Allahın "Nur" və "Əhzab" surələrində əmr etdiyi hicaba əməl etməsi və şəriətin qadağan etdiyi açıq-saçıqlıqdan çəkinməsi.

- Əxlaqsız saytlara daxil olmaqdan, habelə pis kişi və qadın dostlarla əlaqə saxlamaqdan çəkinmək.

- Tövbənin üç şərtinə riayət etməyə təşviq etmək (zinanı tərk etmək, peşman olmaq və bir daha ona qayıtmamağa qəti qərar vermək). Uca Allah Rəhmanın qullarını vəsf edərək belə buyurmuşdur:

﴿...وَلَا يَزْنُونَ وَمَن يَفْعَلْ ذَٰلِكَ يَلْقَ أَثَامًا 68 يُضَٰعَفْ لَهُ ٱلْعَذَابُ يَوْمَ ٱلْقِيَٰمَةِ وَيَخْلُدْ فِيهِۦ مُهَانًا 69 إِلَّا مَن تَابَ وَءَامَنَ وَعَمِلَ عَمَلًا صَٰلِحًا فَأُوْلَٰٓئِكَ يُبَدِّلُ ٱللَّهُ سَيِّـَٔاتِهِمْ حَسَنَٰتٍ وَكَانَ ٱللَّهُ غَفُورًا رَّحِيمًا 70﴾

"... onlar zina etməzlər. Kim bunu edərsə cəzaya məruz qalar.

Qiyamət günü onun əzabı qat-qat artırılar və onun (əzabın) içində zəlil olaraq əbədi qalar.

---

[1] Hədisi Buxari: (6612) və Müslim: (2657) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (3006) və Müslim: (1341) rəvayət etmişdir.

Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir!". (Furqan 25 surəsi, ayələr 68-70).

## Oğurluq etmək.

Oğurluq, insanın əmanətinə və dininə xələl gətirən ən böyük günahlardan biridir. Uca Allah bunun üçün, şərtləri ödənildikdə əlin kəsilməsi olan hədd cəzasını vacib etmiş, bu böyük günahı törətdiyi zaman oğrunun imanını aradan qaldırmış və ona lənət etmişdir.

Hökmləri fərqli olsa da, oğurluqla əlaqəli olan ixtiləs (xəlvətcə götürmək), qarət və cibgirlik kimi başqa növlər də vardır və bu çirkin əməllərdən hər birinin öz hökmü və cəzası vardır.

### Dəlillər:

Oğurluğun haram olmasını, onun çirkinliyini və günahının böyüklüyünü bildirən dəlillər çoxdur. Bunlardan bəziləri aşağıdakılardır:

Uca Allah buyurur:

﴿وَٱلسَّارِقُ وَٱلسَّارِقَةُ فَٱقۡطَعُوٓاْ أَيۡدِيَهُمَا جَزَآءَۢ بِمَا كَسَبَا نَكَٰلٗا مِّنَ ٱللَّهِۗ وَٱللَّهُ عَزِيزٌ حَكِيمٞ 38﴾

"Oğru kişinin və oğru qadının, etdikləri əməlin cəzası və Allahdan bir ibrət olaraq (sağ) əllərini kəsin! Allah qüdrətlidir, hikmət sahibidir". (Maidə 5 surəsi, ayə 38).

İbn Şihab əz-Zühri demişdir: "Allah, insanların mallarının oğurlanmasına görə əl kəsməyi ibrət

olaraq cəza təyin etmişdir. Allah oğrunu cəzalandırmasında qüdrətlidir, onun əlini kəsməyi vacib etməsində isə hikmət sahibidir"[1].

Əbu Hureyrə, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«لَا يَزْنِي الزَّانِي حِينَ يَزْنِي وَهُوَ مُؤْمِنٌ، وَلَا يَسْرِقُ حِينَ يَسْرِقُ وَهُوَ مُؤْمِنٌ».

"Zina edən kimsə zina etdiyi vaxt mömin olmaz. Oğurluq edən kimsə oğurluq etdiyi vaxt mömin olmaz"[2].

Əbu Hureyrə, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«لَعَنَ اللَّهُ السَّارِقَ، يَسْرِقُ الْبَيْضَةَ فَتُقْطَعُ يَدُهُ، وَيَسْرِقُ الْحَبْلَ فَتُقْطَعُ يَدُهُ».

"Yumurta oğurladığına görə əli kəsilən, həmçinin ip oğurladığına görə əli kəsilən oğruya Allah lənət etmişdir!"[3].

Aişə, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə demişdir:

«تُقْطَعُ الْيَدُ فِي رُبُعِ دِينَارٍ فَصَاعِدًا».

"(Oğru) əl, dörddə bir dinara və bundan artığına görə kəsilir"[4].

---

[1] Zəhəbinin "əl-Kəbəir" kitabı, (səh: 97).
[2] Hədisi Buxari: (2475) və Müslim: (75) rəvayət etmişdir.
[3] Hədisi Buxari: (6810) və Müslim: (1687) rəvayət etmişdir.
[4] Hədisi Buxari: (6789) və Müslim: (1684) rəvayət etmişdir.

Urva bin Zubeyr rəvayət edir ki, peyğəmbərin, sallallahu aleyhi va səlləm, zamanında Fəth döyüşündə bir qadın oğurluq etmişdir. Qadının qövmü bundan narahat olub şəfaətçi olması üçün Usamə bin Zeydin yanına gəldilər. Urva dedi: Usamə bu barədə peyğəmbərlə, sallallahu aleyhi va səlləm, danışdıqda, peyğəmbərin, sallallahu aleyhi və səlləm, üzünün rəngi dəyişdi və belə dedi:

«أَتُكَلِّمُنِي فِي حَدٍّ مِنْ حُدُودِ اللَّهِ»، قَالَ أُسَامَةُ: اسْتَغْفِرْ لِي يَا رَسُولَ اللَّهِ، فَلَمَّا كَانَ العَشِيُّ قَامَ رَسُولُ اللَّهِ خَطِيبًا، فَأَثْنَى عَلَى اللَّهِ بِمَا هُوَ أَهْلُهُ، ثُمَّ قَالَ: «أَمَّا بَعْدُ، فَإِنَّمَا أَهْلَكَ النَّاسَ قَبْلَكُمْ: أَنَّهُمْ كَانُوا إِذَا سَرَقَ فِيهِمُ الشَّرِيفُ تَرَكُوهُ، وَإِذَا سَرَقَ فِيهِمُ الضَّعِيفُ أَقَامُوا عَلَيْهِ الحَدَّ، وَالَّذِي نَفْسُ مُحَمَّدٍ بِيَدِهِ، لَوْ أَنَّ فَاطِمَةَ بِنْتَ مُحَمَّدٍ سَرَقَتْ لَقَطَعْتُ يَدَهَا»، ثُمَّ أَمَرَ رَسُولُ اللَّهِ ﷺ بِتِلْكَ المَرْأَةِ فَقُطِعَتْ يَدُهَا، فَحَسُنَتْ تَوْبَتُهَا بَعْدَ ذَلِكَ وَتَزَوَّجَتْ، قَالَتْ عَائِشَةُ رضي الله عنها: "فَكَانَتْ تَأْتِي بَعْدَ ذَلِكَ فَأَرْفَعُ حَاجَتَهَا إِلَى رَسُولِ اللَّهِ ﷺ".

"Sən Allahın hədlərindən biri barəsində mənimlə danışırsan?". Usamə dedi: "Ey Allahın elçisi, mənim üçün bağışlanma dilə!". Axşam olduqda Allahın elçisi xütbə vermək üçün ayağa qalxdı. O, Allaha layiq olduğu şəkildə həmd-səna etdikdən sonra belə buyurdu: "Bundan sonra, sizdən əvvəlki insanları həlak edən bu idi ki, onların arasından tanınmış biri oğurluq etdikdə onu buraxar, zəif biri oğurluq etdikdə isə ona hədd cəzası tətbiq edərdilər. Muhəmmədin canı Əlində Olana and olsun ki, əgər Muhəmmədin qızı Fatimə oğurluq etsəydi, onun əlini kəsərdim". Sonra Allah rəsulu, sallallahu əleyhi va səlləm, o qadın haqqında əmr etdi və onun əli kəsildi. Bundan sonra onun tövbəsi

gözəl oldu və o, ailə həyatı qurdu. Aişə, Allah ondan razı olsun, dedi: "Bundan sonra o qadın gələrdi və mən onun ehtiyacını Allah rəsuluna, sallallahu əleyhi va səlləm, çatdırardım"[1].

Əlin kəsilməsi olan bu ağır cəza, başqasının malına təcavüz etməyə görədir. Bu cəza, insanların mallarını oğurlamaq istəyənlər üçün çəkindirici bir ibrət, həmçinin oğrunun günahından təmizlənməsi, cəmiyyətdə əmin-amanlıq və sabitliyin bərqərar olması və insanların mallarının qorunmasıdır.

## Zərərləri:

Oğurluq etməyin bir çox zərərləri vardır, onlardan bəziləri aşağıdakılardır:

-Oğurluq etmək kamil imana ziddir. Buna dəlil əvvəlki hədisdir: "Oğurluq edən kimsə oğurluq etdiyi vaxt mömin olmaz".

- Tövbə etməyən oğruya, dünyadakı rüsvayçılıqdan əlavə, Axirətdə də əzab vəd edilmişdir.

- Oğrunun əlinin kəsilməsinə səbəbdir.

- Oğru duasının qəbulundan məhrum edilir. Əbu Hureyra, Allah ondan razı olsun, demişdir:

«ذَكَرَ رَسُولُ اللَّهِ ﷺ الرَّجُلَ يُطِيلُ السَّفَرَ أَشْعَثَ أَغْبَرَ، يَمُدُّ يَدَيْهِ إِلَى السَّمَاءِ، يَا رَبِّ، يَا رَبِّ، وَمَطْعَمُهُ حَرَامٌ، وَمَشْرَبُهُ حَرَامٌ، وَمَلْبَسُهُ حَرَامٌ، وَغُذِّيَ بِالْحَرَامِ، فَأَنَّى يُسْتَجَابُ لِذَلِكَ».

[1] Hədisi Buxari: (4304) və Müslim: (1688) rəvayət etmişdir.

Peyğəmbər, sallallahu əleyhi va səlləm, uzun müddətli səfərə çıxmış, saçları dağınıq, üst-başı da toz-torpaq içində olan və bu halda əllərini göyə qaldırıb: “Ya Rəbb, ya Rəbb!”– deyə yalvaran birisini xatırlatdı və buyurdu: “Onun yediyi haram, içdiyi haram, geydiyi haram – haramla qidalanmışdır. Beləsinin duası necə qəbul ola bilər?!”[1].

- Bu, nəfsin alçaqlığına və mənəvi səviyyəsinin aşağı olduğuna dəlalət edir.

- İnsanlar oğruya heç bir şeyi — hətta dəyərsiz bir şeyi belə — etibar etməzlər.

## Qorunma:

Oğurluğa düşməkdən qorunma yolları:

- Oğrunun əlinin kəsilməsi (şəri həddi tətpiq etmək), cəmiyyətdə oğurluğun qarşısını almağın ən güclü səbəblərindən biridir.

- Əmanəti qorumağa həvəsləndirmək və oğurluq və bu kimi əməllərlə xəyanət etməkdən çəkindirmək.

- Halal ruzinin bütün ailəyə olan bərəkətini, oğurluğun şərini və onun bütün ailəyə olan təsirini yada salmaq.

- Uşaqları iffətli olmağa, başqalarının haqqına və malına təcavüz etməməyə tərbiyə etmək, Şeytanın ona oğurluq etməyi vəsvəsə etməməsi üçün uşağın

[1] Hədisi Müslim: (1015) rəvayət etmişdir.

əsas ehtiyaclarını təmin etmək və onu bu cür davranışları gözəl göstərən pis dostlardan uzaqlaşdırmaq.

- Haram ruzidən və onun yollarından çəkinərək halal ilə kifayətlənmək, bu yolda səy göstərmək və Uca Allaha dua etmək. Peyğəmbər, sallallahu aleyhi va səlləm, də bu barədə belə buyurmuşdur:

«اللَّهُمَّ اكْفِنِي بِحَلَالِكَ عَنْ حَرَامِكَ، وَأَغْنِنِي بِفَضْلِكَ عَمَّنْ سِوَاكَ».

«اللَّهُمَّ اكْفِنِي بِحَلَالِكَ عَنْ حَرَامِكَ، وَأَغْنِنِي بِفَضْلِكَ عَمَّنْ سِوَاكَ»: [Allahummə-kfiniy bi-həlalikə an həramikə va əğniniy bifadlikə ammən si-vakə] - "Allahım! Məni Öz halalınla kifayət-ləndirib haramına möhtac etmə! Məni Öz lüt-fünlə Özündən başqasına möhtac etmə!"[1].

## İçki (şərab) içmək.

Şərab, şəriətin haram etdiyi və onu içəni, eləcə də hazırlanmasında, satılmasında, daşınmasında, təqdim edilməsində və ya başqa bir şəkildə iştirak edəni lənətlədiyi pis əməllərdəndir. Şərab içmək, sahibini dünyada pis aqibətlərə düçar etməklə yanaşı, axirətdə də şiddətli əzaba məruz qoyan böyük günahlardan biridir.

Peyğəmbər, sallallahu aleyhi va səlləm, şərab içilməsinin geniş yayılmasının Qiyamət gününün əlamətlərindən biri olduğunu xəbər vermişdir. Ənəs bin Malik, Allah ondan razı olsun, rəvayət edir

[1] Hədisi Tirmizi: (3563) rəvayət etmişdir.

ki, Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«مِنْ أَشْرَاطِ السَّاعَةِ أَنْ يُرْفَعَ العِلْمُ، وَيُثْبَتَ الجَهْلُ، وَيُشْرَبَ الخَمْرُ، وَيَظْهَرَ الزِّنَا».

"Qiyamətin əlamətlərindən, elmin aradan qalxması, cəhalətin yayılması, haram içkilərin içilməsi və zinanın baş almasıdır"[1].

Sərxoş edən və ağlı başdan alan hər bir şey, məsələn: narkotik maddələrin və həşişin bütün növləri spirtli içki (xamr) hökmündədir. Bunların hamısı haramdır və onlardan hər hansı birini qəbul etmək icazəli deyil. Abdullah bin Ömər, Allah onların hər ikisindən razı olsun, rəvayət edir ki, Allahın rəsulu, sallallahu aleyhi və səlləm, belə buyurmuşdur:

«كُلُّ مُسْكِرٍ خَمْرٌ، وَكُلُّ مُسْكِرٍ حَرَامٌ، وَمَنْ شَرِبَ الخَمْرَ فِي الدُّنْيَا فَمَاتَ وَهُوَ يُدْمِنُهَا وَلَمْ يَتُبْ، لَمْ يَشْرَبْهَا فِي الآخِرَةِ».

“Hər bir sərxoşedici, alkaqollu içkidir və hər bir sərxoşedici haramdır. Kim dünyada sərxoşedici içkiyə aludə olub onu daima içərsə və tövbə etmədən ölərsə, onu axirətdə içməyəcəkdir”[2].

## Dəlillər:

Şərabın haram olmasının, onun çirkinliyinin və günahının böyüklüyünün dəlilləri çoxdur. Onlardan bəziləri bunlardır:

[1] Hədisi Buxari: (80) və Müslim: (2671) rəvayət etmişdir.
[2] Hədisi Müslim: (2003) rəvayət etmişdir.

Uca Allah buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِنَّمَا ٱلۡخَمۡرُ وَٱلۡمَيۡسِرُ وَٱلۡأَنصَابُ وَٱلۡأَزۡلَٰمُ رِجۡسٞ مِّنۡ عَمَلِ ٱلشَّيۡطَٰنِ فَٱجۡتَنِبُوهُ لَعَلَّكُمۡ تُفۡلِحُونَ 90 إِنَّمَا يُرِيدُ ٱلشَّيۡطَٰنُ أَن يُوقِعَ بَيۡنَكُمُ ٱلۡعَدَٰوَةَ وَٱلۡبَغۡضَآءَ فِي ٱلۡخَمۡرِ وَٱلۡمَيۡسِرِ وَيَصُدَّكُمۡ عَن ذِكۡرِ ٱللَّهِ وَعَنِ ٱلصَّلَوٰةِۖ فَهَلۡ أَنتُم مُّنتَهُونَ 91﴾

"Ey iman gətirənlər! Şübhəsiz ki, şərab da, qumar da, (ibadət üçün) dik qoyulmuş bütlət (və ya daşlar) da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız.

Həqiqətən, şeytan şərab və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı anmaqdan və namazdan ayırmaq istər. Bunlara son qoyacaqsınızmı?". (Maidə 5 surəsi, ayələr 90-91).

Ənəs bin Məlik, Allah ondan razı olsun, belə demişdir:

«كُنْتُ سَاقِيَ الْقَوْمِ يَوْمَ حُرِّمَتِ الخَمْرُ فِي بَيْتِ أَبِي طَلْحَةَ، فَإِذَا مُنَادٍ يُنَادِي، فَقَالَ: اخْرُجْ فَانْظُرْ، فَخَرَجْتُ فَإِذَا مُنَادٍ يُنَادِي: أَلَا إِنَّ الخَمْرَ قَدْ حُرِّمَتْ، فَقَالَ لِي أَبُو طَلْحَةَ: اخْرُجْ فَأَهْرِقْهَا، فَأَهْرَقْتُهَا، فَجَرَتْ فِي سِكَكِ المَدِينَةِ».

"Şərab haram edilən gün mən Əbu Talhanin evində qonaqlara şərab süzürdüm. Birdən bir carçının səsi eşidildi. Əbu Talha: "Çıx, bax" – dedi. Mən çölə çıxdım və bir carçının: "Bilin! Artıq şərab haram edilmişdir" – deyə səsləndiyini eşitdim. Əbu Talha mənə dedi: "Çıx və onu tök". Mən də onu tökdüm və şərab Mədinənin küçələrindən axdı"[1].

---

[1] Hədisi Buxari: (2464) və Müslim: (1980) rəvayət etmişdir.

Əbu Hureyrə, Allah ondan razı olsun, demişdir ki, peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«لَا يَزْنِي الزَّانِي حِينَ يَزْنِي وَهُوَ مُؤْمِنٌ، وَلَا يَشْرَبُ الخَمْرَ حِينَ يَشْرَبُ وَهُوَ مُؤْمِنٌ».

«Zina edən kimsə zina etdiyi vaxt mömin olmaz. Şərab içən kimsə şərab içdiyi vaxt mömin olmaz»[1].

Abdullah bin Ömər, Allah onların hər ikisindən razı olsun, rəvayət edir ki, Allah rəsulu, sallallahu aleyhi və səlləm, belə demişdir:

«لَعَنَ اللَّهُ الخَمْرَ، وَشَارِبَهَا، وَسَاقِيَهَا، وَبَائِعَهَا، وَمُبْتَاعَهَا، وَعَاصِرَهَا، وَمُعْتَصِرَهَا، وَحَامِلَهَا، وَالمَحْمُولَةَ إِلَيْهِ».

"Allah şəraba, onu içənə, süzənə, satana, alana, hazırlayana, hazırlatdırana, daşıyana və özünə daşınana - lənət etmişdir"[2].

Əbu Dərda, Allah ondan razı olsun, rəvayət edir ki, Xəlilim, sallallahu aleyhi va səlləm, mənə tövsiyə etmişdir:

«لَا تَشْرَبِ الخَمْرَ، فَإِنَّهَا مِفْتَاحُ كُلِّ شَرٍّ».

"Sərxoşedici içki içmə, çünki o, hər bir şərin açarıdır"[3].

Əbu Dərda, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«لَا يَدْخُلُ الجَنَّةَ، مُدْمِنُ خَمْرٍ».

---

1 Hədisi Buxari: (2475) və Müslim: (100) rəvayət etmişdir.
2 Hədisi Əbu Davud: (3674) rəvayət etmişdir.
3 Hədisi İbn Macə: (3371) rəvayət etmişdir.

"Sərxoşedici içkiyə aludə olan Cənnətə daxil olmaz"[1].

## Zərərləri:

Bu böyük günahın nəticəsində meydana gələn cəzalar və təhlükələrdən bəziləri bunlardır:

- Şərab içən kəsin qırx gün namazı qəbul olunmaz. Çünki Abdullah bin Amrdan, Allah onların hər ikisindən razı olsun, rəvayət edilir ki, Allah rəsulu, sallallahu aleyhi və səlləm, demişdir:

«مَنْ شَرِبَ الخَمْرَ لَمْ تُقْبَلْ لَهُ صَلَاةٌ أَرْبَعِينَ صَبَاحًا، فَإِنْ تَابَ تَابَ اللَّهُ عَلَيْهِ، فَإِنْ عَادَ لَمْ يَقْبَلِ اللَّهُ لَهُ صَلَاةً أَرْبَعِينَ صَبَاحًا، فَإِنْ تَابَ تَابَ اللَّهُ عَلَيْهِ، فَإِنْ عَادَ لَمْ يَقْبَلِ اللَّهُ لَهُ صَلَاةً أَرْبَعِينَ صَبَاحًا، فَإِنْ تَابَ تَابَ اللَّهُ عَلَيْهِ، فَإِنْ عَادَ الرَّابِعَةَ لَمْ يَقْبَلِ اللَّهُ لَهُ صَلَاةً أَرْبَعِينَ صَبَاحًا، فَإِنْ تَابَ لَمْ يَتُبِ اللَّهُ عَلَيْهِ، وَسَقَاهُ مِنْ نَهْرِ الخَبَالِ» قِيلَ: يَا أَبَا عَبْدِ الرَّحْمَنِ: وَمَا نَهْرُ الخَبَالِ؟ قَالَ: نَهْرٌ مِنْ صَدِيدِ أَهْلِ النَّارِ.

«Kim şərab içərsə, Allah onun qırx gün namazını qəbul etməz. Əgər tövbə edərsə, Allah onun tövbəsini qəbul edər. Əgər yenidən (bu günaha) qayıdarsa, Allah onun qırx gün namazını qəbul etməz. Əgər tövbə edərsə, Allah onun tövbəsini qəbul edər. Əgər yenidən (bu günaha) qayıdarsa, Allah onun qırx gün namazını qəbul etməz. Əgər tövbə edərsə, Allah onun tövbəsini qəbul edər. Əgər dördüncü dəfə (bu günaha) qayıdarsa, Allah onun qırx gün namazını qəbul etməz. Bu dəfə tövbə etsə də, Allah onun tövbəsini qəbul etməz və ona Xəbal çayından içirdər». Soruşdular: "Ey Əbu

[1] Hədisi İbn Macə: (3376) rəvayət etmişdir.

Abdurrahman! Xəbal çayı nədir?”. Dedi: “Cəhənnəm əhlinin irinindən olan bir çaydır”[1].

- Onu içən kimsə tövbə etmədən ölərsə, Axirətdə şərab ona haram olar. Abdullah bin Ömər, Allah onların hər ikisindən razı olsun, Allahın elçisinin, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurduğunu rəvayət edir:

«مَنْ شَرِبَ الخَمْرَ فِي الدُّنْيَا ثُمَّ لَمْ يَتُبْ مِنْهَا، حُرِمَهَا فِي الآخِرَةِ».

"Kim dünyada sərxoşedici içki içib, ondan tövbə etməzsə, axirətdə ondan məhrum ediləcəkdir"[2].

- Şərab içmək müsəlmanlar arasında ədavət, kin salır və bir çox ailələri dağıdır. Belə ki, bir çox boşanma hallarının və övladların pərən-pərən düşməsinin səbəbi içki aludəçiliyidir. İçki içib ağlını itirən şəxs şüursuz vəziyyətə düşür və bədənləri lərzəyə gətirən böyük günahlar törədə bilər. Çünki şərab bütün pisliklərin anası (əsası) və hər bir şərin açarıdır.

- Şərab, onu qəbul edənin mal-dövlətini zərərli və faydasız şeylərə sərf edir və insan (Qiyamət günü) malını haradan qazandığı və haraya xərclədiyi barədə sorğu-sual olunacaqdır. Çünki Əbu Bərzə əl-Əsləmi, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə demişdir:

---

[1] Hədisi Tirmizi: (1862) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (5575) və Müslim: (2003) rəvayət etmişdir.

«لَا تَزُولُ قَدَمَا عَبْدٍ يَوْمَ القِيَامَةِ حَتَّى يُسْأَلَ عَنْ عُمُرِهِ فِيمَا أَفْنَاهُ، وَعَنْ عِلْمِهِ فِيمَ فَعَلَ، وَعَنْ مَالِهِ مِنْ أَيْنَ اكْتَسَبَهُ وَفِيمَ أَنْفَقَهُ، وَعَنْ جِسْمِهِ فِيمَ أَبْلَاهُ».

«Qiyamət günü, heç bir qul həyatını necə keçirməsi, elmi ilə nə işlər görməsi, malını haradan qazanıb hara xərcləməsi və bədənini harada yorduğu haqqında soruşulmadıqca yerindən tərpənməyəcəkdir»[1].

- Şərab içmək qəmləri daha da artırar, problemləri daha da mürəkkəbləşdirər. Bu bekar insanların dediyi kimi sevinc və fərəh gətirmir. Əgər gətirsə belə, bu, saxta və aldadıcı bir sevinc, yalançı bir fərəhdir ki, tez bir zamanda yox olar və onun ardınca uzun müddətlik peşmançılıq, həsrət, qəm və qüssə gələr.

- Sərxoşedici içki qəbul etmək bir çox maddi və mənəvi zərərlərə yol açır. Onun zərərli olmasına təkcə, Uca Allahın insanı şərəfləndirdiyi ağlı aradan aparması belə kifayətdir.

## Qorunma:

Ondan istifadə etməkdən və aludəçilikdən qorunma yolları:

- Allahın əmr və qadağalarını uca tutmaq, əmrlərini dərhal yerinə yetirib, qadağalarından çəkinmək. Çünki insan Allahın yaratdıqlarında, qədərində, əmr və qadağan etdiklərindəki kamil rəhmətinə və hikmətinə inanarsa, Rəbbinin bütün

[1] Hədisi Tirmizi: (2417) rəvayət etmişdir.

təlim və hökmlərindən razı qalar, onları gözəl bir şəkildə qəbul edər və heç bir bezginlik və ya sıxıntı hiss etmədən onları yerinə yetirməyə tələsər.

- Sərxoşediciləri qəbul etməyin doğurduğu pis nəticələri, rüsvayçı davranışları, zillət və rəzaləti, xəcalət və peşmançılığı bilmək.

- Dəyişiklik üçün iradəli və israrlı olmaq. Bu, qətiyyət və səy tələb edir.

- Pis dostlardan uzaq olmaq, yaxşı və saleh insanlarla dostluq etmək. Əgər belə edərsə Allahın izni ilə onlardan çoxlu kömək görəcəkdir.

- Spirtli içkiyə və ya narkotik maddələrə aludə olanların müalicəsinə kömək edən bəzi tibbi müalicələr mövcuddur ki, onlardan faydalanmaq, həkimlərə və ixtisaslaşmış mərkəzlərə müraciət etmək olar.

## Riba (sələmçilik).

Sələm ən böyük günahlardan biridir və Allaha və Onun peyğəmbərinə, sallallahu aleyhi və səlləm, qarşı hərb etməkdir. O, bu günahla məşğul olan kəsi dünyada və axirətdə şiddətli zərərlərə məruz qoyur. Həmçinin sələm, iqtisadi həyatı pozur, fərdə və cəmiyyətə mənfi təsir göstərir.

Sələm, ödəmə müddəti müqabilində borcun üzərinə qoyulan artım, həmçinin sələmə düşən iki şeyin mübadiləsindəki artımdır ki, bu da artıq sələm (ribə əl-fadl) adlanır. Nisyə sələm isə, artıq

sələm səbəbi ilə eyni hökmdə olan iki cins malın alqı-satqısında təhvil-təslimin gecikdirilməsidir.

Əbu Səid əl-Xudri, Allah ondan razı olsun, rəvayət edir ki, Allahın rəsulu, sallallahu aleyhi və səlləm, belə demişdir:

«الذَّهَبُ بِالذَّهَبِ، وَالْفِضَّةُ بِالفِضَّةِ، وَالبُرُّ بِالبُرِّ، وَالشَّعِيرُ بِالشَّعِيرِ، وَالتَّمْرُ بِالتَّمْرِ، وَالمِلْحُ بِالمِلْحِ، مِثْلًا بِمِثْلٍ، يَدًا بِيَدٍ، فَمَنْ زَادَ أَوِ اسْتَزَادَ فَقَدْ أَرْبَى، الآخِذُ وَالمُعْطِي فِيهِ سَوَاءٌ».

"Qızılı qızıla, gümüşü gümüşə, buğdanı buğdaya, arpanı arpaya, xurmanı xurmaya, duzu da duza eyni miqdarda və əlbəəl dəyişin. Kim artırarsa yaxud da artırmağı tələb edərsə, artıq sələmə girmişdir. Bu işdə alan da, verən də (günahda) eynidir"[1].

Sələmin müamilələri və yolları çoxdur. Buna görə də müsəlman onları tanımalı, onlardan çəkinməli, uzaq durmalı və hökmünü öyrənməmiş heç bir müamiləyə girişməməlidir.

## Dəlillər:

Kitab və Sünnədə sələmdən çəkindirən bir çox nasslar (şəri dəlillər) varid olmuşdur. Onlardan bəziləri bunlardır:

Uca Allah buyurur:

﴿ٱلَّذِينَ يَأۡكُلُونَ ٱلرِّبَوٰاْ لَا يَقُومُونَ إِلَّا كَمَا يَقُومُ ٱلَّذِي يَتَخَبَّطُهُ ٱلشَّيۡطَٰنُ مِنَ ٱلۡمَسِّۚ ذَٰلِكَ بِأَنَّهُمۡ قَالُوٓاْ إِنَّمَا ٱلۡبَيۡعُ مِثۡلُ ٱلرِّبَوٰاْۗ وَأَحَلَّ ٱللَّهُ ٱلۡبَيۡعَ وَحَرَّمَ ٱلرِّبَوٰاْۚ فَمَن جَآءَهُۥ مَوۡعِظَةٞ مِّن رَّبِّهِۦ فَٱنتَهَىٰ فَلَهُۥ مَا سَلَفَ وَأَمۡرُهُۥٓ إِلَى ٱللَّهِۖ وَمَنۡ عَادَ فَأُوْلَٰٓئِكَ أَصۡحَٰبُ ٱلنَّارِۖ هُمۡ فِيهَا خَٰلِدُونَ 275﴾

[1] Hədisi Buxari: (2177) və Müslim: (1584) rəvayət etmişdir.

"Sələm yeyənlər (qəbirlərindən), şeytan toxunmuş dəlinin qalxdığı kimi qalxarlar. Bu, onların: “Alış-veriş də sələmçilik kimidir!” – demələrinə görədir. Halbuki, Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir. Hər kim özünə Rəbbindən xəbərdarlıq gəldikdən sonra (sələmçiliyə) son qoyarsa, keçmişdə aldığı (sələmlər) onundur. Onun işi Allaha qalar. Kim yenə (sələmçiliyə) qayıdarsa, məhz onlar cəhənnəmlik olar və orada əbədi qalarlar". (Bəqərə 2 surəsi, ayə 275).

İzzət və Cəlal sahibi olan Allah buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ وَذَرُواْ مَا بَقِيَ مِنَ ٱلرِّبَوٰٓاْ إِن كُنتُم مُّؤۡمِنِينَ 278 فَإِن لَّمۡ تَفۡعَلُواْ فَأۡذَنُواْ بِحَرۡبٖ مِّنَ ٱللَّهِ وَرَسُولِهِۦ...﴾

"Ey iman gətirənlər! Allahdan qorxun və əgər möminsinizsə, sələmdən qalan məbləğdən vaz keçin.

Əgər belə etməsəniz, Allahın və Onun rəsulunun sizə müharibə elan etdiyini bilin...". (Bəqərə 2 surəsi, ayələr 278-279).

Pak və Uca olan Allah buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَأۡكُلُواْ ٱلرِّبَوٰٓاْ أَضۡعَٰفٗا مُّضَٰعَفَةٗۖ وَٱتَّقُواْ ٱللَّهَ لَعَلَّكُمۡ تُفۡلِحُونَ 130﴾

"Ey iman gətirənlər! Qat-qat artırılmış sələmi yeməyin! Allahdan qorxun ki, bəlkə, nicat tapasınız". [Əli-İmran 3 surəsi, ayə 130].

Əbu Hureyra, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«اجْتَنِبُوا السَّبْعَ المُوبِقَاتِ» (أي: المُهْلِكات)، قَالوا: يَا رَسُولَ اللهِ وَمَا هُنَّ؟ قَالَ: «الشِّرْكُ بِاللَّهِ، وَالسِّحْرُ، وَقَتْلُ النَّفْسِ الَّتِي حَرَّمَ اللَّهُ إِلَّا بِالْحَقِّ، وَأَكْلُ الرِّبَا، وَأَكْلُ مَالِ اليَتِيمِ، وَالتَّوَلِّي يَوْمَ الزَّحْفِ، وَقَذْفُ المُحْصَنَاتِ المُؤْمِنَاتِ الغَافِلاَتِ».

"Həlak edən (yəni: məhv edən) yeddi günahdan çəkinin!". (Səhabələr) soruşdular: "Nədir onlar, ey Allahın rəsulu?". Peyğəmbər, sallƏllahu aleyhi va səlləm, buyurdu: "Allaha şərik qoşmaq, sehir etmək, Allahın haram buyurduğu canı haqsız yerə öldürmək, sələm yemək, yetimin malını yemək, döyüş meydanından qaçmaq və (zinadan) xəbəri olmayan namuslu və ismətli mömin qadınları zinada ittiham etmək"[1].

Səmura bin Cundəb, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə demişdir:

«رَأَيْتُ اللَّيْلَةَ رَجُلَيْنِ أَتَيَانِي، فَأَخْرَجَانِي إِلَى أَرْضٍ مُقَدَّسَةٍ، فَانْطَلَقْنَا حَتَّى أَتَيْنَا عَلَى نَهْرٍ مِنْ دَمٍ، فِيهِ رَجُلٌ قَائِمٌ، وَعَلَى وَسَطِ النَّهْرِ رَجُلٌ، بَيْنَ يَدَيْهِ حِجَارَةٌ، فَأَقْبَلَ الرَّجُلُ الَّذِي فِي النَّهْرِ، فَإِذَا أَرَادَ الرَّجُلُ أَنْ يَخْرُجَ رَمَى الرَّجُلُ بِحَجَرٍ فِي فِيهِ، فَرَدَّهُ حَيْثُ كَانَ، فَجَعَلَ كُلَّمَا جَاءَ لِيَخْرُجَ رَمَى فِي فِيهِ بِحَجَرٍ، فَيَرْجِعُ كَمَا كَانَ، فَقُلْتُ: مَا هَذَا؟ فَقَالَ: الَّذِي رَأَيْتَهُ فِي النَّهْرِ آكِلُ الرِّبَا».

"Bu gecə yuxumda iki nəfər yanıma gəldi və məni müqəddəs bir torpağa apardılar. Biz yola düşdük və nəhayət qandan olan bir çaya çatdıq. Çayın içində bir kişi dayanmışdı, sahilində isə qarşısında daşlar

---

[1] Hədisi Buxari: (2766) və Müslim: (89) rəvayət etmişdir.

olan başqa bir kişi var idi. Çaydakı kişi (sahilə doğru) irəlilədi. O, çaydan çıxmaq istədikdə, (sahildəki) kişi onun ağzına bir daş atır və onu olduğu yerə geri qaytarırdı. Beləcə, o, hər dəfə çıxmaq üçün gələndə, (sahildəki) onun ağzına bir daş atır, o da olduğu yerə qayıdırdı. Mən: "Bu nədir?" – deyə soruşdum. O: "Çayda gördüyün kəs sələm yeyəndir" – deyə cavab verdi»[1].

## Zərərləri:

Sələmlə müamilə etməyin bir çox zərərləri vardır. Onlardan bəziləri bunlardır:

- Sələm yeyən kimsə, axirətdə şiddətli və ağrılı-acılı bir əzabla hədələnmiş, Uca Allah və Onun peyğəmbəri, sallallahu aleyhi və səlləm, də ona hərb elan etmişdir. Uca Allah buyurur:

﴿فَإِن لَّمۡ تَفۡعَلُواْ فَأۡذَنُواْ بِحَرۡبٖ مِّنَ ٱللَّهِ وَرَسُولِهِۦ...﴾

"Əgər belə etməsəniz, Allahın və Onun rəsulunun sizə müharibə elan etdiyini bilin...". (Bəqərə 2 surəsi, ayə 279).

- O kimsə, Allah rəsulunun, sallallahu aleyhi və səlləm, lənətinə məruz qalmışdır. Cabir bin Abdullah, Allah onların hər ikisindən razı olsun, belə demişdir:

«لَعَنَ رَسُولُ اللَّهِ ﷺ آكِلَ الرِّبَا، وَمُؤْكِلَهُ، وَكَاتِبَهُ، وَشَاهِدَيْهِ، وَقَالَ: هُمْ سَوَاءٌ».

«Peyğəmbər, sallallahu aleyhi və səlləm, sələm yeyəni, yedirdəni, sələmi yazanı və iki şahidini

[1] Hədisi Buxari: (2085) və Müslim: (2275) rəvayət etmişdir.

lənətləmiş və onların hamısı günahda bərabərdirlər, demişdir»[1].

- Bu, insanların mallarını haqsız yerə mənimsəməkdir. Uca Allah buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَأۡكُلُوٓاْ أَمۡوَٰلَكُم بَيۡنَكُم بِٱلۡبَٰطِلِ إِلَّآ أَن تَكُونَ تِجَٰرَةً عَن تَرَاضٖ مِّنكُمۡ...﴾

"Ey iman gətirənlər! Qarşılıqlı razılıqla aparılan ticarət müstəsna olmaqla, mallarınızı öz aranızda haqsız yerə yeməyin...". [Nisa 4 surəsi, ayə 29]. Təbəri bu ayənin mənası barədə belə demişdir: "Ticarət istisna olmaqla, bir-birinizin mallarını sizə haram edilmiş sələm, qumar və Allahın qadağan etdiyi digər bu kimi yollarla yeməyin"[2].

- Sələmdən qazanılan mallar bərəkətsizdir. Uca Allah buyurur:

﴿يَمۡحَقُ ٱللَّهُ ٱلرِّبَوٰاْ وَيُرۡبِي ٱلصَّدَقَٰتِۗ وَٱللَّهُ لَا يُحِبُّ كُلَّ كَفَّارٍ أَثِيمٍ 276﴾

"Allah sələmi puç edər, sədəqələri isə artırar. Allah küfr və günah işlərdə israr edən kimsələri sevməz". [Bəqərə 2 surəsi, ayə 276]. Səadi, Allah ona rəhmət etsin, demişdir: "Allah sələmi məhv edər" - yəni: onun həm özünü, həm də bərəkətini aradan qaldırar, beləliklə bu, həmin malda afətlərin baş verməsinə və ondan bərəkətin çəkilməsinə səbəb olar. Əgər ondan xərcləyərsə, buna görə

[1] Hədisi Müslim: (1598) rəvayət etmişdir.
[2] Təfsir ət-Tabari (6/625).

savab qazanmaz, əksinə, bu, onun üçün Cəhənnəmə aparan bir azuqə olar"[1].

İbn Məsud, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«مَا أَحَدٌ أَكْثَرَ مِنَ الرِّبَا إِلَّا كَانَ عَاقِبَةُ أَمْرِهِ إِلَى قِلَّةٍ».

"Kim sələmlə malını artırarsa, işinin aqibəti azlıqdır"[2].

- Sələm qəlblərə kin-küdurət toxumu səpir, onlardan şəfqət və mərhəməti söküb atır. Bununla da qardaşlıq ölür və cəmiyyət parçalanır.

- Sələm elə bir ictimai cinayətdir ki, hər hansı bir cəmiyyətdə yayıldığı zaman onu məhv edər və bünövrəsini dağıdar.

## Qorunma:

Sələmlə məşğul olmaqdan qorunmağın yolları:

- İmanı gerçəkləşdirmək. Uca Allah buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ لَا تَأْكُلُوا۟ ٱلرِّبَوٰٓا۟ أَضْعَٰفًا مُّضَٰعَفَةً...﴾

"Ey iman gətirənlər! Qat-qat artırılmış sələmi yeməyin!". [Əli-İmran 3 surəsi, ayə 130]. Bu isə ona dəlalət edir ki, iman, əmrə tabe olmağa və qadağadan çəkinməyə sövq edən və bunu zəruri edən səbəbdir. Çünki iman, əzaların əməllərini zəruri edən, təsdiqlənməsi vacib olan şeylərin kamil təsdiqidir[3].

---

1 «Təfsir əs-Səadi» (səh: 117).
2 Hədisi İbn Macə: (2279) rəvayət etmişdir.
3 Bax: «Təfsir əs-Səadi» (səh: 148).

- Təqvanı gerçəkləşdirmək. Uca Allah buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَأۡكُلُواْ ٱلرِّبَوٰٓاْ أَضۡعَٰفٗا مُّضَٰعَفَةٗۖ وَٱتَّقُواْ ٱللَّهَ لَعَلَّكُمۡ تُفۡلِحُونَ 130﴾

"Ey iman gətirənlər! Qat-qat artırılmış sələmi yeməyin! Allahdan qorxun ki, bəlkə, nicat tapasınız". [Əli-İmran surəsi, ayə 130].

- Allahın rəhmətinə nail olmağa çalışmaq. Uca Allah ribanı qadağan etdikdən sonra belə buyurur:

﴿وَأَطِيعُواْ ٱللَّهَ وَٱلرَّسُولَ لَعَلَّكُمۡ تُرۡحَمُونَ 132﴾

"Allaha və (Onun göndərdiyi) rəsula itaət edin ki, bəlkə, sizə rəhm olunsun". [Əli-İmran 3 surəsi, ayə 132].

- Ölümü və Qiyamət gününün dəhşətlərini xatırlatmaq. Uca Allah sələm ayələrindən sonra belə buyurur:

﴿وَٱتَّقُواْ يَوۡمٗا تُرۡجَعُونَ فِيهِ إِلَى ٱللَّهِۖ ثُمَّ تُوَفَّىٰ كُلُّ نَفۡسٖ مَّا كَسَبَتۡ وَهُمۡ لَا يُظۡلَمُونَ 281﴾

"Allahın hüzuruna qaytarılacağınız gündən qorxun! Sonra hər kəsə qazandığının əvəzi veriləcək və onlara zülm edilməyəcəkdir". (Bəqərə 2 surəsi, ayə 281).

- Cəhənnəmdən qorxma. Uca Allah sələmi qadağan etdikdən sonra buyurur:

﴿وَٱتَّقُواْ ٱلنَّارَ ٱلَّتِيٓ أُعِدَّتۡ لِلۡكَٰفِرِينَ 131﴾

"Kafirlər üçün hazırlanmış Oddan qorxun". (Əli-İmran 3 surəsi, ayə 131).

- Şəriət hökmlərini, o cümlədən alış-veriş və sələm hökmlərini öyrənmək. Ömər bin Xəttab,

Allah ondan razı olsun, demişdir: "Bizim bazarımızda dində fəqih olandan başqası satmasın"[1]. Başqa bir ləfizdə belə rəvayət olunur: “Yoxsa, istər-istəməz sələm yemiş olar”[2].

- Haram qazancdan çəkinib halal ruzi ilə kifayətlənmək və Uca Allaha dua etmək. Bu barədə peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«اللَّهُمَّ اكْفِنِي بِحَلَالِكَ عَنْ حَرَامِكَ، وَأَغْنِنِي بِفَضْلِكَ عَمَّنْ سِوَاكَ».

- «اللَّهُمَّ اكْفِنِي بِحَلَالِكَ عَنْ حَرَامِكَ، وَأَغْنِنِي بِفَضْلِكَ عَمَّنْ سِوَاكَ» [Allahummə-kfiniy bi-həlalikə an həramikə va əğniniy bifadlikə ammən si-vakə] - "Allahım! Məni Öz halalınla kifayət-ləndirib - haramına möhtac etmə! Məni Öz lüt-fünlə Özündən başqasına möhtac etmə!"[3].

## Valideynlərin üzünə ağ olmaq.

Valideynlərin üzünə ağ olmaq ən böyük günahlardandır və Uca Allaha şərik qoşmaqdan sonra ən təhlükəlisidir. Buna görə də Uca Allah bir çox ayədə Öz haqqı ilə valideynlərin haqqını birlikdə zikr etmişdir. Onlardan biri də Uca Allahın bu buyruğudur:

﴿وَٱعۡبُدُواْ ٱللَّهَ وَلَا تُشۡرِكُواْ بِهِۦ شَيۡـٔٗاۖ وَبِٱلۡوَٰلِدَيۡنِ إِحۡسَٰنٗا...﴾

1 Hədisi Tirmizi: (487) rəvayət etmişdir.
2 Əl-Əsbəhaninin "ət-Tərğib vat-Tərhib" kitabı: (810).
3 Hədisi Tirmizi: (3563) rəvayət etmişdir.

"Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə yaxşılıq edin...". [Nisa 4 surəsi, ayə 36]. Allah Təbarəkə və Təalə buyurur:

﴿وَوَصَّيۡنَا ٱلۡإِنسَٰنَ بِوَٰلِدَيۡهِ حَمَلَتۡهُ أُمُّهُۥ وَهۡنًا عَلَىٰ وَهۡنٖ وَفِصَٰلُهُۥ فِي عَامَيۡنِ أَنِ ٱشۡكُرۡ لِي وَلِوَٰلِدَيۡكَ إِلَيَّ ٱلۡمَصِيرُ 14﴾

"Biz insana ata-anasının qayğısına qalmağı əmr etdik. Anası onu (bətnində) gündən-günə zəiflədiyinə baxmayaraq daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və valideynlərinə şükür et! Dönüş Mənədir". (Loğman 31 surəsi, ayə 14)

Valideynlərin üzünə ağ olmağın həqiqəti – insanın söz və ya əməllə valideynlərinə əziyyət verməsi yaxud onlara yaxşılıq etməyi tərk etməsidir. Valideynlərin əmrlərinə asi olmaq da bura daxildir. Lakin onlar Allaha şərik qoşmağı və ya Uca Allaha asilik olan bir işi əmr etsələr, bu iki halda onlara itaət etmək olmaz. Çünki Xaliqə asi olaraq - məxluqa itaət etmək olmaz. Bununla yanaşı onlarla mülayim davranmalı və onlara yaxşılıq etməlidir. Uca Allah buyurur:

﴿وَإِن جَٰهَدَاكَ عَلَىٰٓ أَن تُشۡرِكَ بِي مَا لَيۡسَ لَكَ بِهِۦ عِلۡمٞ فَلَا تُطِعۡهُمَاۖ وَصَاحِبۡهُمَا فِي ٱلدُّنۡيَا مَعۡرُوفٗا...﴾

"Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etməyə cəhd göstərsələr, onlara tabe olma! Dünya işlərində onlarla gözəl davran...". (Loğman 31 surəsi, ayə 15).

Kəb əl-Əhbardan, Allah ona rəhmət etsin, valideynlərin üzünə ağ olmağın nə olduğu barədə soruşulduqda, o belə dedi: "O, atası və ya anası ona and içdikdə onların andını yerinə yetirməz, ona bir şey əmr etdikdə onların əmrinə itaət etməz, ondan bir şey istədikdə onlara verməz və ona bir şeyi əmanət etdikdə onlara xəyanət edər"[1].

## Dəlillər:

Valideynlərin üzünə ağ olmağın haram olmasına, bu əməlin çirkinliyinə və günahının böyüklüyünə dair dəlillər çoxdur. Onlardan bəziləri bunlardır:

Uca Allah buyurur:

﴿وَقَضَىٰ رَبُّكَ أَلَّا تَعۡبُدُوٓاْ إِلَّآ إِيَّاهُ وَبِٱلۡوَٰلِدَيۡنِ إِحۡسَٰنًاۚ إِمَّا يَبۡلُغَنَّ عِندَكَ ٱلۡكِبَرَ أَحَدُهُمَآ
أَوۡ كِلَاهُمَا فَلَا تَقُل لَّهُمَآ أُفّٖ وَلَا تَنۡهَرۡهُمَا وَقُل لَّهُمَا قَوۡلٗا كَرِيمٗا 23 وَٱخۡفِضۡ لَهُمَا
جَنَاحَ ٱلذُّلِّ مِنَ ٱلرَّحۡمَةِ وَقُل رَّبِّ ٱرۡحَمۡهُمَا كَمَا رَبَّيَانِي صَغِيرٗا 24﴾

"Rəbbin yalnız Ona ibadət etməyi və valideynlər ilə yaxşı davranmağı əmr etmişdir. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına çatarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə!

Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: “Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!”– de". [İsra 17 surəsi, ayə 23-24].

---

[1] Zəhəbinin "əl-Kəbair" kitabı (səh: 41).

Əbu Bəkratə, Allah ondan razı olsun, rəvayət edir ki, Allah rəsulu, sallallahu aleyhi va səlləm, belə demişdir:

«أَلَا أُنَبِّئُكُمْ بِأَكْبَرِ الكَبَائِرِ؟»، قُلْنَا: بَلَى يَا رَسُولَ اللَّهِ، قَالَ: «الإِشْرَاكُ بِاللَّهِ، وَعُقُوقُ الوَالِدَيْنِ، وَشَهَادَةُ الزُّورِ، أَوْ قَوْلُ الزُّورِ».

"Sizə günahların ən böyüyü barədə xəbər verimmi?" Biz: "Bəli, ey Allahın rəsulu!" – dedik. Peyğəmbər, sallallahu aleyhi və səlləm, buyurdu: "Allaha şərik qoşmaq, valideynlərin üzünə ağ olmaq, yalançı şahidlik etmək və ya yalan söz danışmaq"[1].

Ənəsdən, Allah ondan razı olsun, rəvayət edilir ki, peyğəmbərdən, salləllahu aleyhi va səlləm, böyük günahlar haqqında soruşulduqda, o belə buyurmuşdur:

«الإِشْرَاكُ بِاللَّهِ، وَعُقُوقُ الوَالِدَيْنِ، وَقَتْلُ النَّفْسِ، وَشَهَادَةُ الزُّورِ».

"Allaha şərik qoşmaq, valideynlərin üzünə ağ olmaq, adam öldürmək və yalandan şahidlik etməkdir"[2].

Muğira ibn Şöbə, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«إِنَّ اللَّهَ حَرَّمَ عَلَيْكُمْ عُقُوقَ الأُمَّهَاتِ...».

«Allah sizə, anaların üzünə ağ olmağı haram buyurmuşdur»[3].

---

1 Hədisi Buxari: (2654) və Müslim: (87) rəvayət etmişdir.
2 Hədisi Buxari: (2653) və Müslim: (144) rəvayət etmişdir.
3 Hədisi Buxari: (2408) və Müslim: (593) rəvayət etmişdir.

## Zərərləri:

Valideynlərin üzünə ağ olmağın bir çox zərərləri vardır. Onlardan bəziləri bunlardır:

- Valideynlərin üzünə ağ olmaq, qulun Qiyamət günü Allahın ona nəzər salmasından və Cənnətə daxil olmaqdan məhrum edilməsinin səbəblərindəndir. Abdullah bin Ömər, Allah onlardan razı olsun, rəvayət edir ki, Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurdu:

«ثَلَاثَةٌ لَا يَنْظُرُ اللَّهُ عَزَّ وَجَلَّ إِلَيْهِمْ يَوْمَ القِيَامَةِ: العَاقُّ لِوَالِدَيْهِ، وَالمَرْأَةُ المُتَرَجِّلَةُ، وَالدَّيُّوثُ، وَثَلَاثَةٌ لَا يَدْخُلُونَ الجَنَّةَ: العَاقُّ لِوَالِدَيْهِ، وَالمُدْمِنُ عَلَى الخَمْرِ، وَالمَنَّانُ بِمَا أَعْطَى».

«Üç sinif insan vardır ki, Allah, Azzə va Cəllə, Qiyamət günü onların üzünə baxmayacaq: Valideynlərinin üzünə ağ olan kimsə, özünü kişilərə bənzədən qadın və dəyyus. Və üç sinif insan vardır ki, onlar Cənnətə daxil olmayacaq: Valideynlərinin üzünə ağ olan kimsə, spirtli içkiyə aludə olan kimsə və etdiyi yaxşılığı başa qaxan (minnət qoyanlar) kimsədir»[1].

- Valideynlərinə asi olan kəs, Uca Allahın nemətinə və valideynlərinin yaxşılığına qarşı nankordur. Uca Allah buyurur:

﴿...أَنِ ٱشۡكُرۡ لِي وَلِوَٰلِدَيۡكَ إِلَيَّ ٱلۡمَصِيرُ 14﴾

[1] Hədisi Nəsai: (2562) rəvayət etmişdir.

"Mənə və valideynlərinə şükür et! Dönüş Mənədir". (Loğman 31 surəsi, ayə 14)

- Valideynlərə itaətsizlik etmək insanı Uca Allahın qəzəbinə düçar edən amillərdən biridir. Abdullah bin Ömər, Allah ondan razı olsun, demişdir: "Rəbbin razılığı valideynin razılığındadır, Rəbbin qəzəbi də valideynin qəzəbindədir"[1].

- Valideynlərə itaətsizlik ailədə, nəticədə isə bütün cəmiyyətdə sabitliyi pozur. Çünki valideynlərinə yaxşılıq etməyən kəsə övladları da yaxşılıq etməz, o, qonşularına və cəmiyyətinə də yaxşılıq etməz.

## Qorunma:

Valideynlərin üzünə ağ olmaqdan qorunma yolları:

- Valideynlərə ən kiçik bir əziyyət belə verməkdən çəkinmək. Uca Allah buyurur:

﴿فَلَا تَقُل لَّهُمَآ أُفّٖ﴾،

"Onlara: 'Uf!' belə demə". Bu, əziyyətin ən aşağı dərəcəsidir və bununla digərlərinə də işarə edilmişdir. Mənası isə onlara ən kiçik bir əziyyət belə verməməkdir.

﴿وَلَا تَنۡهَرۡهُمَا﴾

"Üstlərinə qışqırma". Yəni: onları danlama və onlara kobud söz demə.

﴿وَقُل لَّهُمَا قَوۡلٗا كَرِيمٗا﴾

[1] Hədisi Buxari "əl-Ədəb əl-Müfrəd" kitabında: (2) rəvayət etmişdir.

"Onlara xoş söz söylə!". Onlarla sevdikləri bir kəlmə ilə, ədəb və mülayimliklə, qəlblərinə xoş gələn və dinclik bəxş edən yumşaq, gözəl sözlərlə danışmaq lazımdır. Bu isə hallara, adətlərə və zamanlara görə fərqlənir[1].

- Valideynlərin ən çox qayğı göstərilməyə və gözəl rəftara layiq olan insanlar olduğunu bilmək. Əbu Hureyra, Allah ondan razı olsun, demişdir:

جَاءَ رَجُلٌ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: يَا رَسُولَ اللَّهِ، مَنْ أَحَقُّ النَّاسِ بِحُسْنِ صَحَابَتِي؟ قَالَ: «أُمُّكَ»، قَالَ: ثُمَّ مَنْ؟ قَالَ: «ثُمَّ أُمُّكَ»، قَالَ: ثُمَّ مَنْ؟ قَالَ: «ثُمَّ أُمُّكَ»، قَالَ: ثُمَّ مَنْ؟ قَالَ: «ثُمَّ أَبُوكَ».

Bir nəfər peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, yanına gəlib dedi: "Ya rəsulullah! Mən ən çox kimə qayğı göstərməliyəm?". O buyurdu: "Anana!". Adam (yenə) soruşdu: "Sonra kimə?". O yenə: "Anana!"– deyə buyurdu. Adam (bir daha) soruşdu: "Sonra kimə?". O yenə buyurdu: "Anana!". Adam (axırıncı dəfə): "Sonra kimə?"– deyə soruşduqda, o: "Atana!"– deyə buyurdu[2].

- İnsan bilməlidir ki, valideynlərinə nə qədər yaxşılıq etsə də, onların haqqını ödəmiş sayılmaz və onların haqqı onun bütün yaxşılıqlarından daha böyükdür. Əbu Hureyrə, Allah ondan razı olsun, rəvayət edir ki, Allah rəsulu, sallallahu aleyhi və səlləm, buyurdu:

---

[1] Bax: Təfsir əs-Səadi (səh: 5).
[2] Hədisi Buxari: (5971) və Müslim: (2548) rəvayət etmişdir.

«لَا يَجْزِي وَلَدٌ وَالِدًا، إِلَّا أَنْ يَجِدَهُ مَمْلُوكًا فَيَشْتَرِيَهُ فَيُعْتِقَهُ».

"Heç bir övlad valideyninin haqqını ödəyə bilməz, yalnız onu qul olaraq tapıb, satın alaraq azad etməsi müstəsnadır"[1]. Yəni: övlad, atasına qul olaraq rast gəlib onu azad etmədikcə, atasının onun üzərindəki haqqını yerinə yetirə və ona etdiyi yaxşılığın qarşılığını verə bilməz. İbn Ömər, Allah onlardan razı olsun, anasını boynunda daşıyaraq Kəbənin ətrafında təvaf edən bir kişini gördü. Həmin kişi dedi: "Ey İbn Ömər! Səncə, mən onun haqqını ödədimmi?". O, cavab verdi: "Xeyr, (bu etdiyin) onun bircə doğuş sancısına belə bərabər deyil. Lakin sən yaxşılıq etdin və Allah az əməlinə görə çoxlu savab verər"[2].

- Valideynləri razı salmaq üçün nəfslə mübarizə aparmaq. Bu, Allah yolunda cihadın növlərindən biridir. Rəvayət edilir ki, Abdullah bin Amr, Allah onların hər ikisindən razi olsun, demişdir:

جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ، يَسْتَأْذِنُهُ فِي الجِهَادِ فَقَالَ: «أَحَيٌّ وَالِدَاكَ؟»، قَالَ: نَعَمْ، قَالَ: «فَفِيهِمَا فَجَاهِدْ».

Bir nəfər peyğəmbərin, sallallahu aleyhi va səlləm, yanına gəlib cihada getmək üçün izin istədi. Peyğəmbər, sallallahu aleyhi va səlləm, ondan soruşdu: "Valideynlərin sağdırmı?" O: “Bəli!”– deyə

[1] Hədisi Müslim: (1510) rəvayət etmişdir.
[2] Bax: Zəhəbinin "əl-Kəbəir" kitabı (səh: 42).

cavab verdi. Peyğəmbər, sallallahu aleyhi va səlləm, buyurdu: "Elə isə onlar üçün çalış"[1].

- İnsanla mübahisə edən şəxsin valideyninə söyməkdən çəkinmək. Çünki bu, qarşı tərəfi də onun valideyninə söyməyə sövq edər. Abdullah bin Amr, Allah onlardan razı olsun, rəvayət edir ki, Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«إِنَّ مِنْ أَكْبَرِ الكَبَائِرِ أَنْ يَلْعَنَ الرَّجُلُ وَالِدَيْهِ»، قِيلَ: يَا رَسُولَ اللَّهِ، وَكَيْفَ يَلْعَنُ الرَّجُلُ وَالِدَيْهِ؟ قَالَ: «يَسُبُّ الرَّجُلُ أَبَا الرَّجُلِ، فَيَسُبُّ أَبَاهُ، وَيَسُبُّ أُمَّهُ فَيَسُبُّ أُمَّهُ».

"Ən böyük günahlardan biri də insanın öz valideynlərini lənətləməsidir". Soruşdular: "Ya rəsulullah, bir kimsə öz valideynlərini necə lənətləyər?". O buyurdu: "Bir nəfər başqasının atasına söyür, o da onun atasına söyür və (başqasının) anasına söyür, o da onun anasına söyür"[2].

- Valideynləri kədərləndirməməyə səy göstərmək. Abdullah bin Amr, Allah onların hər ikisindən razı olsun, belə demişdir:

جَاءَ رَجُلٌ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: جِئْتُ أُبَايِعُكَ عَلَى الهِجْرَةِ، وَتَرَكْتُ أَبَوَيَّ يَبْكِيَانِ، فَقَالَ: «ارْجِعْ عَلَيْهِمَا فَأَضْحِكْهُمَا كَمَا أَبْكَيْتَهُمَا».

Bir kişi Allah Rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, yanına gələrək dedi: “Hicrət etmək üçün sənə beyət etməyə gəlmişəm və ata-anamı ağlar vəziyyətdə qoyub gəlmişəm”. O

[1] Hədisi Buxari: (3004) və Müslim: (2549) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (5973) və Müslim: (90) rəvayət etmişdir.

buyurdu: “Onların yanına qayıt və onları necə ağlatmısansa, eləcə də güldür”[1].

- Uşaqlara kiçik yaşlarından valideynlərə yaxşılıq etməyi öyrətmək.

## Qohumluq əlaqələrini kəsmək.

Qohumluq əlaqələrini kəsmək, qohumlarla pis rəftar etmək və ya onların haqlarını ödəməkdən yayınmaq Allahın birləşdirilməsini əmr etdiyi əlaqələri kəsən ziyana uğrayanların xüsusiyyətlərindəndir. Hətta bu, bir cinayət və böyük günahlardandır. Belə bir cinayəti yalnız qəlbi sərtləşmiş, mərdliyi azalmış və məsuliyyət hissi olmayan kimsə edər.

Qohumlar: Ata və ana tərəfdən olan yaxınlardır. Qohumluq əlaqələrini kəsmək isə onlardan uzaqlaşmaqla, imkan daxilində onları ziyarət etməkdən üz döndərməklə, sevinclərinə şərik olmamaqla, kədərlərinə ortaq olmamaqla, həmçinin onlar başqalarından daha çox layiq olduqları xüsusi hədiyyə və bəxşişlərdə başqalarını onlardan üstün tutmaqla olur.

### Dəlillər:

Qohumlarla əlaqəni kəsməyin haram olmasına dair çoxsaylı dəlillər mövcuddur. Onlardan bəziləri bunlardır:

Uca Allah buyurur:

[1] Hədisi Əbu Davud: (2528) rəvayət etmişdir.

﴿فَهَلۡ عَسَيۡتُمۡ إِن تَوَلَّيۡتُمۡ أَن تُفۡسِدُواْ فِي ٱلۡأَرۡضِ وَتُقَطِّعُوٓاْ أَرۡحَامَكُمۡ 22 أُوْلَٰٓئِكَ ٱلَّذِينَ لَعَنَهُمُ ٱللَّهُ فَأَصَمَّهُمۡ وَأَعۡمَىٰٓ أَبۡصَٰرَهُمۡ 23﴾

"Əgər (haqdan) üz çevirsəniz, ola bilsin ki, yer üzündə fitnə-fəsad törədəsiniz və qohumluq əlaqələrini kəsəsiniz.

Onlar Allahın lənətlədiyi, qulaqlarını kar, gözlərini də kor etdiyi kimsələrdir". (Muhəmməd 47 surəsi, ayələr 22-23).

Allah Təbarəkə və Təalə buyurur:

﴿وَٱلَّذِينَ يَنقُضُونَ عَهۡدَ ٱللَّهِ مِنۢ بَعۡدِ مِيثَٰقِهِۦ وَيَقۡطَعُونَ مَآ أَمَرَ ٱللَّهُ بِهِۦٓ أَن يُوصَلَ وَيُفۡسِدُونَ فِي ٱلۡأَرۡضِ أُوْلَٰٓئِكَ لَهُمُ ٱللَّعۡنَةُ وَلَهُمۡ سُوٓءُ ٱلدَّارِ 25﴾

"Allahla əhd bağladıqdan sonra onu pozan, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri kəsən və yer üzündə fitnə-fəsad törədən kimsələrə gəlincə, onlar lənətə düçar olacaqlar. Onlar üçün pis yurd vardır". (Rad 13 surəsi, ayə 25).

﴿...وَيَقۡطَعُونَ مَآ أَمَرَ ٱللَّهُ بِهِۦٓ أَن يُوصَلَ...﴾

"Allahın birləşdirilməsini əmr etdiyini kəsir...".

Yəni: Allahın birləşdirilməsini əmr etdiyi qohumluq əlaqələrini kəsirlər (129).[1]

Cubeyr bin Mutim, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, salləllahu aleyhi va səlləm, belə buyurdu:

«لَا يَدْخُلُ الجَنَّةَ قَاطِعٌ».

"Qohumluq əlaqələrini kəsən Cənnətə daxil olmaz"[2]. Yəni: qohumluq əlaqələrini kəsən.

---

1 Təfsir ət-Tabari (13/514).

2 Hədisi Müslim: (5984) rəvayət etmişdir.

Əbu Hureyrə, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«خَلَقَ اللَّهُ الخَلْقَ، فَلَمَّا فَرَغَ مِنْهُ قَامَتِ الرَّحِمُ، فَأَخَذَتْ بِحَقْوِ الرَّحْمَنِ (مَوْضِع شَدِّ الإِزَارِ)، فَقَالَ: مَهْ، قَالَتْ: هَذَا مَقَامُ العَائِذِ بِكَ مِنَ القَطِيعَةِ، قَالَ: أَلَا تَرْضَيْنَ أَنْ أَصِلَ مَنْ وَصَلَكِ، وَأَقْطَعَ مَنْ قَطَعَكِ، قَالَتْ: بَلَى يَا رَبِّ، قَالَ: فَذَاكِ» قال أبو هريرة: اقرءوا إن شئتم: ﴿فَهَلۡ عَسَيۡتُمۡ إِن تَوَلَّيۡتُمۡ أَن تُفۡسِدُواْ فِي ٱلۡأَرۡضِ وَتُقَطِّعُوٓاْ أَرۡحَامَكُمۡ 22﴾.

"Allah məxluqatı yaratdı, yaradılışı başa çatdırdıqdan sonra qohumluq əlaqəsi ayağa qalxıb Rəhmanın (beldə izarın bağlandığı yerdən) tutdu. Allah buyurdu: "Dur!". O dedi: "Bu, qohumluq əlaqələrini kəsməkdən Sənə sığınanın məqamıdır". Allah buyurdu: "Məgər səni birləşdirəni birləşdirməyimə, səni kəsəni də kəsməyimə razı deyilsənmi?". O dedi: "Əlbəttə, ey Rəbbim!". O buyurdu: "Sənin üçün elə belə də olacaqdır". Əbu Hureyra dedi: "Əgər istəsəniz, oxuyun: "Əgər üz döndərsəniz, yer üzündə fəsad törətməyiniz və qohumluq əlaqələrini kəsməyiniz gözlənilməzmi?"[1]. (Muhəmməd 47 surəsi, ayə 22).

Aişə, Allah ondan razı olsun, rəvayət edir ki, Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdu:

«الرَّحِمُ مُعَلَّقَةٌ بِالعَرْشِ تَقُولُ: مَنْ وَصَلَنِي وَصَلَهُ اللَّهُ، وَمَنْ قَطَعَنِي قَطَعَهُ اللَّهُ».

"Qohumluq əlaqəsi Ərşdən asılıb deyir: Kim məni qorusa, Allah da onu Öz rəhmətinə qovuşdurar, kim

[1] Hədisi Buxari: (4830) və Müslim: (2554) rəvayət etmişdir.

də mənimlə əlaqəni kəssə, Allah da ondan Öz rəhmətini kəsər"[1].

## Zərərləri:

Bu böyük günahın zərərlərindən və cəzalarından bəziləri aşağıdakılardır:

- Qohumluq əlaqələrini kəsən şəxs, əvvəlki ayələrdə olduğu kimi, Uca Allahın kitabında lənətlənmişdir.

- Allah, ziyana uğrayan fasiqlərin xüsusiyyətlərindən biri kimi, Allahın birləşdirilməsini əmr etdiyi bağları, o cümlədən də qohumluq əlaqələrini kəsməyi müəyyən etmişdir. Uca Allah buyurur:

﴿ٱلَّذِينَ يَنقُضُونَ عَهۡدَ ٱللَّهِ مِنۢ بَعۡدِ مِيثَٰقِهِۦ وَيَقۡطَعُونَ مَآ أَمَرَ ٱللَّهُ بِهِۦٓ أَن يُوصَلَ وَيُفۡسِدُونَ فِي ٱلۡأَرۡضِۚ أُوْلَٰٓئِكَ هُمُ ٱلۡخَٰسِرُونَ 27﴾

"O kəsləri ki, Allahla əhd-peyman bağladıqdan sonra onu pozur, Allahın birləşdirilməsini əmr etdiyini kəsir və yer üzündə fitnə-fəsad törədirlər. Məhz onlar ziyana uğrayanlardır!". (Bəqərə 2 surəsi, ayə 27).

- Qohumluq əlaqələrini kəsən şəxsin cəzası, axirətdəki cəzası da öz yerində qalmaqla, bu dünyada tezləşdirilər. Əbu Bəkrətədən, Allah ondan razı olsun, rəvayət olunur ki, Allahın elçisi, sallallahu aleyhi və səlləm, belə buyurmuşdur:

[1] Hədisi Buxari: (5989) və Müslim: (2555) rəvayət etmişdir.

«مَا مِنْ ذَنْبٍ أَجْدَرُ أَنْ يُعَجِّلَ اللَّهُ لِصَاحِبِهِ الْعُقُوبَةَ فِي الدُّنْيَا مَعَ مَا يَدَّخِرُ لَهُ فِي الآخِرَةِ مِنَ الْبَغْيِ وَقَطِيعَةِ الرَّحِمِ».

"Allahın, sahibinə axirətə saxladığı əzabdan əlavə, dünyada da cəzasını tezləşdirməyə ən layiq bildiyi günah zülm və qohumluq əlaqələrini kəsməkdir"[1].

- Qohumluq əlaqələrini kəsən şəxsə verilən ən böyük cəzalardan biri də onun Cənnətə daxil olmaqdan məhrum edilməsidir. Cubeyr ibn Mutim, Allah ondan razı olsun, rəvayət edir ki, rəsulullah, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«لَا يَدْخُلُ الجَنَّةَ قَاطِعٌ».

"Qohumluq əlaqələrini kəsən cənnətə daxil olmaz"[2].

- Qohumlarla əlaqəni kəsən kimsənin əməli Allaha yüksəlməz və Allah da onu qəbul etməz. Əbu Hureyrə, Allah ondan razı olsun, demişdir: "Mən peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurduğunu eşitdim:

«إِنَّ أَعْمَالَ بَنِي آدَمَ تُعْرَضُ عَلَى اللهِ تَبَارَكَ وَتَعَالَى عَشِيَّةَ كُلِّ خَمِيسٍ لَيْلَةَ الْجُمُعَةِ فَلَا يُقْبَلُ عَمَلُ قَاطِعِ رَحِمٍ».

«Şübhəsiz ki, Adəm övladının əməlləri hər cümə axşamı, cümə gecəsi Uca Allaha arz olunur və qohumluq əlaqələrini kəsən şəxsin əməli qəbul olunmaz»[3].

---

1 Hədisi Əbu Davud: (4902) rəvayət etmişdir.
2 Hədisi Buxari: (5984) və Müslim: (2556) rəvayət etmişdir.
3 Hədisi İmam Əhməd "Müsnəd" əsərində: (10272) rəvayət etmişdir.

## Qorunma:

Bu böyük günahın təhlükələrinə düşməkdən qorunmağın yolları bunlardır:

- Müsəlmanın qohumluq əlaqələrini saxlamağın fəzilətini xatırlaması, onu bu əlaqələri qorumağa sövq edər. Buna misal olaraq, Ənəs ibn Malik, Allah ondan razı olsun, belə demişdir: mən peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurduğunu eşitdim:

«مَنْ سَرَّهُ أَنْ يُبْسَطَ لَهُ رِزْقُهُ، أَوْ يُنْسَأَ لَهُ فِي أَثَرِهِ (أَيْ: يُمَدَّ لَهُ فِي عُمُرِهِ)، فَلْيَصِلْ رَحِمَهُ».

"Kim ruzisinin artmasını və ya ömrünün uzanmasını istəyirsə, qohumluq əlaqələrini qorusun"[1].

- Pisliyə yaxşılıqla cavab vermək, əlaqəni kəsənlə əlaqə saxlamaq. Abdullah bin Amr, Allah onların hər ikisindən razı olsun, rəvayət edilir ki, peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«لَيْسَ الوَاصِلُ بِالْمُكَافِئِ، وَلَكِنَّ الوَاصِلَ الَّذِي إِذَا قُطِعَتْ رَحِمُهُ وَصَلَهَا».

«Qohumluq əlaqəsini qarşılıqlı saxlayan kimsə heç də qohumluq əlaqəsini saxlayan kimsə sayıla bilməz. Lakin həqiqi qohumluq əlaqəsini saxlayan o kimsədir ki, qohumu onunla əlaqələri kəssə belə onunla yenidən əlaqə qurar»[2].

---

[1] Hədisi Buxari: (2067) və Müslim: (2557) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (5991) rəvayət etmişdir.

- Üzrləri qəbul etmək və pisliyi bağışlamaq. Bu, peyğəmbərlərin, Allahın salavatı və salamı onların üzərinə olsun, əxlaqındandır və buna ən gözəl misal, qardaşlarının ona etdiyi pisliklərə baxmayaraq, aralarındakı sevgi bağının qopmaması üçün onları əfv edən və əməllərinə göz yuman Yusifdir, aleyhi-ssəlam.

- Qohum-əqrəbaya onlardan heç bir qarşılıq gözləmədən canı və malı ilə səxavətli olmaq, etdiyi yaxşılığı onların başına qaxmaqdan və gücləri çatmayan bir şeyi onlara yükləməkdən çəkinmək, onlarla təvazökar və gözəl əxlaqlı olmaq, səhvlərinə və xətalarına səbr edib onlara əhəmiyyət verməmək, onlara qarşı yaxşı zəndə olmaq, onları çox danlayıb məzəmmət etməmək.

- Qohum-əqrəbanı bir araya toplamağa həris olmaq. Onları mərasimlərə və ziyafətlərə dəvət etmək, ziyarət etmək və telefonla əlaqə saxlamaq.

- Uşaqları qohumluq əlaqələrini qorumağın əhəmiyyətinə alışdırmaq və bu ruhda tərbiyə etmək ki, böyüdükdə bunu örnək götürüb tətbiq etsinlər.

- Ailə problemlərini, xüsusilə də miras məsələlərini, məsləhətləşmə və mülayimliklə həll etmək.

- Qohumlarla əlaqəni pozmağa səbəb olan təkəllüfdən (özünü çətinliyə salmaqdan) çəkinmək.

## Kahinlik, falçılıq, münəccimlik (ulduz falı) və bu münkərlərlə məşğul olanların yanına getmək.

Kahinlik, falçılıq və münəccimlik sahibinin əqidəsinə xələl gətirən böyük günahlardır. Çünki bu işlərlə məşğul olan şəxs ya qeybi bildiyini iddia edir ya da işləri ulduzlara bağlayır və bunların hər ikisi də tövhidə xələl gətirir.

Kahin: Gələcəkdə baş verəcək qeyb hadisələri xəbər verən yaxud insanların qəlbində olanları bildiyini iddia edən şəxsdir.

Falçı: İstifadə etdiyi bəzi vasitələrlə oğurlanmış malı, itmiş şeyin yerini və bu kimi məsələləri bildiyini iddia edən şəxsdir.

Münəccim o şəxsdir ki, münəccimlik və təsir etmə elmindən istifadə edərək, məsələn, belə deyir: "Əgər filan ulduz çıxıb, filan ulduzla qovuşarsa, bu o deməkdir ki, filan-filan hadisələr baş verəcək" yaxud: "Əgər filankəsin filan bürcdə övladı dünyaya gələrsə, o, varlılıq və kasıblıq, xoşbəxtlik və bədbəxtlik kimi filan-filan hallarla qarşılaşacaq". Beləliklə, onlar ulduzların hərəkətini yer üzünün və oradakı insanların halına dəlil gətirirlər[1].

Bura qeybdən xəbər verən, qeybi işləri bildiyini iddia edən yaxud bürclər vasitəsilə, qum üzərində xətlər çəkməklə, daşlarla, fincana baxmaqla, əl

[1] Bax: Təysir əl-Əziz əl-Həmid: (səh: 351).

falını oxumaqla və bu kimi üsullarla qeybi məsələlərdən nəticə çıxaran şəxslər daxildir. Zikr olunan bu və ya digər hər hansı bir vasitə ilə qeyb elmini iddia edən hər bir kəs yalançı və kafirdir[1].

Qeyd etmək vacibdir ki, kahinlərin, baxıcıların və onlara bənzər digər dəccalların yanına getmək, haqqında xəbərdarlıq edilmiş böyük günahlardandır və bu əmələ yol vermək insanın həm din, həm də dünya işlərində bir çox fəsadlara səbəb olur.

## Dəlillər:

Dəlillər kahinliyin, falçılığın, münəccimliyin və bu kimi münkər əməllərlə məşğul olan kimsələrin yanına getməyin haram olduğuna dəlalət edir. Onlardan bəziləri bunlardır:

Uca Allah buyurur:

﴿قُتِلَ ٱلۡخَرَّٰصُونَ 10 ٱلَّذِينَ هُمۡ فِي غَمۡرَةٖ سَاهُونَ 11 يَسۡـَٔلُونَ أَيَّانَ يَوۡمُ ٱلدِّينِ 12﴾

"Məhv olsun yalançılar! Onlar ki, qəflətdədirlər. Onlar soruşurlar: "Qiyamət günü nə vaxtdır?". [Zariyat 51 surəsi, ayələr 10-12].

Yəni: zənnə uyaraq yalan və batil danışan kahinlər lənətə düçar oldular (çünki ərəb dilində "xars" - yalan danışmaq və təxmin etməkdir. İbn Abbas, radiyallahu anhumə, isə belə demişdir: "Onlar kahinlərdir"[2].

---

[1] Bax: Fovzanın "Aqidətu ət-Tövhid" kitabı: (səh: 97).
[2] Bax: Təfsir ət-Tabari: (21/492).

وَعَنْ زَيْدِ بْنِ خَالِدٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: خَرَجْنَا مَعَ رَسُولِ اللَّهِ ﷺ عَامَ الحُدَيْبِيَةِ، فَأَصَابَنَا مَطَرٌ ذَاتَ لَيْلَةٍ، فَصَلَّى لَنَا رَسُولُ اللَّهِ ﷺ الصُّبْحَ، ثُمَّ أَقْبَلَ عَلَيْنَا فَقَالَ: «أَتَدْرُونَ مَاذَا قَالَ رَبُّكُمْ؟»، قُلْنَا: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ، فَقَالَ: «قَالَ اللَّهُ: أَصْبَحَ مِنْ عِبَادِي مُؤْمِنٌ بِي وَكَافِرٌ بِي، فَأَمَّا مَنْ قَالَ: مُطِرْنَا بِرَحْمَةِ اللَّهِ وَبِرِزْقِ اللَّهِ وَبِفَضْلِ اللَّهِ، فَهُوَ مُؤْمِنٌ بِي، كَافِرٌ بِالكَوْكَبِ، وَأَمَّا مَنْ قَالَ: مُطِرْنَا بِنَجْمِ كَذَا، فَهُوَ مُؤْمِنٌ بِالكَوْكَبِ كَافِرٌ بِي».

Zeyd bin Xaliddən, Allah ondan razı olsun, rəvayət edilir ki, o, belə demişdir: Hüdeybiyyə ilində Allah rəsulu, salləllahu aleyhi va səlləm, ilə birlikdə yola çıxdıq. Bir gecə bizə yağış yağdı. Allah rəsulu, salləllahu aleyhi va səlləm, bizə sübh namazını qıldırdı, sonra üzünü bizə çevirib dedi: «Bilirsinizmi, Rəbbiniz nə buyurdu?». Biz: "Allah və rəsulu daha doğrusunu bilir" dedik. O buyurdu: «Allah buyurdu: Qullarımdan bir qismi mənə iman, bir qismi isə mənə küfr edərək sabahladı. Kim "Allahın rəhməti, ruzisi və Onun lütfü ilə bizə yağış yağdırıldı" dedisə, o, mənə iman gətirmiş, ulduzları isə inkar etmişdir. Kim isə "filan ulduz sayəsində bizə yağış yağdırıldı" dedisə, o, ulduzlara iman gətirmiş, Məni isə inkar etmişdir»[1].

Bu hədisdə qullar iki qismə bölündü:

Birinci qisim: Uca Allaha iman gətirən mömindir. O, bu neməti Allaha aid etdi, buna görə Allaha şükür etdi, onun Allah dərgahından olduğunu bildi və bu nemətə görə Allaha həmd-səna etdi.

---

[1] Hədisi Buxari: (4147) və Müslim: (71) rəvayət etmişdir.

İkinci qisim: Allaha küfr edəndir. Kafirlər iki növdür:

Birinci növ: kiçik küfr edən kimsə. Məsələn: "Filan ulduz sayəsində yağış yağdı" deyən və ulduzun yağışın yağmasına səbəb olduğuna inanan kimsənin küfrü kiçik küfrdür. Çünki o, Allahla yanaşı müstəqil təsir sahibi olduğuna inanmır, lakin səbəb olmayan bir şeyi səbəb qəbul edərək neməti Allahdan başqasına nisbət etmişdir. Onun bu sözü küfr əhlinin sözlərindəndir və bu, Uca Allaha qarşı edilmiş kiçik küfrdür.

İkinci növ isə böyük küfr edən kafirdir. Bu o kəsdir ki, yağışın yağması ulduzların təsiri ilə olduğuna, yağışı məhz onların lütf etdiyinə və onlara ibadət edənlər onlara yönəldikdə, (ulduzların) hərəkətə gələrək onların dualarına cavab olaraq yağışı nazil etdiklərinə etiqad edir. Bu, icma ilə böyük küfrdür. Çünki bu, rububiyyət və uluhiyyəti Allahdan qeyrisinə nisbət etməkdir[1].

İbn Abbas, Allah onların hər ikisindən razı olsun, rəvayət edir ki, Allah rəsulu, salləllahu aleyhi va səlləm, belə demişdir:

«مَنِ اقْتَبَسَ عِلْمًا مِنَ النُّجُومِ، اقْتَبَسَ شُعْبَةً مِنَ السِّحْرِ زَادَ مَا زَادَ».

“Kim ulduzlardan bir elm öyrənərsə, sehrdən bir pay öyrənmiş olar. Bu nə qədər artarsa, sehrdən

[1] Bax: Şeyx Salih Əli əş-Şeyxin "ət-Təmhid li-Şərh Kitab ət-Tövhid" kitabı, (səh: 356).

aldığı pay da bir o qədər artar"[1]. Yəni: münəccimlik elmi artdıqca, insan sehrdə daha da dərinləşər və bununla da günahı artar.

Əbu Məsud əl-Ənsari, Allah ondan razı olsun, belə rəvayət edir:

«أَنَّ رَسُولَ اللَّهِ ﷺ نَهَى عَنْ ثَمَنِ الكَلْبِ، وَمَهْرِ البَغِيِّ، وَحُلْوَانِ الكَاهِنِ».

Allah rəsulu, sallallahu əleyhi va səlləm, itin müqabilində verilən pulu, zinakar qadının qazandığı pulu və kahinə verilən pulu götürməyi qadağan etmişdir."[2]. Kahinin "hulvanı" (hədiyyə, mükafat): kahinliyinə görə aldığı ücrətdir.

Muaviyə bin əl-Həkəm əs-Sələmidən, Allah ondan razı olsun, rəvayət edildiyinə görə o belə demişdir:

قلت: يَا رَسُولَ اللهِ، إِنِّي حَدِيثُ عَهْدٍ بِجَاهِلِيَّةٍ، وَقَدْ جَاءَ اللهُ بِالإِسْلَامِ، وَإِنَّ مِنَّا رِجَالًا يَأْتُونَ الكُهَّانَ قَالَ: «فَلَا تَأْتِهِمْ».

Dedim: "Ey Allahın rəsulu, mən cahillik dövründən yenicə çıxmışam, Allah isə İslamı gətirdi. Bizim aramızda isə kahinlərin yanına gedən adamlar var. Peyğəmbər, sallallahu aleyhi va səlləm, buyurdu: «Onların yanına getməyin» (145).[3]

Safiyyə, peyğəmbərin, sallallahu aleyhi va səlləm) bəzi xanımlarından peyğəmbərin, sallallahu aleyhi və səlləm, belə dediyi rəvayət etmişdir:

---

[1] Hədisi Əbu Davud: (3905) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (2237) və Müslim: (1567) rəvayət etmişdir.
[3] Hədisi Müslim: (537) rəvayət etmişdir.

«مَنْ أَتَى عَرَّافًا فَسَأَلَهُ عَنْ شَيْءٍ لَمْ تُقْبَلْ لَهُ صَلَاةٌ أَرْبَعِينَ لَيْلَةً».

"Kim bir baxıcının yanına gedərsə və ondan bir şey soruşarsa, qırx gün namazı qəbul edilməz"[1].

Əbu Hureyrə, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«مَنْ أَتَى حَائِضًا أَوْ امْرَأَةً فِي دُبُرِهَا أَوْ كَاهِنًا فَقَدْ كَفَرَ بِمَا أُنْزِلَ عَلَى مُحَمَّدٍ».

«Kim, heyzli qadına yaxud bir qadına arxadan yaxınlıq edərsə yaxud bir kahinin yanına gedərsə, Muhamməda nazil edilənə küfür etmişdir»[2].

Qurtubi kahinlər barəsində belə demişdir: "Hisbə vəzifəsini daşıyan şəxsin (bu, bazarlara və ictimai əxlaq qaydalarına nəzarət edən şəxsdir) onları bazarlardan uzaqlaşdırması, onlara qarşı sərt şəkildə irad bildirməsi və heç kəsin bu məqsədlə onlara müraciət etməsinə imkan verməməsi vacibdir[3].

## Zərərləri:

Kahinliyin, falçılığın, münəccimliyin və bu münkər əməllərlə məşğul olan kimsələrin yanına getməyin zərərlərindən bəziləri bunlardır:

- Bu əməlin sahibi tağut sayılır, onların yanına getmək isə tağuta müraciət etməkdir. Tağut, Allahdan başqa ibadət olunan hər bir şeydir. Uca Allah buyurur:

---

1 Hədisi Müslim: (2230) rəvayət etmişdir.
2 Hədisi Tirmizi: (135) rəvayət etmişdir.
3 əl-Müfhim limə əşkələ min təlxis Muslim: (5/633).

﴿أَلَمۡ تَرَ إِلَى ٱلَّذِينَ يَزۡعُمُونَ أَنَّهُمۡ ءَامَنُواْ بِمَآ أُنزِلَ إِلَيۡكَ وَمَآ أُنزِلَ مِن قَبۡلِكَ يُرِيدُونَ أَن يَتَحَاكَمُوٓاْ إِلَى ٱلطَّٰغُوتِ وَقَدۡ أُمِرُوٓاْ أَن يَكۡفُرُواْ بِهِۦۖ وَيُرِيدُ ٱلشَّيۡطَٰنُ أَن يُضِلَّهُمۡ ضَلَٰلَۢا بَعِيدٗا 60﴾

"Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi? Onlar mühakimə olunmaları üçün tağuta (kahinlərə/ və ya Allahın hökmündən başqa hökm verənlərə) müraciət etmək istəyirlər. Halbuki onlara tağuta küfür etmələri əmr olunmuşdur. Şeytan isə onları dərin bir azğınlığa salmaq istəyir". [Nisa 4 surəsi, ayə 60]. Tabari Qətadədən nəql edir ki, bu ayə aralarında bir haqq üstündə mübahisə olan iki nəfər – ənsardan olan bir kişi və yəhudilərdən olan bir kişi – barəsində nazil olmuşdur. Onlar aralarında hökm verməsi üçün Mədinədəki bir kahinə müraciət etmiş, Allahın peyğəmbərini, sallallahu əleyhi va səlləm, isə tərk etmişdilər. Uca Allah da onların etdiyi bu əməli pislədi[1].

- Bu, ilk cahiliyyət dövründə edilən əməllərindən biridir. Buxari belə demişdir: Cabir demişdir: "Onların hökm üçün müraciət etdikləri tağutlar - Cüheynə qəbiləsində biri, Əsləm qəbiləsində biri və hər qəbilədə biri olmaqla - şeytanın onlara endiyi kahinlər idi...".

---

[1] Təfsir ət-Tabari: (7/191).

İkrimə isə belə demişdir: "Cibt" həbəş dilində şeytan, "tağut" isə kahindir"[1].

- Bu, insanın insanla və insanın cinlə fitnəsindəndir. Aişədən, Allah ondan razı olsun, belə dediyi rəvayət edilir:

سَأَلَ أُنَاسٌ النَّبِيَّ ﷺ عَنِ الكُهَّانِ، فَقَالَ: «إِنَّهُمْ لَيْسُوا بِشَيْءٍ»، فَقَالُوا: يَا رَسُولَ اللَّهِ، فَإِنَّهُمْ يُحَدِّثُونَ بِالشَّيْءِ يَكُونُ حَقًّا، قَالَ: فَقَالَ النَّبِيُّ ﷺ: «تِلْكَ الْكَلِمَةُ مِنَ الحَقِّ يَخْطَفُهَا الجِنِّيُّ، فَيُقَرْقِرُهَا فِي أُذُنِ وَلِيِّهِ كَقَرْقَرَةِ الدَّجَاجَةِ، فَيَخْلِطُونَ فِيهِ أَكْثَرَ مِنْ مِائَةِ كَذْبَةٍ».

İnsanlar peyğəmbərdən, sallallahu əleyhi va səlləm, kahinlər haqqında soruşdular. O buyurdu: «Onların dəyəri yoxdur». Dedilər: "Ey Allahın rəsulu! Onlar bir şey söyləyirlər doğru çıxır. Peyğəmbər, sallallahu əleyhi va səlləm, buyurdu: «Bu, cinin haqq sözü qapıb, toyuğun qaqqıltısı kimi onu öz dostunun qulağına qaqıldamasıdır, sonra da ona yüzdən çox yalan qatırlar»[2].

Yəni: ya kahin, şeytanlardan olan dostunun ona təlqin etdiyi kəlməyə yüz yalan əlavə edər ya da şeytan səmadan oğurladığı kəlməyə yüz yalan qatar və hamısını insanlardan olan dostuna xəbər verər. Beləliklə, insanlar kahin olan insana aldanıb fitnəyə düşər və hər ikisi də şeytanlardan olan dostları vasitəsilə fitnəyə düşmüş olarlar. Onlar, səma xəbərlərindən gətirdiklərində bəzən doğru

[1] Səhih əl-Buxari: (6/45).
[2] Hədisi Buxari: (7561) və Müslim: (2228) rəvayət etmişdir.

dedikləri üçün, onların gətirdiyi doğru və yalanı qəbul edərlər[1].

- Kim bir baxıcının yanına gedər və ondan bir şey soruşarsa, onun namazı qırx gün qəbul edilməz. Necə ki, bu, əvvəlki hədisdə də varid olmuşdur.

## Qorunma:

Kahinlik, falçılıq, münəccimlik və bu kimi əməllərdən qorunmağın bir neçə vasitəsi vardır. Onlardan bəziləri bunlardır:

- Qeybi yalnız Allahın bildiyinə tam yəqin olmaq. Uca Allah buyurur:

﴿قُل لَّا يَعۡلَمُ مَن فِي ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِ ٱلۡغَيۡبَ إِلَّا ٱللَّهُ...﴾

"De: “Allahdan başqa göylərdə və yerdə olanların heç biri qeybi bilməz...". [Nəml 27 surəsi, ayə 65]. Pak və Uca olan Allah buyurur:

﴿وَعَلَّمَ ءَادَمَ ٱلۡأَسۡمَآءَ كُلَّهَا ثُمَّ عَرَضَهُمۡ عَلَى ٱلۡمَلَٰٓئِكَةِ فَقَالَ أَنۢبِـُٔونِي بِأَسۡمَآءِ هَٰٓؤُلَآءِ إِن كُنتُمۡ صَٰدِقِينَ 31 قَالُواْ سُبۡحَٰنَكَ لَا عِلۡمَ لَنَآ إِلَّا مَا عَلَّمۡتَنَآۖ إِنَّكَ أَنتَ ٱلۡعَلِيمُ ٱلۡحَكِيمُ 32﴾

"Allah Adəmə bütün şeylərin adlarını öyrətdi. Sonra onları mələklərə göstərib dedi: “Doğru deyirsinizsə, bunların adlarını Mənə bildirin!”

Onlar dedilər: “Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Hikmətlisən!”. [Bəqərə 2 surəsi, ayə 31-32]. Mələklər, Uca Allahın

[1] Bax: Teysir əl-Əziz əl-Həmid: (səh: 223).

onlara öyrətdiklərindən başqa bir biliklərinin olmadığını iqrar etməkdən başqa bir şey qalmadı:

﴿سُبۡحَٰنَكَ لَا عِلۡمَ لَنَآ إِلَّا مَا عَلَّمۡتَنَآۖ...﴾

"Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur...". Beləliklə, bu, qeyb elmlərindən bir şey bildiyini iddia edən hər bir münəccim kahinin sözünün yalan olduğuna ən açıq dəlalət və ən aydın sübut idi.[1]

- Tağutu inkar edərək, ibadəti Uca Allaha məxsus etmək. Hər kim qeybi bildiyini iddia edərsə və ya işləri ulduzlara bağlayıb, onların özlüyündə təsir gücünə malik olduğunu söyləyərsə, o kimsə həddini aşmış, azğınlaşmış, küfr etmiş və beləcə özün tağuta çevrilmişdir. Uca Allah buyurur:

﴿...فَمَن يَكۡفُرۡ بِٱلطَّٰغُوتِ وَيُؤۡمِنۢ بِٱللَّهِ فَقَدِ ٱسۡتَمۡسَكَ بِٱلۡعُرۡوَةِ ٱلۡوُثۡقَىٰ لَا ٱنفِصَامَ لَهَاۗ وَٱللَّهُ سَمِيعٌ عَلِيمٌ﴾

"Hər kim tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah (hər şeyi) eşidəndir, (hər şeyi) biləndir". (Bəqərə 2 surəsi, ayə 256). Səid bin Cubeyrin belə dediyi rəvayət edilir: “Tağut – kahindir”[2].

- Tövhidi öyrənmək və onu öyrətmək, ona zidd olanları bilmək, yaxşılığı əmr edib pislikdən

[1] Təfsir ət-Tabari: (1/ 527-528).
[2] Təfsir ət-Tabari (4/557).

çəkindirmək və bu şeytani əməlləri edənlərə şəri cəzaları tətbiq etmək.

## Heykəllərin düzəldilməsi.

Heykəllər düzəltmək şəriətin çəkindirdiyi, onu edənə lənət etdiyi və şiddətli əzabla hədələdiyi böyük günahlardandır və bu, bütlərə ibadət etməyin və Uca Allaha şərik qoşmağın ən böyük səbəblərindəndir.

Büt düzəltməyin həqiqəti, qulun, Allahın yaratdığı ruhu olan canlılara bənzədərək daşdan, gildən, dəmirdən, misdən və ya digər materiallardan surət düzəltməsidir.

Alimlər heykəlləri düzəltməyin və onları saxlamağın haram olması barədə yekdil rəydədirlər[1].

İmam Nəvəvi, Allah ona rəhmət etsin, demişdir: "(Alimlər) kölgəsi olan şeylərin qadağan edilməsinin və dəyişdirilməsinin vacib olduğuna dair icma etmişlər. Qadi demişdir: Yalnız kiçik qız uşaqlarının gəlinciklərlə oynamasına verilən ruxsət barədə rəvayət olunanlar istisnadır"[2].

## Dəlillər:

Sünnədə rəsm çəkməkdən və heykəllər düzəltməkdən çəkindirən çoxsaylı hədislər rəvayət olunmuşdur. Onlardan bəziləri bunlardır:

---

1 Bax: Fəthul-Bari: (10/391).
2 Şərhu Muslim: (14/82).

Abdullah bin Ömər, Allah onların hər ikisindən razı olsun, rəvayət edilir ki, Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«إِنَّ الَّذِينَ يَصْنَعُونَ هَذِهِ الصُّوَرَ يُعَذَّبُونَ يَوْمَ القِيَامَةِ يُقَالُ لَهُمْ أَحْيُوا مَا خَلَقْتُمْ».

«Həqiqətən, bu surətləri düzəldənlərə Qiyamət günü əzab veriləcək və onlara belə deyiləcəkdir: "Yaratdıqlarınıza can verin!"»[1].

Müslim bin Subeyhdən belə dediyi rəvayət edilir: Biz Məsruq ilə birlikdə Yəsar bin Numeyrin evində idik. Məsruq onun evində şəkillər görüb dedi: "Mən Abdullah bin Məsudun, Allah ondan razı olsun, belə dediyini eşitdim: Mən peyğəmbərin, salləllahu aleyhi va səlləm, belə dediyini eşitdim:

«إِنَّ أَشَدَّ النَّاسِ عَذَابًا عِنْدَ اللَّهِ يَوْمَ القِيَامَةِ المُصَوِّرُونَ».

«Qiyamət günü Allah qatında əzabı ən şiddətli olacaq insanlar surət çəkənlərdir»[2].

Əbu Zura rəvayət edir ki: Mən Əbu Hureyrə, Allah ondan razı olsun, ilə birlikdə Mərvanın evinə daxil oldum. Əbu Hureyrə, Allah ondan razı olsun, orada şəkillər görüb dedi: Mən Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurduğunu eşitdim: Allah Əzzə və Cəllə buyurdu:

«وَمَنْ أَظْلَمُ مِمَّنْ ذَهَبَ يَخْلُقُ خَلْقًا كَخَلْقِي؟ فَلْيَخْلُقُوا ذَرَّةً، أَوْ لِيَخْلُقُوا حَبَّةً، أَوْ لِيَخْلُقُوا شَعِيرَةً».

---

[1] Hədisi Buxari: (5607) və Müslim: (2108) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (5950) və Müslim: (2109) rəvayət etmişdir.

«Mənim yaratdığım kimi yaratmağa cəhd edən kəsdən daha zalım kim ola bilər? Qoy onlar bir zərrə yaxud bir dən yaxud da bir arpa dənəsi yaratsınlar»[1].

Səid bin Əbu əl-Həsən belə demişdir:

كُنْتُ عِنْدَ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا، إِذْ أَتَاهُ رَجُلٌ فَقَالَ: إِنِّي إِنْسَانٌ إِنَّمَا مَعِيشَتِي مِنْ صَنْعَةِ يَدِي، وَإِنِّي أَصْنَعُ هَذِهِ التَّصَاوِيرَ، فَقَالَ ابْنُ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا: لَا أُحَدِّثُكَ إِلَّا مَا سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ، سَمِعْتُهُ يَقُولُ: «مَنْ صَوَّرَ صُورَةً، فَإِنَّ اللَّهَ مُعَذِّبُهُ حَتَّى يَنْفُخَ فِيهَا الرُّوحَ، وَلَيْسَ بِنَافِخٍ فِيهَا أَبَدًا»، فَرَبَا الرَّجُلُ رَبْوَةً شَدِيدَةً (أَيْ: عَلَا نَفَسُهُ وَضَاقَ صَدْرُهُ وَذُعِرَ وَامْتَلَأَ خَوْفًا)، وَاصْفَرَّ وَجْهُهُ، فَقَالَ ابْنُ عَبَّاسٍ: وَيْحَكَ، إِنْ أَبَيْتَ إِلَّا أَنْ تَصْنَعَ، فَعَلَيْكَ بِهَذَا الشَّجَرِ، كُلِّ شَيْءٍ لَيْسَ فِيهِ رُوحٌ.

Mən İbn Abbasın, Allah onlardan razı olsun, yanında idim. Onun yanına bir kişi gəlib dedi: "Mənim dolanışığım əl sənətimdəndir və mən bu şəkilləri düzəldirəm". İbn Abbas, Allah onlardan razı olsun, dedi: Sənə yalnız Allah rəsulundan, Allahın salavatı və salamı onun üzərinə olsun, eşitdiyimi danışacağam. Onun belə dediyini eşitdim: “Kim bir şəkil çəkərsə, Allah ona ruh üfürənə qədər əzab verəcəkdir və o, əsla ona ruh üfürə bilməyəcəkdir”. Kişi bərk təşvişə düşdü (yəni: nəfəsi kəsildi, sinəsi daraldı, dəhşətə gəldi və qorxu ilə doldu) və üzü saraldı. İbn Abbas dedi: “Vay halına, əgər bu işi görməkdə israr edirsənsə, o

[1] Hədisi Buxari: (7559) və Müslim: (2111) rəvayət etmişdir.

zaman bu ağacların və ruhu olmayan hər bir şeyin şəklini çək”[1].

Əbu Talhadan, Allah ondan razı olsun, rəvayət edilir ki, Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurdu:

«لَا تَدْخُلُ المَلَائِكَةُ بَيْتًا فِيهِ كَلْبٌ وَلَا صُورَةٌ».

“İçində it və şəkil olan evə mələklər girməz”[2]. Buxari demişdir: "Ruhu olan timsalları qəsd edir".

Əbul-Həyyəc əl-Əsədidən rəvayət edilir ki, o, dedi: Əli bin Əbi Talib mənə belə demişdir: "Peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, məni göndərdiyi tapşırıqla mən də səni göndərimmi? Bütün heykəlləri məhv et, hündür qəbrləri yerlə bir et"[3].

İbn Teymiyyə, Allah ona gəni-gəni rəhmət etsin, demişdir: "Ona iki təsviri - ölünün surətində düzəldilmiş şəkli və qəbrinin üzərində ucaldılmış heykəli - məhv etməyi əmr etdi. Çünki şirk həm bununla, həm də onunla baş verir"[4].

## Zərərləri:

Heykəl düzəltməyin bir çox zərərləri vardır. Onlardan bəziləri bunlardır:

---

[1] Hədisi Buxari: (2225) və Müslim: (2110) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (4002) və Müslim: (2106) rəvayət etmişdir.
[3] Hədisi Müslim: (969) rəvayət etmişdir.
[4] Məcmuə əl-Fətəva: (17/462).

- Bu, Uca Allaha şərik qoşmağa səbəbdir. İbn Abbas - Allah onların hər ikisindən razı olsun - Uca Allahın bu sözü haqqında belə demişdir:

﴿وَقَالُوا لَا تَذَرُنَّ ءَالِهَتَكُمْ وَلَا تَذَرُنَّ وَدًّا وَلَا سُوَاعًا وَلَا يَغُوثَ وَيَعُوقَ وَنَسْرًا 23﴾

"Onlar (özlərinə tabe) dedilər: "İlahlarınızı tərk etməyin; Vəddi, Suvanı, Yəğusu, Yəuqu və Nəsri tərk etməyin!". [Nuh 11 surəsi, ayə 23] - dedi: "(Bunlar) Nuh qövmündən olan saleh kişilərin adlarıdır. Onlar vəfat etdikdə, şeytan onların qövmünə vəsvəsə etdi ki, oturduqları məclislərə heykəllər qoyub onlara həmin kişilərin adlarını versinlər. Onlar da belə etdilər, lakin bu heykəllərə ibadət edilmədi. Nəhayət, o nəsil də dünyadan köçüb elm aradan qalxdıqda, onlara ibadət olunmağa başlandı"[1].

- Bu, Uca Allahla çəkişmək və Onun ən əzəmətli sifətlərindən biri olan xəlq etmə sifətində Ona şərik olmaqdır.

- Bu, Qiyamət günü Uca Allahın qula qəzəblənməsinə səbəbdir. Şəkil çəkənlər Allah dərgahında məxluqatın ən şərlisidir. Möminlərin anası Aişədən, Allah ondan razı olsun, rəvayət edilir ki, Ummu Həbibə və Ummu Sələmə, Allah onlardan razı olsun, Həbəşistanda gördükləri və içərisində təsvirlər olan bir kilsə barədə peyğəmbərə, Allahın

[1] Hədisi Buxari: (4920) rəvayət etmişdir.

salavatı və salamı onun üzərinə olsun, bəhs etdilər. O isə buyurdu:

«إِنَّ أُولَئِكِ إِذَا كَانَ فِيهِمُ الرَّجُلُ الصَّالِحُ فَمَاتَ، بَنَوْا عَلَى قَبْرِهِ مَسْجِدًا، وَصَوَّرُوا فِيهِ تِلْكَ الصُّوَرَ، فَأُولَئِكِ شِرَارُ الخَلْقِ عِنْدَ اللَّهِ يَوْمَ القِيَامَةِ».

«Həqiqətən o kimsələr, aralarından saleh bir insan dünyasını dəyişdikdə, onun qəbri üzərində məscid tikərlər və içərisində həmin şəkilləri çəkərlər. Məhz onlar Qiyamət günü Allah qatında məxluqların ən şərliləridir»[1].

- Onu edən şəxsin peyğəmbərin, sallallahu aleyhi və səlləm, lənətinə düçar olmasına səbəb olmasıdır. Belə ki, Əbu Cuheyfə, Allah ondan razı olsun, rəvayət edir:

«أَنَّ رَسُولَ اللَّهِ ﷺ لَعَنَ المُصَوِّرَ».

"Allah rəsulu, sallallahu aleyhi va səlləm, surət çəkənləri lənətləmişdir"[2].

- Hədislərdə də keçdiyi kimi, bu, Qiyamət günü şiddətli əzaba səbəbdir.

- Mələklər, əvvəlki hədisdə olduğu kimi, içində şəkil və ya heykəl olan evə girməzlər.

- Bu, xristianlara və digər kafirlərə bənzəməkdir.

## Qorunma:

Bu böyük günahdan qorunmağın yolları:

- Qul, Qiyamət günü Allahın ona qəzəblənəcəyini, ona bu heykələ ruh üfürməyin əmr ediləcəyini,

[1] Hədisi Buxari: (427) və Müslim: (528) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (2238) rəvayət etmişdir.

lakin buna qadir olmayacağını və peyğəmbərinin ﷺ lənətinə düçar olacağını xatırlaması.

- Heykəl düzəltməyi özünə peşə edən kəs bilməlidir ki, kim bir şeyi Allah üçün tərk edərsə, Allah ona dünyada və axirətdə ondan da daha xeyirlisini nəsib edər. Çünki o, bunu Allah üçün tərk edərsə, Allah ona gözləmədiyi yerdən halal ruzi verər.

Haram qazancın duanın qəbul olunmamasına, övladların da saleh və nəcib olmamasına təsirini xatırlamaq.

Yox əgər kimsə bu əməli nəfsini əyləndirmək üçün və ya hobbi adlandırdıqları bir məşğuliyyətə görə edirsə, onun üçün daha yaxşıdır ki, Uca Allaha xatir bundan əl çəksin və onu Allahın halal buyurduğu dünya zinətlərindən başqası ilə əvəz etsin. Əgər mütləq bunu etmək istəyərsə, o zaman qoy ağac, bina və cansız əşyalar kimi ruhu olmayan şeylərin heykəllərini düzəltsin.

- Məsul və səlahiyyətli qurumlar kimi ixtiyar sahiblərinin və kişinin öz evində bütləri aradan qaldırması və sındırması.

## livat (homoseksualizim).

Livat (homoseksualizim/ sodomiya), yəni: kişinin kişi ilə arxadan cinsi əlaqədə olması böyük günahlardandır. Bu əməl, Allahın insanları üzərində yaratdığı sağlam fitrətin pozulmasıdır; əxlaqı məhv edir, kişiliyi aradan qaldırır, nəsli kəsir,

cəmiyyəti pozur və Allah Təalanın qəzəbinə, şiddətli əzabına səbəb olur. Uca Allah Lut qövmü haqqında buyurur:

﴿فَلَمَّا جَآءَ أَمۡرُنَا جَعَلۡنَا عَٰلِيَهَا سَافِلَهَا وَأَمۡطَرۡنَا عَلَيۡهَا حِجَارَةٗ مِّن سِجِّيلٖ مَّنضُودٖ 82 مُّسَوَّمَةً عِندَ رَبِّكَۖ وَمَا هِيَ مِنَ ٱلظَّٰلِمِينَ بِبَعِيدٖ 83﴾

"Əmrimiz gəldikdə oranın altını üstünə çevirdik və odda bişmiş gil daşları ardıcıl olaraq onların üstünə yağdırdıq.

O daşlara Rəbbinin yanında işarə qoyulmuşdur. O (daşlar) zalımlardan uzaq deyildir". [Hud 11 surəsi, ayələr 82-83].

## Dəlillər:

Livatın haram olduğunu, onun nə qədər çirkin bir əməl və böyük bir günah olduğunu bəyan edən dəlillər çoxdur. Onlardan bəziləri bunlardır:

Uca Allah Lutun, Allahın ona salamı olsun, öz qövmünə dediyi söz haqda xəbər verərək belə demişdir:

﴿أَتَأۡتُونَ ٱلذُّكۡرَانَ مِنَ ٱلۡعَٰلَمِينَ 165 وَتَذَرُونَ مَا خَلَقَ لَكُمۡ رَبُّكُم مِّنۡ أَزۡوَٰجِكُمۚ بَلۡ أَنتُمۡ قَوۡمٌ عَادُونَ 166﴾

"Doğrudanmı siz insanlar içində ancaq kişilərlə yaxınlıq edir

və Rəbbinizin sizin üçün yaratdığı qadınlarınızı tərk edirsiniz? Siz, həqiqətən də, həddi aşan bir qövmsünüz”. (Şuəra 42 surəsi, ayələr 165-166) "Həddi aşanlar" yəni: Rəbbinizin sizə halal

buyurduğu qadınlarla yaxınlığı tərk edib, haram buyurduğuna yönəlməklə həddi aşırsınız[1].

Pak və Uca olan Allah buyurur:

﴿وَلُوطًا إِذۡ قَالَ لِقَوۡمِهِۦٓ أَتَأۡتُونَ ٱلۡفَٰحِشَةَ مَا سَبَقَكُم بِهَا مِنۡ أَحَدٖ مِّنَ ٱلۡعَٰلَمِينَ 80 إِنَّكُمۡ لَتَأۡتُونَ ٱلرِّجَالَ شَهۡوَةٗ مِّن دُونِ ٱلنِّسَآءِۚ بَلۡ أَنتُمۡ قَوۡمٞ مُّسۡرِفُونَ 81﴾

"Lutu da (elçi göndərdik). Bir zaman o, öz qövmünə demişdi: “Siz özünüzdən əvvəl aləmlərdən heç kəsin etmədiyi iyrənc əməlimi edirsiniz?

Siz, qadınları qoyub şəhvətlə kişilərə yaxınlaşırsınız. Həqiqətən də, siz, həddi aşmış bir qövmsünüz”. (Əraf 7 surəsi, ayələr 80-81).

Abdullah bin Abbas, Allah ondan razı olsun, rəvayət edir ki, Allah rəsulu, sallələllahu aleyhi va səlləm, belə demişdir:

«مَنْ وَجَدْتُمُوهُ يَعْمَلُ عَمَلَ قَوْمِ لُوطٍ، فَاقْتُلُوا الفَاعِلَ وَالمَفْعُولَ بِهِ».

«Kimi Lut qövmünün əməlini edən görsəniz, faili (edəni) də, məfulu da (ediləni də) öldürün»[2].

Cabir, Allah ondan razı olsun, rəvayət edir ki, Allahın rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«إِنَّ أَخْوَفَ مَا أَخَافُ عَلَى أُمَّتِي عَمَلُ قَوْمِ لُوطٍ».

"Ümmətim üçün ən çox qorxduğum şey — Lut qövmünün əməlidir"[3].

---

1 Təfsir ət-Tabari (17/630).
2 Hədisi Əbu Davud: (4462) rəvayət etmişdir.
3 Hədisi Tirmizi: (1457) rəvayət etmişdir.

## Zərərləri:

Livatın böyük zərərləri vardır. Bunlardan bəziləri aşağıdakılardır:

- Livat edən kimsə axirətdə şiddətli əzaba məruz qalır.
- Halal nikahın azlığı və subaylığın çoxalması.
- Nəslin azaldılması və ya tamamilə kəsilməsi. Bu, əkinə yararsız torpağa toxum səpən kimsə kimi, həyat suyunu (nütfəni) zay etməkdir.
- İbn əl-Qayyim - rahiməhullah - demişdir:

**"Livat bu işi edəndə və ediləndə qəm-qüssə, narahatlıq və nifrət yaradır"[1].**

Həmçinin, üzü qaraldır, köksü zülmətə bürüyür və qəlbin nurunu söndürür.

Həmçinin bu, əməli edən ilə ona məruz qalan arasında uzaqlaşmaya, şiddətli nifrətə və əlaqələrin kəsilməsinə səbəb olur ki, bu da qaçılmazdır.

Həmçinin, bu əməl onu edənin və ona məruz qalanın halını elə bir fəsada uğradır ki, Uca Allahın səmimi tövbə ilə diləməsi istisna olmaqla, bundan sonra onların islah olunacağına, demək olar ki, ümid edilməz.

Həmçinin bu, nemətlərin zaval tapmasına və bəlaların gəlməsinə ən böyük səbəbdir.

Həmçinin, o, həyanı tamamilə aradan qaldırır. Həya qəlblərin həyatıdır. Qəlb onu itirdikdə, çirkin

---

[1] Zadul-Məad (4/241-242) ixtisarla.

olanı gözəl, gözəl olanı isə çirkin görməyə başlayar. Bu halda onun fəsadı artıq möhkəmlənmiş olar.

Həmçinin bu əməl elə bir həyasızlıq və cəsarət gətirir ki, onu başqa heç bir şey gətirmir.

- Keçmiş əsrlərdə mövcud olmayan, məsələn: QİÇS xəstəliyi kimi xəstəliklərin ortaya çıxması.

- Bu, "sihaqa" (lezbiyanlığa) və ya zinaya gətirib çıxarır. Çünki kişilər kişilərlə kifayətləndikdə, qadınlar da qadınlarla kifayətlənir yaxud da qadın öz şəhvətini təmin etmək üçün ərindən başqasına üz tutur.

## Qorunma:

Livat (homoseksuallıq) günahına düşməkdən qorunma yolları:

- Evlənmək, livatdan qorunmağın ən güclü səbəblərindəndir. Kim evlənməyə gücü çatmazsa, oruc tutsun. Abdullah ibn Məsud, Allah ondan razı olsun, peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, belə dediyini rəvayət etmişdir:

«مَنِ اسْتَطَاعَ البَاءَةَ فَلْيَتَزَوَّجْ، فَإِنَّهُ أَغضُّ لِلْبَصَرِ، وَأَحْصَنُ لِلْفَرْجِ، وَمَنْ لَمْ يَسْتَطِعْ فَعَلَيْهِ بِالصَّوْمِ، فَإِنَّهُ لَهُ وِجَاءٌ».

"Kim evlənməyi bacarırsa, evlənsin. Çünki evlənmək, gözü naməhrəmlərə baxmaqdan, ayıb yerlərini isə zinadan qoruyur. Kim evlənə bilmirsə, oruc tutsun. Həqiqətən oruc şəhvəti qırır"[1].

---

[1] Hədisi Buxari: (1905) və Müslim: (1400) rəvayət etmişdir.

- Kişinin kişinin övrətinə baxmaması. Əbu Səid əl-Xudridən, Allah ondan razı olsun, Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, belə dediyi rəvayət edilir:

«لَا يَنْظُرُ الرَّجُلُ إِلَى عَوْرَةِ الرَّجُلِ، وَلَا المَرْأَةُ إِلَى عَوْرَةِ المَرْأَةِ، وَلَا يُفْضِي الرَّجُلُ إِلَى الرَّجُلِ فِي ثَوْبٍ وَاحِدٍ، وَلَا تُفْضِي المَرْأَةُ إِلَى المَرْأَةِ فِي الثَّوْبِ الوَاحِدِ».

"Kişi kişinin övrətinə, qadın da qadının övrətinə baxmasın. Kişi bir paltar altında başqa bir kişi ilə, qadın da bir paltar altında başqa bir qadınla qalmasın"[1].

- Əxlaqsız saytlara daxil olmamaq və kişi və qadınlardan olan pis dostlarla ünsiyyət qurmamaq.

- On yaşına çatdıqda kiçik yaşlı uşaqların – istər oğlan, istərsə də qız olsunlar – yataqlarının ayrılması. Abdullah ibn Amr ibn Asdan, Allah onlardan razı olsun, rəvayət olunur ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə demişdir:

«مُرُوا أَوْلَادَكُمْ بِالصَّلَاةِ وَهُمْ أَبْنَاءُ سَبْعِ سِنِينَ، وَاضْرِبُوهُمْ عَلَيْهَا وَهُمْ أَبْنَاءُ عَشْرٍ، وَفَرِّقُوا بَيْنَهُمْ فِي المَضَاجِعِ».

"Övladlarınıza yeddi yaşında ikən namaz qılmağı əmr edin, on yaşında ikən onları namaza görə (əgər qılmasalar) vurun və onların yataqlarını da ayırın"[2].

- Böyük günah olan livat əməlinin dünyada və axirətdə pis nəticələrindən qorxutmaq.

---

1 Hədisi Müslim: (338) rəvayət etmişdir.
2 Hədisi Əbu Davud: (495) rəvayət etmişdir.

- Fərdlərin və cəmiyyətlərin qəlbində doğru əqidəni aşılamağa, onun dayaqlarını möhkəmləndirməyə və onu daim qoruyub saxlamağa tam səy göstərmək. Çünki davranışdakı azğınlıq əksər hallarda əqidədəki xələldən irəli gəlir.

## Ramazan ayında heç bir üzr olmadan orucu açmaq.

Allah Ramazan ayının orucunu möminlərə fərz buyurmuş və belə buyurmuşdur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ كُتِبَ عَلَيۡكُمُ ٱلصِّيَامُ كَمَا كُتِبَ عَلَى ٱلَّذِينَ مِن قَبۡلِكُمۡ لَعَلَّكُمۡ تَتَّقُونَ 183﴾

"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, bəlkə (Allahdan) qorxasınız". (Bəqərə 2 surəsi, ayə 183).

Ramazan ayının orucu İslamın ərkanlarından biridir. Abdullah ibn Ömər, Allah ondan və atasından razı olsun, rəvayət edirki, Allahın elçisi, Allahın salavatı və salamı onun üzərinə olsun, buyurmuşdur:

«بُنِيَ الإِسْلَامُ عَلَى خَمْسٍ: شَهَادَةِ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، وَإِقَامِ الصَّلَاةِ، وَإِيتَاءِ الزَّكَاةِ، وَالحَجِّ، وَصَوْمِ رَمَضَانَ».

«İslam beş (əsas) üzərində qurulmuşdur: Allahdan başqa (ibadətə haqqı olan) məbud olmadığına və Muhəmmədin (sallallahu aleyhi va səlləm) Allahın

elçisi olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək, həcc etmək və Ramazan orucunu tutmaq»[1].

Kim heç bir üzr olmadan qəsdən Ramazan ayının orucunu və ya ondan bir günü açarsa, Uca Allaha qarşı günah etmiş, dinin rüknlərindən birinə qarşı həddi aşmış və böyük günahlardan birini işləmiş olar.

Hafiz əz-Zəhəbi - rahiməhullah - demişdir: "Möminlər yanında qərarlaşmışdır ki, kim Ramazan orucunu heç bir xəstəlik və ya şəri üzrü olmadan tərk edərsə, o kəs zina edən adamdan, haqsız vergi yığandan və şərab düşkünündən daha şərlidir. Hətta onun İslamına şübhə edər, zındıq və pozğun olduğunu zənn edərlər"[2].

## Dəlillər:

Ramazan ayında üzrsüz olaraq bir gün oruc tutmamağın haram olduğunu, bu əməlin çirkinliyini və günahının böyüklüyünü bəyan edən dəlillər çoxdur. Onlardan bəziləri bunlardır:

Əbu Umamədən, Allah ondan razı olsun, rəvayət edildiyinə görə, o belə demişdir: mən Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, belə dediyini eşitdim:

«بَيْنَا أَنَا نَائِمٌ إِذْ أَتَانِي رَجُلَانِ فَانْطَلَقَا بِي، فَإِذَا قَوْمٌ مُعَلَّقُونَ بِعَرَاقِيبِهِمْ (أَيْ مُؤَخَّرِ القَدَمِ)، مُشَقَّقَةٌ أَشْدَاقُهُمْ (أَيْ جَانِبُ الفَمِ) تَسِيلُ أَشْدَاقُهُمْ دَمًا، قُلْتُ: مَنْ هَؤُلَاءِ؟ قَالَ: هَؤُلَاءِ الَّذِينَ يُفْطِرُونَ قَبْلَ تَحِلَّةِ صَوْمِهِمْ».

---

[1] Hədisi Buxari: (8) və Müslim: (16) rəvayət etmişdir.
[2] Bax: "Feyd əl-Qadir": (4/311).

"Mən yuxuda ikən iki nəfər yanıma gəlib məni özləri ilə apardı. Orada daban vətərlərindən asılmış bir toplum var idi. Onların ağızlarının kənarları cırılmışdı və oradan qan axırdı. "Bunlar kimlərdir?" – deyə soruşdum. O: "Bunlar vaxtı çatmamış oruclarını açanlardır" – deyə cavab verdi"[1].

Səhabələrin, Allah onlardan razı olsun, Ramazan ayında heç bir üzr olmadan orucunu açan kimsəni cəzalandırdıqlarına dair bir neçə rəvayət nəql olunmuşdur. Onlardan biri də Ömər ibn Xəttabdan, Allah ondan razı olsun, rəvayət olunur ki, onun yanına Ramazan ayında şərab içmiş bir qoca kişi gətirildikdə, o, belə demişdir: “Xır-xır! (bu, uzunqulağın burun dəliklərindən çıxan səsdir) bizim övladlarımız orucdur (yəni: bizim kiçiklərimiz oruc tutduğu halda, sən orucunu pozmusan)”. Sonra ona səksən çubuq vurdu və onu Şama sürgün etdi.

Əli bin Əbu Talibdən, Allah ondan razı olsun, rəvayət edilir ki, onun yanına Ramazanda içki içmiş bir nəfər gətirildi. O, həmin adama səksən, səhəri gün isə iyirmi çubuq vurdu və dedi: "Səni Allaha qarşı cürət etdiyinə və Ramazan ayında orucunu pozduğuna görə iyirmi qamçı vurduq".

Əli bin Əbi Talibdən, Allah ondan razı olsun, belə söylədiyi rəvayət edilir: "Kim Ramazanda üzrsüz olaraq bir gün orucunu pozarsa, bütün ömrü boyu

---

[1] Hədisi Nəsai "Kubra" (3273) əsərində müxtəsər olaraq rəvayət etmişdir.

oruc tutsa belə, o günün qəzasını yerinə yetirə bilməz".

İbn Məsud - Allah ondan razı olsun - demişdir: "Kim Ramazanda rüsxət olmadan bir gün orucunu açarsa, ömrü boyu oruc tutsa belə, o günün əvəzini verə bilməz"[1].

## Zərərləri:

Ramazan ayında heç bir üzr olmadan oruc açmağın bir çox zərəri vardır. Onlardan bəziləri aşağıdakılardır:

- İslamın rüknlərindən birini tərk etmək.

Uca Allahın əmrlərinə laqeyid yanaşmaq.

- Uca Allahın fərzinə cəsarətlə qarşı çıxıb insanların gözü qarşısında orucu pozmaq. Bu, həmin şəxsin Uca Allahın əfvinə layiq olmamasına səbəb olur. Allaha qarşı belə cürət edən şəxsin orucunu pozduğunu isə yalnız o, özü sözü və ya əməli ilə aşkara çıxardıqda bilmək olar. Əbu Hureyrə, Allah ondan razı olsun, belə demişdir: mən Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurduğunu eşitdim:

«كُلُّ أُمَّتِي مُعَافًى إِلَّا الْمُجَاهِرِيْنَ».

"Günahını aşkarda edənlərdən başqa bütün ümmətim bağışlanacaqdır"[2].

1 Bu əsərlər üçün bax: İbn Həzm, "əl-Muhəlla" (4/311).
2 Hədisi Buxari: (6069) və Müslim: (2990) rəvayət etmişdir.

- Başqalarını bu günahı yaymağa təşviq etmək. Allah bu əmələ görə əzab vəd etmişdir. Uca Allah buyurur:

﴿إِنَّ ٱلَّذِينَ يُحِبُّونَ أَن تَشِيعَ ٱلۡفَٰحِشَةُ فِي ٱلَّذِينَ ءَامَنُواْ لَهُمۡ عَذَابٌ أَلِيمٞ فِي ٱلدُّنۡيَا وَٱلۡأٓخِرَةِۚ وَٱللَّهُ يَعۡلَمُ وَأَنتُمۡ لَا تَعۡلَمُونَ 19﴾

"Möminlər arasında əxlaqsızlığın yayılmasını istəyən kimsələr üçün dünyada və axirətdə acılı-ağrılı bir əzab vardır. Allah bilir, siz isə bilmirsiniz". (Nur 24 surəsi, ayə 19).

## Qorunma:

Ramazan ayında üzrsüz olaraq orucu pozmaqdan qorunma yolları:

- Kiçik yaşlarından oruca vərdiş etmək. Ər-Rubeyyi binti Muəvviz, Allah ondan razı olsun, belə demişdir:

أَرْسَلَ النَّبِيُّ ﷺ غَدَاةَ عَاشُورَاءَ إِلَى قُرَى الأَنْصَارِ «مَنْ أَصْبَحَ مُفْطِرًا، فَلْيُتِمَّ بَقِيَّةَ يَوْمِهِ وَمَنْ أَصْبَحَ صَائِمًا، فَلْيَصُمْ» قَالَتْ: فَكُنَّا نَصُومُهُ بَعْدُ، وَنُصَوِّمُ صِبْيَانَنَا، وَنَجْعَلُ لَهُمُ اللُّعْبَةَ مِنَ العِهْنِ -أَيْ الصُّوفِ-، فَإِذَا بَكَى أَحَدُهُمْ عَلَى الطَّعَامِ أَعْطَيْنَاهُ ذَاكَ حَتَّى يَكُونَ عِنْدَ الإِفْطَارِ.

Peyğəmbər, sallallahu aleyhi va səlləm, Aşura günü səhər ənsarın kəndlərinə belə bir xəbər göndərdi: "Kim səhəri orucsuz açıbsa, günün qalan hissəsini oruclu keçirsin, kim də səhəri oruclu açıbsa, orucunu tamamlasın". (Rəvayətçi) dedi: "Bundan sonra biz həmin günü oruc tutar və uşaqlarımıza da oruc tutdurardıq. Biz onlara yundan oyuncaq

düzəldər, onlardan biri yemək üçün ağladıqda, iftar vaxtına qədər həmin oyuncağı ona verərdik"[1].

- Nəfsi səbrə tərbiyə etmək. Əbu Səid əl-Xudridən, Allah ondan razı olsun, peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, belə dediyi rəvayət edilir:

«وَمَنْ يَتَصَبَّرْ يُصَبِّرْهُ اللَّهُ».

«Hər kim səbr etməyə çalışarsa, Allah onu səbirli edər»[2].

- Oruc tutmağın müqabilində Allahın verəcəyi böyük savaba nəfsi rəğbətləndirmək. Əbu Hureyrə, Allah ondan razı olsun, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə dediyini rəvayət etmişdir:

«قَالَ اللَّهُ: كُلُّ عَمَلِ ابْنِ آدَمَ لَهُ، إِلَّا الصِّيَامَ، فَإِنَّهُ لِي وَأَنَا أَجْزِي بِهِ».

"Allah buyurur: Adəm övladının orucdan başqa hər bir əməli özünə aiddir. Oruc isə Mənim üçündür və onun mükafatını Mən verəcəyəm"[3].

Səhl bin Səad, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, salləllahu aleyhi va səlləm, belə demişdir:

«إِنَّ فِي الجَنَّةِ بَابًا يُقَالُ لَهُ الرَّيَّانُ، يَدْخُلُ مِنْهُ الصَّائِمُونَ يَوْمَ القِيَامَةِ، لَا يَدْخُلُ مِنْهُ أَحَدٌ غَيْرُهُمْ، يُقَالُ: أَيْنَ الصَّائِمُونَ؟ فَيَقُومُونَ لَا يَدْخُلُ مِنْهُ أَحَدٌ غَيْرُهُمْ، فَإِذَا دَخَلُوا أُغْلِقَ فَلَمْ يَدْخُلْ مِنْهُ أَحَدٌ».

"Cənnətdə Rəyyan deyilən bir qapı vardır. Qiyamət günü o qapıdan ancaq oruc tutanlar daxil olacaqdır.

---

1 Hədisi Buxari: (1960) və Müslim: (1136) rəvayət etmişdir.
2 Hədisi Buxari: (1960) və Müslim: (1136) rəvayət etmişdir.
3 Hədisi Buxari: (1904) və Müslim: (1151) rəvayət etmişdir.

Bu qapıdan onlardan başqa heç kəs keçə bilməyəcəkdir. (O gün:) “Oruc tutanlar haradadır?” – deyiləcək və oruc tutanlar ayağa qalxacaqlar, onlardan başqa heç kəs bu qapıdan keçə bilməyəcəkdir. Onlar içəri daxil olduqdan sonra (qapı) bağlanacaq və (bundan sonra) heç kəs o qapıdan (Cənnətə) daxil ola bilməyəcəkdir"[1].

## Lağa qoymaq və istehza etmək.

Müsəlmanın öz müsəlman qardaşına istehza edib onu məsxərəyə qoyması böyük günahlardandır. Bu, kafirlərin və münafiqlərin sifətlərindəndir. Bunu edən kimsəyə şiddətli əzab vəd olunmuşdur və bu günah Allahın saleh qullarına qarşı edildikdə daha da ağırlaşar.

Müsəlmanın öz qardaşına məsxərə və istehza etməsinin müxtəlif formaları vardır: onu aşağılamaq, ona xor baxmaq və insanların ona gülməsi üçün eyib və nöqsanlarını önə çəkmək. Bu, əməllə, sözlə və ya işarə ilə onu yamsılamaqla, danışığında çaşdıqda və ya səhv etdikdə sözlərinə, sənətinə, çirkin görünüşünə gülməklə və bu kimi digər alçaldıcı hərəkətlərlə ola bilər.

## Dəlillər:

Müsəlmana məsxərə və istehza etməyin haramlığına dair dəlillər:

Uca Allah buyurur:

---

[1] Hədisi Buxari: (1896) və Müslim: (1152) rəvayət etmişdir.

﴿زُيِّنَ لِلَّذِينَ كَفَرُواْ ٱلۡحَيَوٰةُ ٱلدُّنۡيَا وَيَسۡخَرُونَ مِنَ ٱلَّذِينَ ءَامَنُواْۘ وَٱلَّذِينَ ٱتَّقَوۡاْ فَوۡقَهُمۡ
يَوۡمَ ٱلۡقِيَٰمَةِۗ وَٱللَّهُ يَرۡزُقُ مَن يَشَآءُ بِغَيۡرِ حِسَابٖ 212﴾

"Dünya həyatı kafirlər üçün gözəlləşdirildi. Onlar iman gətirənləri məsxərəyə qoyurlar. Halbuki müttəqilər Qiyamət günü onlardan üstün olacaqlar. Allah istədiyi kəsə hesabsız ruzi verər". (Bəqərə 2 surəsi, ayə 212).

Səadi, Allah ona rəhmət etsin, demişdir: "Allah Təala xəbər verir ki, Ona, ayələrinə və elçilərinə küfr edən və şəriətinə tabe olmayan kimsələr üçün dünya həyatı gözəlləşdirilmişdir. Beləcə, dünya onların gözlərində və qəlblərində bəzədilmiş, onlar da ondan razı qalıb, onunla rahatlıq tapmışlar. Onların bütün istək, arzu və əməlləri yalnız dünyaya yönəlmiş, ona üz tutmuş və onu əldə etməyə can atmışlar. Onlar dünyanı və bu işdə onlara şərik olanları uca tutmuş, möminlərə isə xor baxıb onları məsxərəyə qoyaraq demişlər: “Allah aramızdan bunlara lütf göstərmişdir?”[1].

Bu, onların zəif ağıllarından və qüsurlu baxışlarından irəli gəlir. Çünki dünya bir sınaq və imtahan yurdudur və burada həm iman, həm də küfr əhli məşəqqətə düçar olacaqdır. Lakin möminin başına bu dünyada xoşagəlməz bir hadisə gəldikdə, o, səbr edib savabını Allahdan umar. Allah da onun imanına və səbrinə görə, başqalarına nəsib olmayan bir şəkildə onun sıxıntısını yüngülləşdirər.

---

[1] Təfsir əs-Səadi (səh: 95).

Həqiqətən, bütün şərəf və əsl üstünlük "daimi yurddadır". Buna görə də Uca Allah buyurur:

﴿وَٱلَّذِينَ ٱتَّقَوۡاْ فَوۡقَهُمۡ يَوۡمَ ٱلۡقِيَٰمَةِۗ﴾

"Halbuki müttəqilər Qiyamət günü onlardan üstün olacaqlar" [Bəqərə 2 surəsi, ayə 212]. Beləliklə, müttəqilər ən uca dərəcələrdə olub, hər cür nemət, sevinc, şadlıq və fərəhdən zövq alacaqlar. Kafirlər isə onların altında, ən alt təbəqələrdə olub, hər cür əzaba, alçaldılmaya və sonu olmayan əbədi bədbəxtliyə düçar olacaqlar. Beləliklə, bu ayədə möminlər üçün bir təsəlli, kafirlər üçün isə bir qınama vardır.

Pak və Uca olan Allah buyurur:

﴿ٱلَّذِينَ يَلۡمِزُونَ ٱلۡمُطَّوِّعِينَ مِنَ ٱلۡمُؤۡمِنِينَ فِي ٱلصَّدَقَٰتِ وَٱلَّذِينَ لَا يَجِدُونَ إِلَّا جُهۡدَهُمۡ فَيَسۡخَرُونَ مِنۡهُمۡ سَخِرَ ٱللَّهُ مِنۡهُمۡ وَلَهُمۡ عَذَابٌ أَلِيمٌ 79﴾

"Möminlərdən könüllü surətdə sədəqə verənlərə və çətinliklə tapdıqlarını təsəddüq edənlərə eyib tutanları, onları məsxərəyə qoyanları, Allah da məsxərəyə qoyacaqdır. Onları ağrılı-acılı bir əzab gözləyir". [Tövbə 9 surəsi, ayə 79].

İbn Kəsir, Allah ona rəhmət etsin, demişdir: "Bu, münafiqlərin sifətlərindəndir. Onların eyib və tənəsindən heç bir halda heç kəs salamat qalmır, hətta sədəqə verənlər belə onlardan salamat qalmırlar. Onlardan biri bol mal gətirsə, deyərlər: "Bu, riyakardır". O, öz gücü çatdığı qədər cüzi bir şey gətirdikdə isə deyərlər: "Allah bunun

sədəqəsinə möhtac deyil". Allahın: "...onlar da möminlərə istehza edirlər. Allah da onlara istehza edər" sözləri, münafiqlərin pis əməllərinə və möminlərə istehza etmələrinə bir qarşılıqdır. Çünki cəza əməlin cinsindəndir. Belə ki, Allah dünyada möminlərə yardım etmək üçün onlarla istehza edən kimi rəftar etmiş və axirətdə münafiqlər üçün ağrılı-acılı bir əzab hazırlamışdır"[1].

Pak və Uca olan Allah buyurur:

﴿إِنَّهُۥ كَانَ فَرِيقٌ مِّنۡ عِبَادِي يَقُولُونَ رَبَّنَآ ءَامَنَّا فَٱغۡفِرۡ لَنَا وَٱرۡحَمۡنَا وَأَنتَ خَيۡرُ
ٱلرَّٰحِمِينَ 109 فَٱتَّخَذۡتُمُوهُمۡ سِخۡرِيًّا حَتَّىٰٓ أَنسَوۡكُمۡ ذِكۡرِي وَكُنتُم مِّنۡهُمۡ تَضۡحَكُونَ
110 إِنِّي جَزَيۡتُهُمُ ٱلۡيَوۡمَ بِمَا صَبَرُوٓاْ أَنَّهُمۡ هُمُ ٱلۡفَآئِزُونَ 111﴾

"Həqiqətən, qullarımdan bir zümrə var idi ki, onlar: “Ey Rəbbimiz! Biz iman gətirdik. Bizi bağışla, bizə rəhm et! Sən rəhm edənlərin ən xeyirlisisən!”– deyirdilər.

Siz isə onları məsxərəyə qoyurdunuz. Sonda bu (məsxərə) Məni yada salmağı belə sizə unutdurdu. Siz onlara gülürdünüz.

Bu gün Mən səbir etdiklərinə görə onları mükafatlandırdım. Şübhəsiz ki, uğur qazananlar da onlardır!". (Muminun 23 surəsi, ayələr 109 - 111).

Uca Allah buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا يَسۡخَرۡ قَوۡمٞ مِّن قَوۡمٍ عَسَىٰٓ أَن يَكُونُواْ خَيۡرٗا مِّنۡهُمۡ وَلَا نِسَآءٞ
مِّن نِّسَآءٍ عَسَىٰٓ أَن يَكُنَّ خَيۡرٗا مِّنۡهُنَّۖ وَلَا تَلۡمِزُوٓاْ أَنفُسَكُمۡ وَلَا تَنَابَزُواْ بِٱلۡأَلۡقَٰبِۖ بِئۡسَ
ٱلِٱسۡمُ ٱلۡفُسُوقُ بَعۡدَ ٱلۡإِيمَٰنِۚ وَمَن لَّمۡ يَتُبۡ فَأُوْلَٰٓئِكَ هُمُ ٱلظَّٰلِمُونَ 11﴾

---

[1] Təfsir İbn Kəsir (4/184) redaktə və ixtisarla.

"Ey iman gətirənlər! Bir qövm başqa bir qövmü məsxərəyə qoymasın. Ola bilər ki, onlar (məsxərəyə qoyulanlar) o birilərindən (məsxərə qoyanlardan Allah yanında) daha xeyirli olsunlar. Qadınlar da qadınları məsxərəyə qoymasınlar. Ola bilər ki, onlar (məsxərəyə qoyulanlar) o birilərindən (məsxərə qoyanlardan Allah yanında) daha xeyirli olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır". (Hucurat 49 surəsi, ayə 11).

Pak və Uca olan Allah buyurur:

﴿إِنَّ ٱلَّذِينَ أَجۡرَمُواْ كَانُواْ مِنَ ٱلَّذِينَ ءَامَنُواْ يَضۡحَكُونَ 29 وَإِذَا مَرُّواْ بِهِمۡ
يَتَغَامَزُونَ 30 وَإِذَا ٱنقَلَبُوٓاْ إِلَىٰٓ أَهۡلِهِمُ ٱنقَلَبُواْ فَكِهِينَ 31 وَإِذَا رَأَوۡهُمۡ قَالُوٓاْ إِنَّ
هَٰٓؤُلَآءِ لَضَآلُّونَ 32 وَمَا أُرْسِلُوا عَلَيْهِمْ حَافِظِينَ 33 فَالْيَوْمَ الَّذِينَ آمَنُوا مِنَ
الْكُفَّارِ يَضْحَكُونَ 34 عَلَى ٱلۡأَرَآئِكِ يَنظُرُونَ 35 هَلۡ ثُوِّبَ ٱلۡكُفَّارُ مَا كَانُواْ
يَفۡعَلُونَ 36﴾

"Günahkarlar (dünyada) iman gətirənlərə gülürdülər.

Onların (möminlərin) yanından keçdikdə bir-birinə qaş-göz edirdilər.

Ailələrinin yanına qayıtdıqda (möminlərə istehza etdikləri üçün) fərəhlə qayıdırdılar.

Onları (möminləri) gördükdə isə: “Bunlar azmışlardır!”– deyirdilər.

Halbuki onlar möminlərə gözətçi göndərilməmişdilər.

Bu gün (Qiyamət günü) isə iman gətirənlər kafirlərə güləcəklər.

Onlar taxtlar üstündə (əyləşib Allahın nemətlərinə) baxacaqlar.

Kafirlər etdikləri əməllərin cəzasını aldılarmı?!". (Mutaffifin 83 surəsi, ayələr 29-36).

Səadi, Allah ona rəhmət etsin, demişdir: "Uca Allah xəbər verir ki, günahkarlar bu dünyada möminləri ələ salır, onlara istehza edir və gülürdülər. Onların yanından keçdikdə isə onlara xor baxaraq və onları alçaldaraq bir-birlərinə qaş-göz edirdilər. Bununla belə, sən onları arxayın görərdin. Qorxu ağıllarına belə gəlmirdi. "Öz ailələrinin yanına" – istər səhər, istərsə də axşam – "qayıtdıqda isə fərəhlə qayıdardılar" yəni: sevincli və məmnun halda. Bu, ən böyük aldanmalardandır ki, onlar həm son dərəcə pis əməllər edir, həm də dünyada özlərini əmin-amanlıqda sayırlar. Sanki onlara Allahdan, səadət əhlindən olduqlarına dair bir kitab və bir əhd gəlmişdir. Onlar Allaha iftira ataraq və heç bir biliyi olmadan Onun haqqında danışmağa cürət edərək, özlərinin doğru yolda, möminlərin isə azğın olduqlarına hökm vermişlər. Allah Təala buyurur: "Halbuki bu günahkarlar onlara gözət-çi göndərilməmişdilər" - yəni: onlar möminlərin əməllərini qorumaqla məsul olan vəkillər kimi göndərilməmişlər ki, onları azğınlıqda ittiham etməyə çalışsınlar. Onların bu hərəkəti heç bir əsası və dəlili olmayan bir tərslik, inadkarlıq və

oyunbazlıqdan başqa bir şey deyildir. Buna görə də onların axirətdəki cəzası etdikləri əməlin cinsindən oldu. Uca Allah buyurur: "Bu gün isə", yəni: Qiyamət günü "iman gə-ti-rənlər ka-firlərə güləcəklər". Onlar kafirləri şiddətli əzab içində çapalayarkən və uydurduqları şeylərin puç olub getdiyini görəcəklər. Möminlər isə tam bir rahatlıq və əmin-amanlıq içində "taxtlar üzərində" yəni: bəzədilmiş taxtlar üzərində əyləşərək, Uca Allahın onlar üçün hazırladığı nemətlərə və Kəramətli Rəbbinin Üzünə "baxacaqlar"[1].

"Kafirlər etdikləri əməllərin cəzasını al-dılarmı?!" Yəni: onlar etdikləri əməllərin eynisi ilə cəzalandırıldılarmı? Necə ki, onlar dünyada möminlərə gülüb onları azğınlıqda ittiham edirdilər, eləcə də möminlər axirətdə onlara güləcək və onları azğınlığın və sapqınlığın cəzası olan əzab-əziyyət içində görəcəklər. Bəli, onlara etdikləri əməllərin cəzası verildi. Bu, Allahın ədaləti və hikmətindəndir. Allah hər şeyi biləndir, hikmət sahibidir.

Əbu Zər, Allah ondan razı olsun, demişdir:

كَانَ بَيْنِي وَبَيْنَ رَجُلٍ مِنْ إِخْوَانِي كَلَامٌ، وَكَانَتْ أُمُّهُ أَعْجَمِيَّةً، فَعَيَّرْتُهُ بِأُمِّهِ، فَشَكَانِي إِلَى النَّبِيِّ ﷺ، فَلَقِيتُ النَّبِيَّ ﷺ فَقَالَ: «يَا أَبَا ذَرٍّ، إِنَّكَ امْرُؤٌ فِيكَ جَاهِلِيَّةٌ»، قُلْتُ: يَا رَسُولَ اللَّهِ، مَنْ سَبَّ الرِّجَالَ سَبُّوا أَبَاهُ وَأُمَّهُ، قَالَ: «يَا أَبَا ذَرٍّ، إِنَّكَ امْرُؤٌ فِيكَ جَاهِلِيَّةٌ...».

[1] Təfsir əs-Səadi (səh: 916).

Mənimlə qardaşlarımdan olan bir kişi arasında söz-söhbət oldu. Onun anası əcəmi idi, mən də onu anasına görə ayıbladım. O, məndən peyğəmbərə, sallallahu aleyhi va səlləm, şikayət etdi. Peyğəmbərlə, sallallahu aleyhi va səlləm, qarşılaşdım və o mənə dedi: «Ey Əbu Zərr, həqiqətən, sən elə bir adamsan ki, səndə cahiliyyət var». Dedim: Ey Allahın rəsulu, kim insanları söysə, onlar da onun atasını və anasını söyərlər. O dedi: «Ey Əbu Zərr, həqiqətən, sən elə bir adamsan ki, səndə cahiliyyət var...»[1].

Əbu Hureyrə, Allah ondan razı olsun, demişdir ki, Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«المُسْلِمُ أَخُو المُسْلِمِ، لَا يَظْلِمُهُ وَلَا يَخْذُلُهُ، وَلَا يَحْقِرُهُ، التَّقْوَى هَاهُنَا -وَيُشِيرُ إِلَى صَدْرِهِ ثَلَاثَ مَرَّاتٍ- بِحَسْبِ امْرِئٍ مِنَ الشَّرِّ أَنْ يَحْقِرَ أَخَاهُ المُسْلِمَ، كُلُّ المُسْلِمِ عَلَى المُسْلِمِ حَرَامٌ، دَمُهُ، وَمَالُهُ، وَعِرْضُهُ».

"Müsəlman müsəlmanın qardaşıdır, ona zülm etməz, onu köməksiz qoymaz və onu alçatmaz. Təqva buradadır – deyə üç dəfə sinəsinə işarə etdi. – Kişiyə müsəlman qardaşını alçaltması şər olaraq kifayət edər. Hər bir müsəlman üçün digər bir müsəlmanın qanı, malı və namusu haramdır"[2].

## Zərərləri:

Müsəlmana məsxərə etməyin və ona istehza etməyin zərərləri:

---

[1] Hədisi Buxari: (30) və Müslim: (1661) rəvayət etmişdir.
[2] Hədisi Müslim: (2564) rəvayət etmişdir.

- Bu əməl Uca Allaha asilikdir və böyük günahlardandır.

- Bu əməli edən kəs fasiq olur və bu, onun şəhadətinin rədd edilməsi ilə nəticələnir. Qurtubi, Uca Allahın ayəsini zikr etdikdən sonra belə demişdir:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا يَسۡخَرۡ قَوۡمٞ مِّن قَوۡمٍ عَسَىٰٓ أَن يَكُونُواْ خَيۡرٗا مِّنۡهُمۡ...﴾

"Ey iman gətirənlər! Bir qövm başqa bir qövmü məsxərəyə qoymasın. Ola bilər ki, onlar (məsxərəyə qoyulanlar) o birilərindən (məsxərə qoyanlardan Allah yanında) daha xeyirli olsunlar..." [Hujurat 49 surəsi, ayə 11]. Bu ayəyə qədər:

﴿...بِئۡسَ ٱلِٱسۡمُ ٱلۡفُسُوقُ بَعۡدَ ٱلۡإِيمَٰنِ...﴾

"İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir". (Hucurat 49 surəsi, ayə 11). Bəziləri demişlər ki, mənası budur: "Qardaşına ləqəb qoyan və ya ona istehza edən kimsə fasiqdir"[1].

- Bu əməl kafirlərin və münafiqlərin əxlaqındandır. Çünki onların daimi adəti hər bir əsrdə iman əhlinə istehza etməkdir.

- Bu, istehza edənin, lağa qoyduğu kimsə ilə məşğul olması ona Allahın vacib buyurduğu ibadəti və zikri unutdurur. Necə ki, Uca Allah buyurur:

﴿فَٱتَّخَذۡتُمُوهُمۡ سِخۡرِيًّا حَتَّىٰٓ أَنسَوۡكُمۡ ذِكۡرِي...﴾

[1] Təfsir Qurtubi (16/328).

"Siz isə onları məsxərəyə qoyurdunuz. Sonda bu (məsxərə) Məni yada salmağı belə sizə unutdurdu". (Muminun 23 surəsi, ayə 110).

- Bu, çox vaxt haram edilmiş qeybətlə birgə olur və qaçılmaz olaraq insanı bu günaha sürükləyir. Çünki istehza edən kimsə başqalarına daha çox onların arxasınca istehza edib məsxərəyə qoyur.

- Çox vaxt istehza və məsxərə insanlara xor baxmaqdan irəli gəlir. Bu isə pislənilən təkəbbürdəndir ki, sahibinə şiddətli əzab vəd edilmişdir. Belə ki, səhih hədisdə Abdullah bin Məsuddan, radiyallahu anhu, rəvayət olunur ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə buyurmuşdur:

«لَا يَدْخُلُ الجَنَّةَ مَنْ كَانَ فِي قَلْبِهِ مِثْقَالُ ذَرَّةٍ مِنْ كِبْرٍ»، قَالَ رَجُلٌ: إِنَّ الرَّجُلَ يُحِبُّ أَنْ يَكُونَ ثَوْبُهُ حَسَنًا وَنَعْلُهُ حَسَنَةً، قَالَ: «إِنَّ اللَّهَ جَمِيلٌ يُحِبُّ الجَمَالَ، الكِبْرُ بَطَرُ الحَقِّ وَغَمْطُ النَّاسِ».

"Qəlbində zərrə qədər təkəbbür olan kimsə Cənnətə girməz". Bir adam dedi: "Kişi libasının və ayaqqabısının gözəl olmasını xoşlayır". Peyğəmbər, Allahın salavatı va salamı onun üzərinə olsun, buyurdu: "Allah gözəldir və gözəlliyi sevər. Təkəbbürlük isə haqqı danmaq və insanlara xor baxmaqdır"[1]. Haqqı qəbul etməmək: təkəbbürlük göstərərək onu rədd və inkar etməkdir. İnsanlara xor baxmaq: Onları alçaltmaqdır.

[1] Hədisi Müslim: (91) rəvayət etmişdir.

- Bu, cəmiyyət fərdləri arasında ədavət və nifrətin yayılmasına aparan ən böyük səbəblərdəndir. Hətta onların arasında vuruşmaya da səbəb olur.

– Bu, Allahın yaratdığı məxluqu məsxərəyə qoymaq anlamına da gələ bilər. Xüsusilə də insan başqasını siması, səsi, rəngi və ya Allahın ona verdiyi hər hansı bir xüsusiyyəti səbəbilə istehza edərsə.

- İstehza və lağlağı, istehza edən kimsənin vüqarını aparır, mərdliyini isə aşağı salır.

## Qorunma:

Məsxərə və istehzadan qorunma yolları:

- Uca Allahdan və Ona asilikdən irəli gələn əzabından qorxmaq.

- İnsanın özünü, dininə və dünyasına aid olan faydalı işlərlə məşğul edərək, nəfsinə qardaşlarının eyibləri ilə məşğul olmağa imkan verməməsi.

- Təkəbbürlüyü və insanlara xor baxmağı tərk etmək. Çünki başqalarına istehza edənlərin çoxunu buna sövq edən məhz onların öz qardaşlarına qarşı olan təkəbbürlükləri və onlara xor baxmalarıdır.

- Bəlkə də buna səbəb olan pis yoldaşlığı tərk etmək. Çünki onların məclisləri, zarafat yolu saydıqları insanlara istehza etməkdən xali olmur.

- Sahib olduğu bütün nemətlərin Allahdan olduğunu və Allahın, onun sahib olduqlarını

əlindən alıb, onu istehza etdiyi kimsədən daha pis bir hala salmağa qadir olduğunu bilməsi.

İnsanın, başqa birini qardaşlarını ələ salarkən gördükdə, bu işdə həddini aşmasın deyə, onu bu əməldən çəkindirməsi və ona şərik olmaması.

# Mündəricat

Böyük günahlar lüğəti ........ 2
Böyük günahlar lüğəti ........ 2
Müqəddimə. ........ 2
Ön söz. ........ 4
Böyük və kiçik günahların tərifi: ........ 5
Böyük günahla kiçik günah arasındakı fərq: ........ 5
Böyük günahların dini və dünyəvi təhlükələri və zərərləri: ... 7
Əhli-Sünnənin böyük günah sahibi və "müjdə və təhdid" hədisləri barəsində mövqeyi: ........ 15
Böyük günahların qarşısının alınması və müalicəsi: ........ 17
Allaha şərik qoşmaq ........ 21
Şirkin haram olmasını, onun çirkinliyini və günahının böyüklüyünü bəyan edən bir çox dəlillər vardır: ........ 23
Şirkin bir çox zərərləri vardır. Bunlardan bəziləri aşağıdakılardır: ........ 24
Şirkdən qorunmağın yolları: ........ 26
Allah və Onun rəsulu adından yalan danışmaq. ........ 28
Allah və Onun rəsulunun adından yalan danışmağın haram olduğunu, bu əməlin çirkinliyini və günahının böyüklüyünü bəyan edən dəlillər çoxdur. Onlardan bəziləri aşağıdakılardır: ........ 29
Uca Allah və Onun rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, adından yalan danışmağın bir çox zərərləri vardır: ........ 32
Allahın və Onun Rəsulunun adından yalan danışmaq günahına düşməkdən qorunma yolları: ........ 34
Bidət. ........ 35

Bil ki, dindəki hər bir bidət haram və zəlalətdir. Zəlalət isə və onun əhli Cəhənnəmdədir. Onun haram olmasına dair dəlillər çoxdur və onlardan bəzilərini qeyd edirik: ................................ 37
Bidətin bir neçə təhlükəsi və zərəri vardır. Onlardan bəziləri bunlardır: ................................ 39
Qorunma: ................................ 41
Riyakarlıq. ................................ 42
Dəlillər: ................................ 43
Zərərləri: ................................ 44
Qorunma: ................................ 48
Namazı tərk etmək. ................................ 51
Dəlillər: ................................ 52
Zərərləri: ................................ 54
Qorunma: ................................ 57
Zəkat verməmək. ................................ 59
Dəlillər: ................................ 60
Zərərləri: ................................ 64
Qorunma: ................................ 65
Zina. ................................ 66
Dəlillər: ................................ 67
Zərərləri: ................................ 71
Qorunma: ................................ 72
Oğurluq etmək. ................................ 75
Dəlillər: ................................ 75
Zərərləri: ................................ 78
Qorunma: ................................ 79
İçki (şərab) içmək. ................................ 80
Dəlillər: ................................ 81
Zərərləri: ................................ 84
Qorunma: ................................ 86

Riba (sələmçilik) ... 87
Dəlillər: ... 88
Zərərləri: ... 91
Qorunma: ... 93
Valideynlərin üzünə ağ olmaq. ... 95
Dəlillər: ... 97
Zərərləri: ... 99
Qorunma: ... 100
Qohumluq əlaqələrini kəsmək. ... 104
Dəlillər: ... 104
Zərərləri: ... 107
Qorunma: ... 109
Kahinlik, falçılıq, münəccimlik (ulduz falı) və bu münkərlərlə məşğul olanların yanına getmək. ... 111
Dəlillər: ... 112
Zərərləri: ... 116
Qorunma: ... 119
Heykəllərin düzəldilməsi. ... 121
Dəlillər: ... 121
Zərərləri: ... 124
Qorunma: ... 126
livat (homoseksualizim). ... 127
Dəlillər: ... 128
Zərərləri: ... 130
"Livat bu işi edəndə və ediləndə qəm-qüssə, narahatlıq və nifrət yaradır". ... 130
Qorunma: ... 131
Ramazan ayında heç bir üzr olmadan orucu açmaq. ... 133
Dəlillər: ... 134
Zərərləri: ... 136

Qorunma: ........................................................................................ 137
Lağa qoymaq və istehza etmək. ................................................... 139
Dəlillər: ........................................................................................ 139
Zərərləri: ...................................................................................... 146
Qorunma: ....................................................................................... 149

az372v3.0 - 04/09/2026